www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 26 yanvar 2016-cı il Çərşənbə axşamı № 18 (6339) Qiyməti 60 qəpik

**Xəbər**

## Ordumuz strateji məntəqəni ələ keçirdi

yazısı səh.2-də

**Gündəm**

### AŞ PA-ya yeni prezident seçildi



Qurumun Azərbaycan üzrə keçmiş həmməruzəçi beynəlxalq təşkilatın rəhbərliyinə gətirildi

yazısı səh.11-də

### Müxalifət toparlana biləcəkmi...

yazısı səh.3-də

### Zülfüqarlı qardaşları 1750 nəfəri işlə təmin etmək üçün cavab gözləyir

yazısı səh.4-də

*Aqşin Yenisey:*

### "Mirşahin məni o dünyaya hazırlayırdı"

yazısı səh.6-da

### Moldova kommunist inqilabı ərəfəsində

yazısı səh.9-da

### "Mart ayında siyasi məhbusların çoxu azad oluna bilər"

yazısı səh.11-də

### Qarabağ məsələsi ilə bağlı kritik gün başlayır-AŞ PA ilə Minsk Qrupu üz-üzə qalıb

yazısı səh.13-də

### İƏT-ə üzv ölkələrin Parlamentlər İttifaqı Xocalı faciəsini soyqırım kimi tanıdı

yazısı səh.9-da

### Şagirdi döyən müəllimə prokurorluğa və nazirliyə çağırıldı

yazısı səh.15-də

### Şadlıq sarayından mərasim evinə çevrilən məkanlar...

yazısı səh.12-də

### Türkiyə Rusiyanın sanksiyalarına cavab hazırlayır

yazısı səh.9-da

### Bu gün də qar yağacaq, yollar buz bağlayacaq

yazısı səh.14-də

## İlham Əliyev nazir müavinini özünə köməkçi təyin etdi

# PREZİDENT ƏLİ ƏSƏDOVU ƏTRAFINDAN UZAQLAŞDIRIR-YENİ TƏYİNATIN SİRRİ

Natiq Əmirova iqtisadi islahatları kurasiya etmək həvalə olundu; 1998-ci ilin aprelindən prezidentin iqtisadi məsələlər üzrə köməkçisi olan Əli Əsədovun sonrakı taleyi ciddi sual altına düşüb: o, ölkə başçısının yanında etimadını niyə itirib...




yazısı səh.5-də

## Azərbaycanda inqilabi islahatları zəruri edən daha bir ilginc səbəb

Beynəlxalq agentlik ölkənin kredit reytinqini ən aşağı səviyyəyə salmağa hazırlaşır; islahatları ləngitməyin hər günü ölkəyə daha baha oturmaqdadır; nə qədər ki, problemin həlli problemi yaradanlara tapşırılıb...

yazısı səh.8-də



*Ələsgər Süleymanov:*

### "ƏDV-nin yenidən tətbiqi medianın durumunu fəlakət həddinə gətirəcək"

yazısı səh.3-də



*Siyavuş Novruzov:*

### "ANS-də vətənpərvər verilişlər çoxdur, biz də izləyirik"

yazısı səh.10-da



Qiymət Mehdiyev

### Bodrumda 20 milyona villalar aldığı iddia olunan məmur danışdı: "Yalandır..."

yazısı səh.5-də

## Pensiyaların sığorta hissəsi artırılacaq



**Prezident İlham Əliyev əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsi haqqında sərəncam imzalayıb. Lent.az prezidentin saytına istinadən xəbər verir ki, ölkə başçısı pensiyaçıların sosial müdafiəsini gücləndirmək məqsədi ilə və "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 29.2-ci maddəsinə uyğun olaraq qərara alıb:**

1. Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fonduna tapşırılsın ki, 2015-ci il üzrə istehlak qiymətləri indeksinə uyğun olaraq 2016-cı ilin 1 yanvar tarixinə:

- bütün növ əmək pensiyalarının sığorta hissəsinin artırılmasını təmin etsin;
- fərdi uçot sistemində fərdi hesabların sığorta hissəsində toplanmış pensiya kapitalı məbləğlərinin indeksləşdirilməsini həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

## Sosial yardım alan ailələrə 20 milyon manat ayrıldı

**Prezident İlham Əliyev ünvanlı dövlət sosial yardımına ehtiyacı olan aztəminatlı ailələrin sosial müdafiəsinin gücləndirilməsi haqqında sərəncam imzalayıb.**

APA-nın məlumatına görə, ünvanlı dövlət sosial yardımının maliyyələşdirilməsi üçün Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsində nəzərdə tutulan məbləğin artırılması məqsədilə cari ilin dövlət büdcəsində Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə 20,0 (iyirmi) milyon manat ayrılıb.

## Məhkəmə Fuad Qəhrəmanlını həbsdə saxladı

**Nəsimi Rayon Məhkəməsində AXCP sədrinin müavini Fuad Qəhrəmanlının barəsində seçilmiş həbs-qətimkan tədbirinin ev dustaqlığı ilə əvəz olunması barədə verilən vəsatətə baxılıb.**

Lent.az-ın məlumatına görə, hakim Babək Pənahovun sədrliyi ilə keçirilən prosesdə vəsatət təmin edilməyib.

Qeyd edək ki, keçən il dekabrın 8-də Nəsimi Rayon Məhkəməsində onun barəsində 3 ay müddətinə həbs-qətimkan tədbiri seçilib.

F.Qəhrəmanlıya qarşı Cinayət Məcəlləsinin 281.1-ci (Dövlət hakimiyyəti əleyhinə çağırışlar etmə) və 283.2.1 (dini, irqi, sosial nifrət aşılayan çağırışlar etmə) maddələri ilə ittiham irəli sürülüb.Onu da qeyd edək ki, yanvarın 22-də keçirilən prosesdə müdafiə tərəfi hakim Şəlalə Həsənovanın məhkəməyə sədrlik etməsinə etiraz edərək vəsatət qaldırıblar. Fuad Qəhrəmanlının barəsində həbs-qətimkan tədbiri seçilməsi haqqında qərarı Şəlalə Həsənova verdiyi üçün müdafiəçilər yenidən həmin hakimin işə baxmasını istəməyiblər. Buna görə də proses qeyri-müəyyən vaxtadək təxirə salınıb.

## SOCAR: "Neftin hasilatı bizə orta hesabla 20 dollara başa gəlir"

**"Əminik ki, müəyyən müddətdən sonra neftin qiyməti yenə qalxacaq". "APA-Economics"in xəbərinə görə, bu barədə SOCAR-ın sərmayələr və marketinq üzrə vitse-prezidenti Elşad Nəsirov İsveçrənin SRF kanalına müsahibəsində deyib.**

"Neftin ən kəskin bahalaşması Ərəb-İsrail müharibəsində və ya İran Respublikası təsis olunanda yox, 1920-ci ildə bolşeviklər Bakıya daxil olanda baş vermişdir, çünki o dövrdə dünya neft hasilatının 1/2 hissəsi Bakının payına düşürdü. Biz əminik ki, neftin qiyməti yenə qalxacaq", - deyə E. Nəsirov qeyd edib.

Jurnalistin "Neftin qiymətinin aşağı düşməsi sizi narahat edirmi" sualına vitse-prezident bu cür cavab verib: "Qətiyyən yox".

"Neftin qiyməti çox fərqli faktorlardan asılıdır, bu isə qiymət inkişafının proqnozlaşdırılmasını olduqca çətinləşdirir. Əlbəttə ki, iqtisadi məsələlər müəyyən rol oynayır, lakin ölkələrarası münasibətləri tənzimləyən siyasi amillərin də təsiri var. Neftin qiyməti 20 dollara düşə bilər, lakin bu qiymət uzun müddət qalmaz, çünki neft sahəsinə yatırılan investisiyanın azaldılması hiss olunacaq. Bu gün bir sıra hasilatçılar nefti çox aşağı maya dəyəri ilə hasil edə bilir. Buna baxmayaraq, təklif yenə tələbat səviyyəsindən aşağı düşəcək", - deyə E. Nəsirov bildirib.

**E. Nəsirov deyib ki, Azərbaycanda neft hasilatının maya dəyəri 25 dollardan aşağıdır:** "Sirr deyil ki, biz nefti quruda və dənizdə hasil edirik. Neft hasilatının maya dəyəri də fərqlidir. Quruda köhnəlmiş yataqlardan nefti hasil etmək, əlbəttə, dənizdə olan yeni yataqlardakı hasilatdan daha çox xərc tələb edir. Beləliklə, neftin hasilatı bizə orta hesabla 20 dollara başa gəlir".

"Qaya Mətbuat Yayımı" MMC!

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan**
**"Yeni Mesavat" - 0.60 AZN**
**və bundan əlavə 2500 adda yerli**
**və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur:

# Azərbaycan ordusu strateji yüksəkliyi nəzarətə götürdü

**Azərbaycan Müdafiə Nazirliyi "Odundağ" yüksəkliyinin ordumuzun nəzarətinə keçməsi xəbərini təsdiq edib.**

Müdafiə Nazirliyinin mətbuat xidmətinin məlumatında deyilir: "Bəzi elektron kütləvi informasiya vasitələrində Ermənistandakı mənbələrə istinadən Azərbaycanın Qazax rayonu ilə Ermənistanın Noyemberyan yaşayış məntəqəsi arasındakı ərazidə yerləşən "Odundağ" yüksəkliyinin Azərbaycan ordusunun nəzarətinə keçməsi və ətraf erməni ərazilərinin asanlıqla müşahidə edilməsi barədə məlumat yayılıb: "Faktı təsdiq edərək bildiririk ki, həqiqətən həmin yüksəklik əlverişli və əhəmiyyətli olduğu üçün bölmələrimiz tərəfindən nəzarətə götürülüb, taktiki və mühəndis-istehkam baxımından gücləndirilib".





## QHT Şurası Qəbələdə təlim keçirdi

**Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası Qəbələdə QHT-lərə layihə təkliflərinin hazırlanması, monitorinqi və qiymətləndirmə metodları, büdcə xərclərinin idarə edilməsi, ictimai problemlərin müəyyənləşdirilməsi və onların həllinə yeni yanaşmalar mövzularında təlim təşkil edib.**

Toplantıya Qəbələ, Göyçay, Şəki və Oğuz rayonlarında fəaliyyət göstərən 25 QHT-nin rəhbəri və mühasibləri qatılıb.

Şura Katibliyinin məsləhətçisi Həsən Səmədov çıxış edərək layihə təkliflərinin hazırlanması, monitorinq və qiymətləndirmə metodları, ictimai problemlərin müəyyənləşdirilməsi və onların həllinə yeni yanaşmalar, QHT şəbəkəsi üçün səmərəli idarəetmə mövzuları haqqında iştirakçılara ətraflı məlumat verib.

Şura Katibliyinin məsləhətçisi Toğrul Turabov layihələrdə nəzərdə tutulan xərclər smetasının tərtib edilməsi, 2016-cı ildə Vergilər Məcəlləsinə edilmiş dəyişikliklər, DSMF və Maliyyə Nazirliyinə təqdim ediləcək hesabatlar və "e-qht" elektron proqram təminatı barədə çıxış edib.

Şura Katibliyinin əməkdaşları sonda layihə hazırlığı prosesi və hesabatın təqdim edilmə qaydaları zamanı QHT-lərin qarşılaşdığı çətinliklərlə bağlı sualları cavablandırıblar.




## Rusiyada 81 nəfər "donuz qripi"nə yoluxub

**Rusiyada A(H1N1) "donuz qripi" virusu yayılmaqda davam edir. APA-nın məlumatına görə, bu virusa yoluxma halları daha çox Kaluqa vilayətində və Kamçatka diyarında qeydə alınıb. Kamçatka diyarında 39 nəfərin "donuz qripi" virusuna yoluxduğu rəsmən təsdiqlənib. Region hökumətinin mətbuat xidmətindən "donuz qripi"nə yoluxanların 15 nəfərinin uşaq olduğu bildirilib.**

Diyarın səhiyyə naziri Marina Volkova virusa yoluxmuş uşaqların əsasən ağır respirator virus infeksiyasından əziyyət çəkdiklərini qeyd edib. O, sosial şəbəkələrdə "donuz qripin"də ölüm hallarının baş verməsi ilə bağlı yayılan xəbərləri təkzib edib. Nazir həmin şəxslərin pnevmoniyadan öldüklərini bildirib.

Artıq Kamçatka diyarında "donuz qripi"nin yayılması ilə bağlı karantin elan olunub. Bu barədə region hökumətinin saytında məlumat yerləşdirilib. "Qapalı yerlərdə kütləvi tədbirlərin keçirilməsinə qadağa qoyulub. Təhsil müəssisələrində gündəlik monitorinqlər aparılır. Hələlik orta məktəblərin və digər təşkilatların bağlanması gündəmdə deyil" - deyə məlumatda qeyd olunub.

"Rospotrebnadzor"un yaydığı məlumata görə, ötən həftə Kaluqa vilayətində 9327 nəfərin ağır respirator virus infeksiyasına və 94 nəfərin isə qrip virusuna yoluxduğu müəyyənləşib. Rusiya üzrə ən çox qripə yoluxma halları məhz Kaluqa vilayətində qeydə alınıb. 42 nəfərin A(H1N1) virusuna yoluxduğu rəsmən təsdiqlənib. Artıq 55 yaşlı qadının "donuz qripi"ndə öldüyü də məlum olub.Vilayətin bir çox təhsil müəssisəsində dərslər dayandırılıb, bir sıra orta məktəblərdə karantin elan edilib.

## «Bakcell» şirkəti «ƏlfəCIN»layihəsinin uğur göstəricilərini paylaşır

**Azərbaycanın ilk mobil operatoru və Aparıcı Mobil İnternet Provayderi «Bakcell» şirkəti ölkənin öncül gənclər təşkilatlarından olan Xəzər İntellektual Gənclər Klubu ilə birgə əməkdaşlıq çərçivəsində həyata keçirdiyi «ƏlfəCIN» adlanan intellektual layihəsinin ilk ilinə yekun vurub.**

**«ƏlfəCIN» layihəsinin əsas məqsədi intellektual oyunlar hərəkatını genişləndirmək, gənclərin asudə vaxtının səmərəli təşkilinə nail olmaq, onların intellektual potensialını üzə çıxarmaq, təhsildə yeni uğurlarına yol açmaq, "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramının icrasına ictimai və biznes sektorunun töhfəsini təmin etmək idi.**

**«ƏlfəCIN» layihəsi çərçivəsində son bir il ərzində «Bakcell» və Xəzər İntellektual Gənclər Klubu yeniyetmə və gənclər üçün intellektual oyunlar üzrə bir çox turnirlər təşkil ediblər. Onlar arasında hər il ənənəvi olaraq təşkil olunan Ağıl Oyunları Festivalı, Azərbaycan Kuboku, Azərbaycan Superkuboku, İntellekt Marafonu Festivalı və digər yarışları qeyd etmək olar.**

**Bu layihədən Azərbaycanın 18 regionu daxil olmaqla ümumilikdə 12.000-ə yaxın yeniyetmə və gənc faydalanıb. Layihə çərçivəsində intellektual oyunlar üzrə 15-dən çox turnir təşkil olunub. «ƏlfəCIN»layihəsi biznes, dövlət və ictimai sektorun birgə səyləri nəticəsində geniş kütləyə çatdırılıb və gənclərin maarifləndirilməsində önəmli sosial hadisəyə çevrilib.**



Rahim Rəhimov

## "QHT-yə reyestrdən çıxarış verilməməsi sənədlərdəki çatışmazlıqla bağlıdır"

**"Yeni Müsavat"ın ötən saylarında "Ədliyyə Nazirliyinin idarə rəisi və əməkdaşı prezidentin iradəsinə qarşı" başlıqlı yazı dərc edilib. Məqalədə QHT təmsilçisi, "Yeni Müsavat" qəzetinin redaktoru Elşad Məmmədli Ədliyyə Nazirliyinin Qeydiyyat və Notariat Baş İdarəsinin Hüquqi şəxslər və vətəndaşlıq vəziyyəti idarəsinin rəisi Rahim Rəhimovun imzası ilə təmsilçisi olduğu təşkilat üçün reyestrdən çıxarış ala bilməməsindən şikayətlənib.**

Bu yazının dərcindən sonra QHT-nin rəhbərinə yazılı məktub göndərilib. Yanvarın 21-də göndərilən məktub poçt vasitəsilə gəldiyindən 23-də ünvanına çatıb və bu səbəbdən məlumata QHT indi reaksiya verə bilib. Məktubda idarəyə təqdim edilən sənədlərdə müəyyən çatışmazlıqlar olması səbəbindən reyestrdən çıxarış verilməsinin mümkün olmadığı qeyd edilib. E.Məmmədli bildirdi ki, həmin məktubda göstərilən qüsurlar yenidən düzəldilərək, sənədlər sözügedən idarəyə təqdim ediləcək: "Müəyyən müzakirələrdən sonra belə qənaətə gəldik ki, baş verən olay bir anlaşılmazlıqdır və bunu qərəzli bir kampaniya kimi təqdim etmək niyyətində deyilik. Həmçinin idarənin göstərdiyi səbəbi də mətbuat vasitəsilə diqqətə çatdırırıq. Bizim tələbimiz reyestrdən çıxarışın hansı səbəbdən yubadılmasına, təqdim edilməməsinə izah verilməsi idi. Artıq bunu məktub vasitəsi ilə çatdırıblar. Biz tələb olunan sənədləri yenidən tərtib edərək idarəyə təqdim edəcəyik. Düşünürəm ki, bu anlaşılmazlıq aradan qalxacaq və biz dövlətçilik maraqlarına xidmət edən layihələrimizin icrasını davam etdirəcəyik. Biz o qənaətdəyik ki, hörmətli Rahim Rəhimov barəsində bizə çatdırılan "öz işini bilən adamdır" imicinə sadiqdir".

## Əbülfəs Qarayev direktoru işdən çıxardı

**Bakı Şəhər Mədəniyyət və Turizm İdarəsində kadr dəyişikliyi olub. İdarədən verilən məlumata görə, Mədəni Tədbirlərin Təşkili və Yaradıcı Gənclərlə iş üzrə mərkəzin direktoru Rəşadət Həşim oğlu Həşimov vəzifəsindən çıxarılıb.**

Qeyd edək ki, Mədəniyyət və Turizm Nazirliyinin sonuncu kollegiya iclasında Bakı Şəhər Mədəniyyət və Turizm İdarəsinin rəisi Əlikram Əliyev vəzifəsindən azad olunub. Nazirin əmri ilə bu vəzifəyə Nizami Kino Mərkəzinin direktoru Vüqar Zeynalov təyin edilib.



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**




YENİ MÜSAVAT
N 18 (6339) 26 yanvar 2016




# "ƏDV-nin yenidən tətbiqi medianın durumunu fəlakət həddinə gətirəcək"

**Yanvarın 1-dən ölkəyə gətirilən çap məhsullarına, o cümlədən qəzet kağızına əlavə dəyər vergisi (ƏDV) tətbiq edilir. Bu vergi növü bir neçə dəfə aradan qaldırılsa da, təzədən tətbiq olunmağa başlayıb. Belə ki, ilk dəfə çap məhsulları üzərindən ƏDV-nin götürülməsi 2000-ci ilə təsadüf edir. Həmin vaxt qəzet rəhbərlərinin dövlət başçısı Heydər Əliyevlə görüşündə mətbuatın problemləri müzakirə edilmiş və ƏDV ləğv olunmuşdu. 2007-ci ildə, prezident İlham Əliyevin dövründə məsələ gündəmə gəlsə də, bir müddət sonra ƏDV təzədən götürülmüşdü.**

2016-cı ildə isə məsələ növbəti dəfə aktuallaşıb. Bildirilir ki, Vergilər Məcəlləsinə son dəyişikliklərdən sonra ƏDV-nin ləğvini nəzərdə tutan maddə qüvvədən düşüb və çap məhsulları əlavə dəyər vergisinə cəlb edilib. Bu isə o deməkdir ki, ölkəyə gətirilən qəzet kağızının üstünə əlavə 18 faiz vergi gələcək.

"Yeni Müsavat" xatırladır ki, daha öncə Azərbaycan Respublikasının ərazisinə gətirilən, ƏDV-dən zad olunan malların siyahısında "Qrup 48" bölümündə "qəzet kağızı, rulonlarda və ya vərəq şəklində", eləcə də "çap olunmuş kitab, qəzet və jurnallar" bəndi yer alıb. Qeyd etdiyimiz kimi, çap məhsullarının, o cümlədən qəzet kağızının ƏDV-dən azad edilməsi də Nazirlər Kabinetinin qərarına əsasən, yanvar ayından etibarən qüvvəyə minib. Devalvasiya dönəmində qəzetlər, eləcə də nəşriyyatlar üçün ciddi maliyyə krizisi yaradacaq bu dəyişiklik, gözlənildiyi kimi, sözügedən sektorlarda həyəcan təbili çalınmasına səbəb olub.

**"Qaya" yayım firmasının rəhbəri Xanhüseyn Əliyev məsələ ilə bağlı qəzetimizə bunları bildirdi:** "Vergi Məcəlləsində göstərilir ki, yerli qəzet və jurnallar ƏDV-dən azaddır. İdxal olunan bütün xarici qəzet və jurnallar ƏDV-yə cəlb edilib. Bu, ölkəyə gətirilən qəzet kağızına da aiddir. 2005-ci ildə Nazirlər Kabinetinin 11 saylı qərarı ilə bu məhsullar ƏDV-dən azad olunmuşdu. Qanunda ziddiyyət var. Həmin qərar ləğv edilməyə-edilməyə, çap məhsullarından 18 faiz ƏDV tutulur. Burada Vergi Məcəlləsi ilə ziddiyyət var. Biz məsələ ilə bağlı Nazirlər Kabinetində, Mətbuat Şurasında olmuşuq. Müzakirələr gedir. Üçüncü dəfədir belə bir addım atılır, çap məhsullarına ƏDV tətbiq edilir".

**"Yeni Müsavat" qəzetinin baş direktoru Ələsgər Süleymanov bildirdi ki, son qiymət artımı, devalvasiya qəzet kağızının və çap xərclərinin artırılmasına gətirib çıxarıb:** "Onsuz da bunun yükünü daşımaqda çətinlik çəkən qəzetlər tezliklə ikinci zərbəni də aldı. Çap məhsullarının - qəzet kağızının ƏDV-dən azad olunmasının ləğvi fəlakətli vəziyyət yaratdı. Onsuz da qəzetlər son dövrlər mövcudluğunu qoruyub saxlamaq üçün ciddi mücadilə aparırdı. Amma verginin yenidən tətbiqi çap xərclərini avtomatik artıracaq və yükümüzün üstünə əlavə yük qoyacaq. Düşünürəm ki, dövlət rəsmiləri bu məsələni bir daha müzakirəyə çıxarıb, qərarla bağlı mətbuatın xeyrinə düzəlişlər etməlidirlər. Əks halda, mətbuatın öz mövcudluğunu qoruyub saxlaması sual altında qalacaq".



**Ələsgər Süleymanov:** "Qəzetin öz mövcudluğunu qoruması sual altındadır"



**Şahbaz Xuduoğlu:** "Faktiki, ikiqat vergi qüvvəyə minib və bu, krizis yaradır"



**Xanhüseyn Əliyev:** "Qanunda ziddiyyətlər var"

**"Qanun" nəşrlər evinin rəhbəri Şahbaz Xuduoğlu da bu qərarın rəhbəri olduğu nəşrlər evinin fəaliyyətinə ciddi təsir edəcəyini düşünür. Onun sözlərinə görə, Vergi Məcəlləsinin 164.2 maddəsində göstərilib ki, idxalın həmin maddədə göstərilməyən digər növləri müvafiq icra orqanları tərəfindən vergidən azad oluna bilər:** "Vergiyə cəlb olunan məhsulların siyahısında isə çap məhsulları yer almamışdı. Daha sonradan isə bu, əsas götürülərək Nazirlər Kabineti qərar verib, ƏDV-dən azad olunan malların siyahısında qəzet kağızı daxil olmaqla, çap məhsullarını daxil etmişdi. Bu qərar 2004-cü ilin 30 dekabrında qəbul olunub. Amma Vergi Məcəlləsindəki bu maddə yanvarın 1-dən qüvvədən düşdü, avtomatik olaraq, vergidən azad olunan malların siyahısı da ləğv olundu. Bura buğda, əlil arabaları, pərakəndə üçün nəzərdə tutulan uşaq qidası, külək enerjili elektrik qurğuları və sair məhsullar daxil idi. Vergi Məcəlləsinə yeni dəyişikliyə əsasən, artıq ƏDV-dən birbaşa azad olunmanı da məcəllə özü müəyyən edir. Hansı məhsul vergidən azaddırsa, bu, məcəllənin özündə qeyd olunur. Bu dəyişiklik 2016-cı il yanvarın 1-dən qüvvəyə minib. Bu, gömrük işində də böyük əngəl yaradıb. Gömrük Komitəsi daha öncə Nazirlər Kabinetinin qərarını əsas tutaraq fəaliyyət göstərib".

**Müsahibimiz dedi ki, onsuz da bu günə qədər satışdan 18 faiz vergi tutulurdu. Onun sözlərinə görə, son dəyişikliklə faktiki ikiqat vergi qüvvəyə minib və bu, krizis yaradır. Ş.Xuduoğlu nəticədə xaricdə nəşr olunan kitabların da gömrükdə qaldığını vurğuladı:** "Təbii ki, bu, qiymətlərə yüz faiz təsir edəcək. Hələ mən devalvasiyanı nəzərə almıram. Amma 18 faizlik vergi birbaşa satış qiymətlərini qaldıracaq".

**Vergilər Nazirliyindən isə "Yeni Müsavat"a məsələ ilə bağlı bildirilib ki, qəzet kağızının ƏDV-dən azad edilməsi gündəmdə deyil:** ""Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 20 oktyabr 2015-ci il tarixli Qanunu ilə Vergi Məcəlləsinin 164.2-ci maddəsi ləğv edilərək Azərbaycan Respublikasının ərazisinə gətirilən və təyinatı üzrə idxalda əlavə dəyər vergisindən azad olunan mallar Vergi Məcəlləsinin 164.1.19-164.1.25-ci maddələri ilə müəyyən olunub. Həmin maddələrdə qəzet kağızının idxalının ƏDV-dən azad edilməsi nəzərdə tutulmayıb".

❑ **Sevinc TELMANQIZI**

# Müxalifət toparlana biləcəkmi...

## Siyasi liderlər daha geniş birliyə can atırlar, müzakirələr davam etdirilir...

**İki gün əvvəl ölkə müxalifətinin böyük bir kəsiminin bir araya gələrək toplantı keçirməsi maraqla qarşılanıb. Toplantının nəticəsində yaradılan İşçi Qrupa ümidlər böyükdür. Toplantı iştirakçısı olan ondan artıq partiya və təşkilatın ölkənin böhrandan çıxarmaq üçün təkliflər hazırladığı vurğulanır. Toplantıda iştirak edən müxalifət liderləri musavat.com-a gələcək planlarından danışıblar.**

**Ümid Partiyasının sədri İqbal Ağazadə** bildirib ki, böhranla bağlı keçirilən tədbirin nəticəsi olaraq ilkin mərhələdə İşçi Qrupu yaradılıb: "İşçi Qrupu yanvarın 27-də Ümid Partiyasının qərargahında toplanacaq. İlk iclasa bir sıra məsələlər çıxarılacaq. Həm hər təşkilat formasında proseslərə dəstək imkanlarından danışılacaq. Növbəti mərhələdə hansı təşkilat formasında işi davam etdirmək müzakirə ediləcək. Razılığa gəlinsə, böhranla bağlı plan üzərində işləniləcək. Hesab edirəm birinci mərhələ üçün normal yanaşmadır. Normal təkliflərdir. Biz ölkənin böhrandan çıxarılmasını istəyirik. Ona görə də böhrandan çıxma yollarına azacıq töhfə vermək istəyən hər kəsi prosesə dəvət edəcəyik".

**"AĞ blok"un təsisçilərindən olan Tural Abbaslı isə qeyd edib ki, toplantıdan sonra təşkilat və partiya rəhbərləri bir araya gələrək müzakirə aparıblar:** "Görüşdə ondan artıq partiya iştirak edirdi. Ümumi məsləhətləşmələr aparıldı. Belə qərara gəlindi ki, işçi qrup yaradılsın və növbəti iclas təyin olunsun. Təkliflərin dəyərləndirilməsi və bundan irəli gələn növbəti addımların atılması ilə bağlı qərarlar oldu. Növbəti iclasda daha konkret təkliflər üzərində dayanılacaq. Daha konkret addımlar atılacaq. Hansısa bir siyasi qrupun burada ağırlığı yoxdur. Ümumi bir müxalifət üçün danışıqlar aparılır. Həssas yanaşılır ki, hər kəsin təklifləri diqqətə alınsın, bundan irəli gələrək proses başladılsın. Ümid edirik ki, növbəti addımlarda daha çox heyət iştirak edəcək. Bu toplantı böhranlı vəziyyətdən çıxış yolunun tapılması üçün müxalifət tərəfindən atılan və atılmalı olan real, lazımlı addım idi. Qalır sadəcə olaraq digər partiyaların, siyasətçilərin siyasi ambisiyalarını kənara qoyub ümumi maraq naminə bu prosesdə iştirak etmələri. Heç kim düşünməsin ki, prosesdə artıq formalaşıb və yaxud qonaq qismində iştirak etməklə məsələ bitir".




**ADP sədri Sərdar Cəlaloğlu isə qeyd edib ki, tədbirdə növbəti addım kimi bu prosesi davamlı etmək nəzərdə tutulub:** "Müxalifət liderləri bir araya gəlib bu yığıncaqda səslənən fikirləri bir qərar halına salmaq üçün yenə toplanacağıq. Fikirlərimizi, təkliflərimizi aidiyyəti ünvanlara təqdim edəcəyik. Bunun üçün müəyyən addımlar atacağıq. Əsas məqsədimiz hakimiyyətə böhrandan çıxmaqla bağlı düzgün hesab etdiyimiz yolları, addımları çatdırmaqdır. Bu istiqamətdə işimizi davam etdirəcəyik".

❑ **Röya RƏFİYEVA**

# “Müxalifətin birliyi inandırıcı deyil...”

## Hakimiyyətyönlü deputatlar müxalifətin birlik toplantısına və böhranla bağlı hazırlayacağı təkliflərə ciddi yanaşmır, çünki...

**İki gün əvvəl 10-dan artıq müxalifət partiyasının və siyasi təşkilatın bir araya gələrək geniş toplantı keçirməsi birmənalı qarşılanmır. İqtidar düşərgəsi müxalifətin birliyinə və böhrandan çıxmaq üçün verəcəyi təklifləri ciddi qəbul etmir. Həmçinin bildirilir ki, onların verəcəyi təkliflər iqtidara lazım deyil.**

**Deputat Zahid Oruc** isə bildirib ki, hakimiyyətə müxalifətin verdiyi təkliflər lazım deyil: “Əlbəttə ki, normal siyasi həyatda hər bir partiyanın, təşkilatın ölkədəki proseslərə dair mövqeyi formalaşır. Çox önəmli olanları müxtəlif vasitələrlə ictimailəşdirirlər. Onlar gələcəkdə hər hansı dövləti fəaliyyətdə nəzərə alınır. İstər Avropa ölkələrində, yaxud qardaş Türkiyədə belədir. Ancaq Azərbaycanın daxili həyatında son on illər ərzində müxalifətin fəaliyyəti üçün bir xarakterik xüsusiyyətlər olub. Bu da devalvasiya oldu-olmadı, o partiyaların, hərəkatların arasındakı ziddiyyətlər o qədər böyük olub ki, Azərbaycanın sadə insanı öz taleyini bu təşkilatlarla bağlamaq istəməyib. Məsələn, düşünəndə ki, Azərbaycanda bir Xalq Cəbhəsi adına iki partiya iddia edir, istənilən adamın sual verməyə haqqı var ki, bu təşkilatın təmsilçiləri gəlib ölkəni necə birləşdirəcəklər? Sual verərlər ki, birinci olaraq Elçibəy idealları altında öz birləşmənizi həyata keçirin. İkinci tərəfdən, bir-biri arasındakı ziddiyyətlər çox böyükdür. Hətta son dövrdə onu aradan qaldırmağa çalışsalar da, seçki prosesi başa çatan kimi vəziyyət əvvəlki mərhələyə qayıdıb. Üçüncüsü, bir sıra müxalif qüvvələr məlum səbəblərdən ölkənin real həyatından xeyli ayrı düşüblər. Yəni onların baxışlarına görə atılacaq addımlar Azərbaycanı gerçək fəlakətlə üz-üzə qoyar. Məsələn, hələ də manatın dollar qarşısında devalvasiyasından, manatın real alıcılıq qabiliyyəti məsələsində qarışıqlıq yaradan adamların ölkənin real həyatına bağlı köklü sabitləşdirmə proqramları və yaxud antiböhran sənədləri təqdim edəcəyinə inanmıram. Bu mənada, düşünürəm ki, onların baxışlarında min faizlik devalvasiya var. Yəni müxalifət özü qat-qat devalvasiyaya uğrayıb və bu mənada onlardan çox səriştəli, real təhlili mövqelər alaraq dövləti kursa həmin müddəaları gətirmək və onları tətbiq etmək gerçəkdən yolverilməz olar. Məsələn, son dövrlər onların bir neçə məsələyə baxışını görməkdəyik. Tutaq ki, hökumətin ikili fəaliyyətlərini təklif etdikləri halda, bu, partiyaların devalvasiyadan bu yana ilk toplantısıdır. Harada göstərirlər onlar operativliyi? Hansısa epizodik status paylaşımları hər hansı ölkənin həyatını qurmaq üçün əsas götürülə bilməz. Dövlət feysbukla idarə olunmur ki... Onlar əhəmiyyətlidir cəmiyyət üçün, auditoriya üçün gərəklidir. Hətta İranın Ali Dini Şurasının rəhbərinin də sosial mediada hesabları var. Amma o demək deyil ki, İran feysbuk vasitəsilə yönləndirilir. O cümlədən də Azərbaycanda bu adamlar virtual aləmin təsirinə o qədər aludə olublar ki, elə düşünürlər ki, gerçəkdən



Zahid Oruc



Fəzail Ağamalı

onların ağıllarında, şüurlarında, fikirlərində olan real dövlət krusuna çevrilə bilər. Hətta 90-ci illərdə də belə etdilər və yanlışlıqlar oldu. Yəni meydanda verilən bəyanatı avtomatik dövlətin kursuna çevirib İrana, Turana və sairəyə iddialarla çıxış edəndə ağır nəticələri oldu. Bu mövqelərimin içərisində qətiyyən müxalifəti aşağılamaq mövqeyini tutmuram. Ancaq onların heç rəhbərləri bildiyim qədər o tədbirə qatılmayıblar. İkinci tərəfdən, real olaraq, irəli sürülən fikirlər yenə də hakimiyyət üçün artıqdır. Əminəm ki, artıq prezidentin 18 yanvar müşavirəsindən sonra da atılan köklü addımlar maliyyə-iqtisadi sferada sabitləşməyə əsas verdi, buna imkanlar yaratdı. Ona görə də öz düşüncələrində, fikirlərində və siyasi baxışlarında devalvasiyaya uğramış və manatdan qat-qat aşağı nöqtədə dayananların mövqeyini hökumət üçün götürmək, məncə, real deyil”.

**Deputat Fəzail Ağamalı isə qeyd edib ki, müxalifətin indiki durumda da birləşməsi real görünmür:** “Hər halda, ən müxtəlif vaxtlarda, ən müxtəlif zaman kəsiyində müxtəlif səbəblərlə, çağırışlarla, bəhanələrlə müxalifətdə olan partiyalar bir araya gəliblər. Çağdaş Azərbaycan tarixi bizim önümüzdə nümayiş etdirib. Lakin bu bir araya gəlmə, hətta yaradılmış olan müxalifət partiyalarının bloku, müxtəlif birliyi uzun ömürlü olmayıb. Onlar öz fəaliyyətlərində cəmiyyət üçün, onun inkişafı üçün, dövlətimizin tərəqqisi üçün ciddi xarakter daşıyan proqramlar ortaya qoya bilməyiblər. Məsələ epizodik müzakirələrdən o tərəfə keçməyib. İndiki zaman kəsiyində artıq yaranmış olan situasiyadan çıxmaq və Azərbaycanın dünyanı bürümüş olan maliyyə-iqtisadi böhrandan daha az itki ilə çıxmasını təmin etmək üçün ölkə prezidenti ciddi addımlar atmaqdadır. Bu addımlar artıq konkret nəticələrini verməkdədir. Belə bir şəraitdə müxalifətin bir araya gələrək yaranmış situasiyaya hər hansı töhfə vermək, hər hansı situasiyadan çıxmaqla bağlı konkret proqram ortaya qoyması inandırıcı görünmür. İndiki müxalifətin toplantısı da inanmıram ki, gələcəkdə yeni bir blokun yaranmasına gətirib çıxara bilsin. Çünki bunlar hər zaman bir yerdə olublar. Ola bilsin ki, bir-iki partiya az və çox dərəcədə bu cür toplantılarla birləşiblər, ya yox, nəticə etibarı ilə bu cür birləşmələr cəmiyyətdə, Azərbaycan siyasi mühitində və ictimai rəydə ciddi xarakter daşıyan bir nəticə verməyib. Bu baxımdan, mən güman etmirəm ki, bu toplantı hər hansı birliyə və parlamentdən kənarda olan müxalifət partiyalarının hər hansı birliyinə gətirib çıxarsın. Bu, inandırıcı görünmür”.

❑ Röya RƏFİYEVA

# Zülfüqarlı qardaşları 1750 nəfəri işlə təmin etmək üçün cavab gözləyir

## Deputat Fərəc Quliyev: “İmkanlarını ortaya qoyub işləmələri mütərəqqi haldır və buna şərait yaradılmalıdır”

**Prezident İlham Əliyevin son müşavirədə qeyri-neft sektorunun inkişaf etdirilməsinin vacib olmasını söyləməsi, ölkədə sahibkarlığın inkişafına şərait yaradılması haqda çıxışları bir çox sahibkarları hərəkətə keçirdi.**

Zavodları əllərindən alınmış, 1750 işçisi işsiz qalmış Zülfüqarlı qardaşları prezidentin çağırışlarına dərhal reaksiya verdilər. Rövşən Zülfüqarlı prezidentin çıxışını dinlədiklərini və əllərindən alınan zavodları özlərinə qaytarılacağı təqdirdə xeyli vətəndaşa iş, əmək haqqı verməyə də hazır olduqlarını açıqladı. Bildirdi ki, “Bakı Elektroştamp”, “Bakıpoladtökmə” və “Xəzər boru” zavodları əllərindən alınıb və bu gün həmin zavodlar fəaliyyətsizdir: “Zavodların işini iflic edib 1750 nəfəri işsiz qoydular. Rasim Məmmədovun qoçu dəstəsi 1750 Azərbaycan vətəndaşını işsiz qoydu. Əgər bizim haqqımız bərpa olunsa, əlbəttə ki, iş yerlərini yenidən yaradarıq və üstəlik, artırarıq da. Biz ölkə rəhbərinə, cənab prezidentə inanırıq. Ümid edirik ki, əlimizdən alınan zavodlar özümüzə qaytarılacaq”.

**Göründüyü kimi, sahibkarlar ölkə rəhbərinin çağırışına dəstək verib. Bəs ötən müddət ərzində onlarla maraqlanan, müraciətlərinə cavab verən olubmu? Dünən Rövşən Zülfüqarlı ilə əlaqə saxlayıb bu suala aydınlıq gətirdik. R.Zülfüqarlı bildirdi ki, hələlik müraciətlərinə cavab verən olmayıb:** “Gözləyirik, ümid edirik ki, nəhayət bizim səsimiz prezidentə çatacaq, haqqımız bərpa olunacaq”.



Ölkə sahibkarlığının durumu, onların prezidentə müraciətlərinə baxılması, yaranmış iqtisadi böhrandan çıxış yolları ilə bağlı deputat Fərəc Quliyevin də fikirlərini öyrəndik.

**Deputat deyir ki, bütün sahibkarlara, istər Zülfüqarov qardaşları olsun, istər digərlərinə ölkədə normal fəaliyyət göstərmələri üçün münbit şərait yaradılmalıdır:** “Bütövlükdə onun tərəfindəyəm ki, böyük bir iqtisadi amnistiya olmalıdır, əmlaklar leqallaşdırılmalıdır. İş adamlarına işləmək, iş yerləri açmaq imkanı verilməlidir. Ümumiyyətlə, hakimiyyətdə də başqa cür düşünmürlər. Düşünürəm ki, müraciət edən sahibkarların müraciətinə də yox deyilməz. Bu dəqiqə ölkənin elə vəziyyətidir ki, tam səfərbər olmaq, iş bilən adamların dəstəyi, ölkə iqtisadiyyatının inkişafı üçün öz vəsaitlərini, imkanlarını ortaya qoyub işləmələri mütərəqqi haldır və buna şərait yaradılmalıdır”.

**F.Quliyev deyib ki, ölkədə sahibkarlığın inkişafı üçün münbit şərait yaradılması ölkənin inkişafı deməkdir:** “Sahibkarlara vergidə güzəşt olunmalı, gömrükdə müəyyən tariflərə yenidən baxılmalıdır. Elə etmək lazımdır ki, ölkəyə investisiya qoyuluşu üçün tam münbit şərait yaransın. Bundan başqa, kreditlər də əlçatan olmalıdır”.

Qeyd edək ki, Zülfqarlı qardaşlarına məxsus zavodlar qanunsuz olaraq əllərindən alınıb. Bununla bağlı illərlə məhkəmə çəkişmələri olub. Nəticədə rentabelli məhsullar istehsal edən zavodlar fəaliyyətsiz qalıb.

❑ E.MƏMMƏDƏLİYEV




# Daha bir bank bağlandı

**Azərbaycan Mərkəzi Bankının (AMB) İdarə Heyətinin 22 yanvar 2016-cı il tarixli, 05/5 nömrəli qərarı ilə məcmu kapitalın minimum məbləği tələbinə əməl etmədiyinə, kreditorları qarşısında öhdəliklərini icra edə bilmədiyinə, cari fəaliyyətini etibarlı və prudensial qaydada idarə etmədiyinə görə “Gəncəbank” ASC-nin bank lisenziyası ləğv edilib.**

AMB-dən “APA-Economics”ə verilən məlumata görə, “Banklar haqqında” Qanunun 51-ci və 52-ci maddələrinə uyğun olaraq 25.01.2016-cı il tarixdən banka müvəqqəti inzibatçı təyin edilib.

Mərkəzi Bank bildirir ki, “Gəncəbank” ASC-də Əmanətlərin Sığortalanması Fondu tərəfindən əhalinin qorunan əmanətləri üzrə qanunvericiliyə müvafiq olaraq kompensasiyaların ödənişi həyata keçiriləcək.

## İlham Əliyev nazir müavinini özünə köməkçi təyin etdi

**İlham Əliyev yanvarın 25-də Natiq Əmirovu prezidentin iqtisadi islahatlar üzrə köməkçisi vəzifəsinə təyin edib. Natiq Əmirov bu təyinatadək vergilər nazirinin 1-ci müavini postunu tuturdu. N.Əmirov 1990-cı ildə N.A.Voznesenskiy adına Leninqrad Maliyyə-İqtisad İnstitutunu, 1998-ci ildə isə Elmi-Təhsil Mərkəzi Təfəkkür Universitetini bitirib. 1990-1991-ci illərdə Sumqayıt şəhəri Maliyyə Şöbəsində böyük büdcə iqtisadçısı, 1991-1997-ci illərdə Sumqayıt şəhəri Dövlət Vergi Müfəttişliyində müxtəlif vəzifələrdə işləyib. 1997-2000-ci illərdə Sumqayıt şəhəri Dövlət Vergi Müfəttişliyində rəis müavini vəzifəsini tutub.**

2000-2001-ci illərdə Bakı şəhəri, Səbayel rayonu Vergilər İdarəsinin rəis müavini, 2001-2003-də Vergilər Nazirliyi İri Vergi Ödəyiciləri ilə İş üzrə Departamentin rəis müavini postunda çalışıb. 2003-2005-ci illərdə Vergilər Nazirliyi İqtisadi Təhlil və Uçotun Təşkili İdarəsinin rəisi olub. N.Əmirov 2005-ci ildə vergilər nazirinin müavini, 2009-cu ilin martında vergilər nazirinin I müavini vəzifəsinə təyin edilib.

***



# Prezident Əli Əsədovu ətrafından uzaqlaşdırır-yeni təyinatın sirri

### Natiq Əmirova iqtisadi islahatları kurasiya etmək həvalə olundu; 1998-ci ilin aprelindən prezidentin iqtisadi məsələlər üzrə köməkçisi olan Əli Əsədovun sonrakı taleyi ciddi sual altına düşüb: o, ölkə başçısının yanında etimadını niyə itirib...

Prezidentin bu təyinatının neftin qiymətinin kəskin düşməsindən sonra Azərbaycanda yaranmış yeni iqtisadi şəraitdən irəli gəldiyi aydındır. İqtidar ciddi islahatlar ərəfəsindədir və görünür, prezident özünün inandığı kadrı köməkçi vəzifəsinə gətirməklə daha işlək bir mexanizm yaratmağı düşünür.

İndilikdə bu təyinatı daha ilginc edən səbəb prezidentin iqtisadi məsələlər üzrə köməkçisi Əli Əsədovla bağlıdır. Çünki bu sərəncamla 1998-ci ilin aprelindən prezidentin iqtisadi məsələlər üzrə köməkçisi olan Ə.Əsədovun sonrakı taleyi ciddi sual altına düşüb. Həm də Prezident Administrasiyası rəhbərinin müavini olan Ə.Əsədovun köməkçi vəzifəsindən azad edilməsi barədə hələ ki rəsmi xəbər yayılmayıb. Amma belə görünür ki, N.Əmirova məhz Ə.Əsədovun kurasiya edəcəyi sahə həvalə edilib, üstəlik, səlahiyyətləri daha da genişləndirilib.

Uzun illərdir prezidentin iqtisadi komandasında ən vacib fiqurlardan biri olan Ə.Əsədov son aylar prezidentin açılışlarında gözə dəymir, müşavirələrində isə arxa planda görünür.

Eldar Mahmudov ötən ilin oktyabrında milli təhlükəsizlik naziri vəzifəsindən uzaqlaşdırılandan sonra Əli Əsədov da hədəfə gəlmişdi. Onun E.Mahmudovla yaxınlığı barədə mediada hələ nazirin mövqelərinin ən güclü olduğu vaxtdan yazılırdı. Məlumatlarda deyilirdi ki, Əli Əsədovla Eldar Mahmudov hələ gənclik illərindən dostluq ediblər, ali məktəbdə birgə oxuyublar. Eldar Mahmudovun 2014-cü ildə nazir vəzifəsinə təyin olunmasında da Əli Əsədovun rolunun olduğu bildirilirdi. İddia olunurdu ki, MTN şefi uzun illər fəaliyyətini onunla birgə koordinasiya edib, hətta Ə.Əsədovun tapşırıqlarının icraçısı olub. Maraqlıdır ki, onun adı Beynəlxalq Bank işində də hallanır. İddialara görə, milyon manatlarla kreditlərin verilməsində onun da ciddi rolu olub, müəyyən iş adamlarını himayə edərək onlara külli miqdarda kredit ayrılmasına nail olub. Ə.Əsədov bu xəbərlərə indiyədək cəmi bir dəfə reaksiya verib. O, Eldar Mahmudovun əleyhinə danışmayıb, həbs edilə biləcəyi ilə bağlı iddiaları isə rədd edib.

Məlumdur ki, Bakının abadlıq-quruculuq işləri uzun illər Əli Əsədovun nəzarətində olub. Bu səbəbdəndir ki, İlham Əliyev paytaxtda görülən abadlıq-quruculuq işləri ilə tanış olarkən, yaxud açılış edərkən onu Bakının icra başçısı deyil, adətən Əli Əsədov müşayiət edirdi. Onun adı Bakı meri ola biləcək şəxslər sırasında da həmişə ön sırada çəkilirdi.

Ə.Əsədovun ölkə başçısının yanında etimadını hələ may ayında, Azadlıq prospektində 15 nəfərin ölümü ilə nəticələnən yanğın hadisəsindən sonra itirdiyi iddia olunurdu. Bundan sonra Əli Əsədovun kurasiya etdiyi Dövlət Bayraq Meydanı İdarəsində (bu günlərdə Bakı Bulvar İdarəsinə birləşdirilidi - red) külli-miqdarda yeyinti faktları üzə çıxdı. E.Mahmudovun “vurulmasından” sonra isə Ə.Əsədov prezidentin ətrafından uzaqlaşdırıldı.

Yayılan məlumatlarda o da bildirilirdi ki, artıq Əli Əsədovun kurasiya etdiyi şirkətlər də başqa şəxsin idarəçiliyinə verilib. Bununla yanaşı, onun siyasi proseslərə təsir imkanları da əlindən alınıb. Onun tutduğu vəzifələr faktiki olaraq formal xarakter daşıyır ki, prezidentin son sərəncamı da bunu təsdiqləmiş oldu.

❑ “Yenì Müsavat”

# Bodrumda villa aldığı iddia olunan məmur danışdı

### Qiymət Mehdiyev barəsindəki xəbərləri təkzib edib; azərbaycanlı məmurun oğlunun milyonçu həyatı üzə çıxdı

**Ölkəmizdə cərəyan edən iqtisadi böhranın fonunda məmur xanımının Türkiyədə 20 milyon dollara 16 villa alması barədə iddialar gündəmə bomba kimi düşdü. Sosial şəbəkələr və mətbuatın hazırda əsas müzakirə mövzusu budur.**




SOCAR rəhbərliyi məsələyə dərhal reaksiya verib. Yanvarın 25-də şirkətin prezidenti Rövnəq Abdullayevin sədrliyi ilə iclas keçirilib. İclasda ittiham obyekti olan, villaları alan qadının - Könül Mehdiyavanın əri, SOCAR-ın Əsaslı Kapital Qoyuluşları İdarəsinin rəis müavini Qiymət Mehdiyev də iştirak edib. SOCAR-ın mətbuat xidmətinin rəhbəri Nizaməddin Quliyev bildirib ki, Mehdiyev yayılan məlumatların əsassız olduğunu hamının qarşısında bəyan edib. O, məlumatın SOCAR-a aid olmadığını da vurğulayıb. Qurumdan “Report”a verilən məlumata görə, bu məsələ şirkətdə mövcud olan korrupsiyaya qarşı mübarizə və şəffaflıq standartlarına uyğun olaraq araşdırılır, nəticəsi barədə ictimaiyyət məlumatlandırılacaq.

**Q.Mehdiyevin özü də barəsində yayılan xəbərlərlə bağlı anspress.com vasitəsilə bəyanat yayıb. O, bəyanatda yayılan xəbərləri təkzib edib:** “Bəzi sayt və media orqanlarında həyat yoldaşımın guya Türkiyənin Bodrum bölgəsində 20 milyon dollarlıq 16 ədəd villa almağı haqqında həqiqətə qətiyyən uyğun olmayan əsassız məlumatlar yayılmışdı.

Bəyan edirəm ki, bu məlumat yalandır və bunu mənə, ailəmə, işlədiyim təşkilatın işgüzar nüfuzuna zərbə vuran hərəkət kimi qiymətləndirirəm. Mən 30 ildir ki, eyni təşkilatda çalışıram, həyat yoldaşım da interyer dizayn sahəsində mütəxəssisdir və bu sahədə uğurla fəaliyyət göstərir. Heç bir araşdırma aparmadan mənim və ailəmin haqqında yayılmış bu böhtan xarakterli məlumatların bizim konstitusion hüquqlarımızı pozduğunu bəyan edir, bu təhdidlərin məqsədli şəkildə aparıldığını bildirirəm.

Hətta məqalədəki fotoda həyat yoldaşım kimi qələmə verilən xanım da həyat yoldaşım deyil. Tamamilə yad, bizə aidiyyəti olmayan şəxsdir. Həyat yoldaşımın aldığı ev qeyd edilən ərazidəki çoxsaylı evlərdən yalnız birinin yarısı qədərdir. Bu həqiqət elə məqalədə göstərilmiş mülkiyyət sənədində də açıq formada qeyd edilib. Ev 1/2 pay olmaqla dəyəri 200 000 Türkiyə lirəsi (təqribən 60 min ABŞ dollar civarında ) dəyərindədir. Eyni zamanda qeyd etməliyəm ki, müxtəlif mətbuat orqanlarında “ətraflı araşdırmanın nəticəsi” kimi qələmə verilmiş saxta məlumat və cizgilər ictimaiyyətdə yalnız təsəvvürlərin yaradılmasına səbəb olub. Bu da məni həmin maraqlı şəxslərə qarşı qanunvericiliyin tam gücü ilə hüquqi tədbirlər görməyə məcbur edir".

O qeyd edib ki, hər hansı formada ictimaiyyətə təqdim olunmuş bu məlumatlar məqsədli şəkildə və cinayətkarcasına saxtalaşdırılmışdı.

Qeyd edək ki, SOCAR məmurunun oğlunun milyonçu həyatını əks etdirən fotolar mətbuat və sosial şəbəkələrdə yayılıb. Onun oğlu Qismət Mehdiyev Barselonada təhsil alır. O, sosial şəbəkədə zəngin həyatı əks etdirən fotolar paylaşır. O, dünyanın müxtəlif bahalı şəhərlərindəki səyahət fotoları ilə diqqət çəkir.

Məlumatın Türkiyə tərəfdən mətbuata sızdırılması geniş müzakirələrə səbəb olub. Əksəriyyət düşünür ki, bu hadisədən sonra Türkiyəyə olan etibar cəmiyyətimiz arasında itəcək. Hətta dövlətlər arasındakı münasibətlərə xələl gətirəcəyi də vurğulanır. İddia olunur ki, SOCAR məmurunun arvadının villaları ilə bağlı məlumatın mətbuata ötürülməsi hakimiyyətdaxili savaşın nəticəsidir.

Bu məlumatın üzə çıxmasından sonra digər iri ranqlı məmurların xaricdəki böyük vəsaitlərinin, villalarının taleyi də gündəmə gəlib. Həmin məbləğlərin geri qaytarılması ilə bağlı fikirlər səslənməyə başlayıb. Ekspertlər hesab edirlər ki, bu yolla ölkəmizdəki iqtisadi böhranın qarşısını almaq mümkündür.

**Politoloq Ə.Oruclu məsələyə fərqli, geniş rakursdan yanaşmağın tərəfdarıdır. O hesab edir ki, bu məlumatların indi ortaya çıxması əsasdır:** “Bu məlumatın bugünlərdə ortaya çıxması səbəbi daha maraqlıdır. Burada söhbət daha çox hakimiyyətdaxili çəkişmələrdən gedir. Belə məlumatların davam edəcəyini istisna etmirəm. Belə görünür ki, hazırda hədəfə alınan Dövlət Neft Şirkətinin vitse-prezidenti Mikayıl İsmayılovdur. Çünki məlumatda idarə rəisi müavininin onun himayəsində olmasının xüsusi vurğulanması artıq işarədir. Bütün bunlar hesab edirəm ki, iqtidardaxili savaşın təzahürüdir. Bu davam edəcək. Çünki artıq hakimiyyət daxilində münasibətlər pik həddə çatıb. Görünən odur ki, soyuq ağıl da artıq arxa plana keçib. Hakimiyyət anlamır ki, vəziyyət onların ziyanınadır, sonda özlərinə zərbə vura bilər. Hətta hakimiyyətə qarşı ciddi etirazlar dalğası da yarana bilər. Bütün bunlar gözlənilən idi. 20 milyon məbləğ göstərirlər. Bu yanlış rəqəmdir. Sizin qəzetdə bu barədə dəqiqləşdirmə olub. O fakt daha doğrudur. Çünki göstərilən ərazidə o qiymətə mülk yoxdur. Bu, kompromat savaşlarının növlərindən biridir. Yəni qiymətləri şişirtməklə diqqət çəkilib. Bu məlumatın Türkiyə tərəfdən mətbuata ötürülməsi qarşı tərəfə olan etibarı aşağı sala bilməz. Belə hallar çox olub. Sadəcə, bu məlumat hansısa qrupun fəaliyyətinin nəticəsidir. Hakimiyyət daxilində bir-birinə qarşı necə savaşların getdiyindən yəqin ki, xəbərsiz deyilsiniz”.

**Politoloq Natiq Miri də belə məlumatların üzə çıxarılmasının təbii qəbul olunduğunu bildirdi:** “İç dünyada münasibətlər mənfəət çərçivəsində qurulur. Tərəflər arasında razılıq əldə olunursa, sonradan bu razılıq tərəflərin biri tərəfdən pozulursa, belə addımın atılması təbii qəbul olunur. Bu baxımdan Türkiyəyə etimad məsələsi söhbət predmeti ola bilməz. Çünki bu dövlətlər arasında baş verən hadisə deyil. Ola bilsin ki, müəyyən qüvvələr arasında bu məsələ razılaşdırılsın. Amma mahiyyət hələ açılmayıb”.

**Politoloq xaricdə böyük vəsaitləri olan azərbaycanlı məmurların pullarının geri qaytarılmasının da vacibliyindən söz açdı:** “Düşünürəm ki, bu hadisə MTN-lə bağlı hazırda gedən istintaqın tərkib hissəsi olub. Çünki istintaq çərçivəsində heç şübhəsiz ki, yeni-yeni məlumatlar üzə çıxır. Bu məlumat da o silsilədən ola bilər. Zaman-zaman belə məlumatların mətbuata sızdırılacağını istisna etmirəm. Bu baxımdan digər belə vəsaitləri olan məmurlar barəsində də qərarların veriləcəyini düşünürəm. Çünki bu məbləğlər ümumi götürdükdə çox böyükdür. Hətta Azərbaycanın bir illik büdcəsindən böyük məbləğ ola bilər. İndiki çətin vəziyyətdə belə vasitələrdən istifadə olunması çox vacibdir”.

Nəzərə çatdıraq ki, 24 yanvarda xəbər yayılan gün bununla bağlı SOCAR-dan mövqe almaq istəsək də bu, heç cür mümkün olmadı.

Musavat.com-a günorta saatlarında məlumat daxil oldu ki, yanvarın 25-də axşam saatlarında telekanallardan birində Qiymət Mehdiyev verilişə çıxarılacaq və həm öz adının, həm də həyat yoldaşının adının 20 milyonluq villa ilə bağlı hallanmasına aydınlıq gətirəcək. Axşam saatlarında o, ANS-ə çıxıb və yuxarıda qeyd edilən bəyanatındakıları təkrarlayıb, həmçinin qeyd edib ki, “bu villalardan birinin bizə aid olduğunu sübut edən adama mən bir villa alıb bağışlayacam”...

SOCAR-dakı mənbələrdən musavat.com-a o da bildirilib ki, 16 villa söhbəti ARDNŞ-lə ortaq iş görən Türkiyə şirkətlərindən hansınınsa təxribatıdır. Deyilənə görə, həmin şirkət üzərinə düşən öhdəliyi yerinə yetirməkdən boyun qaçırıb və üstəlik, Azərbaycan tərəfini bu cür informasiya təxribatına çəkib.

Xatırladaq ki, virtualaz.org saytı 2014-cü il iyulun 4-də Azərbaycan vətəndaşı, 1974-cü ildə anadan olmuş Mehdiyeva Könül Fərhad qızının Türkiyənin elit kurort bölgəsi Bodrumda, Gökçebel qəsəbəsində 16 ikimərtəbəli villa və 12 min 621.71 kvadratmetr torpaq sahəsi alması haqda məlumat yayıb.

❑ Cavanşir ABBASLI

Ölkəmizdə cərəyan edən iqtisadi böhranın fonunda məmur xanımının Türkiyədə 20 milyon dollara 16 villa alması barədə iddialar gündəmə bomba kimi düşdü. Sosial şəbəkələr və mətbuatın hazırda əsas müzakirə mövzusu budur.

SOCAR rəhbərliyi məsələyə dərhal reaksiya verib. Yanvarın 25-də şirkətin prezidenti Rövnəq Abdullayevin sədrliyi ilə iclas keçirilib. İclasda ittiham obyekti olan, villaları alan qadının - Könül Mehdiyavanın əri, SOCAR-ın Əsaslı Kapital Qoyuluşları İdarəsinin rəis müavini Qiymət Mehdiyev də iştirak edib. SOCAR-ın mətbuat xidmətinin rəhbəri Nizaməddin Quliyev bildirib ki, Mehdiyev yayılan məlumatların əsassız olduğunu hamının qarşısında bəyan edib. O, məlumatın SOCAR-a aid olmadığını da vurğulayıb. Qurumdan “Report”a verilən məlumata görə, bu məsələ şirkətdə mövcud olan korrupsiyaya qarşı mübarizə və şəffaflıq standartlarına uyğun olaraq araşdırılır, nəticəsi barədə ictimaiyyət məlumatlandırılacaq.

Q.Mehdiyevin özü də barəsində yayılan xəbərlərlə bağlı anspress.com vasitəsilə bəyanat yayıb. O, bəyanatda yayılan xəbərləri təkzib edib: “Bəzi sayt və media orqanlarında həyat yoldaşımın guya Türkiyənin Bodrum bölgəsində 20 milyon dollarlıq 16 ədəd villa almağı haqqında həqiqətə qətiyyən uyğun olmayan əsassız məlumatlar yayılmışdı.

Bəyan edirəm ki, bu məlumat yalandır və bunu mənə, ailəmə, işlədiyim təşkilatın işgüzar nüfuzuna zərbə vuran hərəkət kimi qiymətləndirirəm. Mən 30 ildir ki, eyni təşkilatda çalışıram, həyat yoldaşım da interyer dizayn sahəsində mütəxəssisdir və bu sahədə uğurla fəaliyyət göstərir. Heç bir araşdırma aparmadan mənim və ailəmin haqqında yayılmış bu böhtan xarakterli məlumatların bizim konstitusion hüquqlarımızı pozduğunu bəyan edir, bu təhdidlərin məqsədli şəkildə aparıldığını bildirirəm.

Hətta məqalədəki fotoda həyat yoldaşım kimi qələmə verilən xanım da həyat yoldaşım deyil. Tamamilə yad, bizə aidiyyəti olmayan şəxsdir. Həyat yoldaşımın aldığı ev qeyd edilən ərazidəki çoxsaylı evlərdən yalnız birinin yarısı qədərdir. Bu həqiqət elə məqalədə göstərilmiş mülkiyyət sənədində də açıq formada qeyd edilib. Ev 1/2 pay olmaqla dəyəri 200 000 Türkiyə lirəsi (təqribən 60 min ABŞ dollar civarında ) dəyərindədir. Eyni zamanda qeyd etməliyəm ki, müxtəlif mətbuat orqanlarında “ətraflı araşdırmanın nəticəsi” kimi qələmə verilmiş saxta məlumat və cizgilər ictimaiyyətdə yalnız təsəvvürlərin yaradılmasına səbəb olub. Bu da məni həmin maraqlı şəxslərə qarşı qanunvericiliyin tam gücü ilə hüquqi tədbirlər görməyə məcbur edir".

O qeyd edib ki, hər hansı formada ictimaiyyətə təqdim olunmuş bu məlumatlar məqsədli şəkildə və cinayətkarcasına saxtalaşdırılmışdı.

Qeyd edək ki, SOCAR məmurunun oğlunun milyonçu həyatını əks etdirən fotolar mətbuat və sosial şəbəkələrdə yayılıb. Onun oğlu Qismət Mehdiyev Barselonada təhsil alır. O, sosial şəbəkədə zəngin həyatı əks etdirən fotolar paylaşır. O, dünyanın müxtəlif bahalı şəhərlərindəki səyahət fotoları ilə diqqət çəkir.

Məlumatın Türkiyə tərəfdən mətbuata sızdırılması geniş müzakirələrə səbəb olub. Əksəriyyət düşünür ki, bu hadisədən sonra Türkiyəyə olan etibar cəmiyyətimiz arasında itəcək. Hətta dövlətlər arasındakı münasibətlərə xələl gətirəcəyi də vurğulanır. İddia olunur ki, SOCAR məmurunun arvadının villaları ilə bağlı məlumatın mətbuata ötürülməsi hakimiyyətdaxili savaşın nəticəsidir.

Bu məlumatın üzə çıxmasından sonra digər iri ranqlı məmurların xaricdəki böyük vəsaitlərinin, villalarının taleyi də gündəmə gəlib. Həmin məbləğlərin geri qaytarılması ilə bağlı fikirlər səslənməyə başlayıb. Ekspertlər hesab edirlər ki, bu yolla ölkəmizdəki iqtisadi böhranın qarşısını almaq mümkündür.

Politoloq Ə.Oruclu məsələyə fərqli, geniş rakursdan yanaşmağın tərəfdarıdır. O hesab edir ki, bu məlumatların indi ortaya çıxması əsasdır: “Bu məlumatın bugünlərdə ortaya çıxması səbəbi daha maraqlıdır. Burada söhbət daha çox hakimiyyətdaxili çəkişmələrdən gedir. Belə məlumatların davam edəcəyini istisna etmirəm. Belə görünür ki, hazırda hədəfə alınan Dövlət Neft Şirkətinin vitse-prezidenti Mikayıl İsmayılovdur. Çünki məlumatda idarə rəisi müavininin onun himayəsində olmasının xüsusi vurğulanması artıq işarədir. Bütün bunlar hesab edirəm ki, iqtidardaxili savaşın təzahürüdür. Bu davam edəcək. Çünki artıq hakimiyyət daxilində münasibətlər pik həddə çatıb. Görünən odur ki, soyuq ağıl da artıq arxa plana keçib. Hakimiyyət anlamır ki, vəziyyət onların ziyanınadır, sonda özlərinə zərbə vura bilər. Hətta hakimiyyətə qarşı ciddi etirazlar dalğası da yarana bilər. Bütün bunlar gözlənilən idi. 20 milyon məbləğ göstərirlər. Bu yanlış rəqəmdir. Sizin qəzetdə bu barədə dəqiqləşdirmə olub. O fakt daha doğrudur. Çünki göstərilən ərazidə o qiymətə mülk yoxdur. Bu, kompromat savaşlarının növlərindən biridir. Yəni qiymətləri şişirtməklə diqqət çəkilib. Bu məlumatın Türkiyə tərəfdən mətbuata ötürülməsi qarşı tərəfə olan etibarı aşağı sala bilməz. Belə hallar çox olub. Sadəcə, bu məlumat hansısa qrupun fəaliyyətinin nəticəsidir. Hakimiyyət daxilində bir-birinə qarşı necə savaşların getdiyindən yəqin ki, xəbərsiz deyilsiniz”.

Politoloq Natiq Miri də belə məlumatların üzə çıxarılmasının təbii qəbul olunduğunu bildirdi: “İç dünyada münasibətlər mənfəət çərçivəsində qurulur. Tərəflər arasında razılıq əldə olunursa, sonradan bu razılıq tərəflərin biri tərəfdən pozulursa, belə addımın atılması təbii qəbul olunur. Bu baxımdan Türkiyəyə etimad məsələsi söhbət predmeti ola bilməz. Çünki bu dövlətlər arasında baş verən hadisə deyil. Ola bilsin ki, müəyyən qüvvələr arasında bu məsələ razılaşdırılsın. Amma mahiyyət hələ açılmayıb”.

Politoloq xaricdə böyük vəsaitləri olan azərbaycanlı məmurların pullarının geri qaytarılmasının da vacibliyindən söz açdı: “Düşünürəm ki, bu hadisə MTN-lə bağlı hazırda gedən istintaqın tərkib hissəsi olub. Çünki istintaq çərçivəsində heç şübhəsiz ki, yeni-yeni məlumatlar üzə çıxır. Bu məlumat da o silsilədən ola bilər. Zaman-zaman belə məlumatların mətbuata sızdırılacağını istisna etmirəm. Bu baxımdan digər belə vəsaitləri olan məmurlar barəsində də qərarların veriləcəyini düşünürəm. Çünki bu məbləğlər ümumi götürdükdə çox böyükdür. Hətta Azərbaycanın bir illik büdcəsindən böyük məbləğ ola bilər. İndiki çətin vəziyyətdə belə vasitələrdən istifadə olunması çox vacibdir”.

Nəzərə çatdıraq ki, 24 yanvarda xəbər yayılan gün bununla bağlı SOCAR-dan mövqe almaq istəsək də bu, heç cür mümkün olmadı.

Musavat.com-a günorta saatlarında məlumat daxil oldu ki, yanvarın 25-də axşam saatlarında telekanallardan birində Qiymət Mehdiyev verilişə çıxarılacaq və həm öz adının, həm də həyat yoldaşının adının 20 milyonluq villa ilə bağlı hallanmasına aydınlıq gətirəcək. Axşam saatlarında o, ANS-ə çıxıb və yuxarıda qeyd edilən bəyanatındakıları təkrarlayıb, həmçinin qeyd edib ki, “bu villalardan birinin bizə aid olduğunu sübut edən adama mən bir villa alıb bağışlayacam”...

SOCAR-dakı mənbələrdən musavat.com-a o da bildirilib ki, 16 villa söhbəti ARDNŞ-lə ortaq iş görən Türkiyə şirkətlərindən hansınınsa təxribatıdır. Deyilənə görə, həmin şirkət üzərinə düşən öhdəliyi yerinə yetirməkdən boyun qaçırıb və üstəlik, Azərbaycan tərəfini bu cür informasiya təxribatına çəkib.

Xatırladaq ki, virtualaz.org saytı 2014-cü il iyulun 4-də Azərbaycan vətəndaşı, 1974-cü ildə anadan olmuş Mehdiyeva Könül Fərhad qızının Türkiyənin elit kurort bölgəsi Bodrumda, Gökçebel qəsəbəsində 16 ikimərtəbəli villa və 12 min 621.71 kvadratmetr torpaq sahəsi alması haqda məlumat yayıb.

Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 18 (6339) 26 yanvar 2016



# "Bodrum bana, ben Bodruma özəlim"

Samir SARI

**Bir dəfə yolum düşüb, görmüşəm, Bodrum yaxşı məkandır. Sovet şairlərinin sözü ilə "ölüb qalmalı yerdir" də demək olardı, amma bilirsiniz, "ölməyə vətən yaxşı". Söz yox, gəzməyə, villa almağa qürbət ölkə əlverişlidir, amma orası da var ki, Türkiyə qürbət ölkə deyil, yeri gəlsə, bir millət-iki dövlətik .**

Bəli, Bodrum cənnətdir. Bir az gedirsən, görürsən ki, üç tərəfin sudur, dənizdir, sağa burulursan, üç tərəfin al-yaşıllı, gül-çiçəkli torpaqdır, üstündə də ağappaq binalar, bir az sola gedirsən, yenə görürsən ki, üç tərəfin dənizdir. Orada dəniz və torpaq bir-birininin içinə o qədər dərinləməsinə girib ki, adam özünü həmişə yarımadada hiss edir, eyni zamanda dəniz də hər yerdə gölə oxşayır.

Dəniz sahilindəki hündür təpələrdən baxanda əsrarəngiz mənzərələr açılır. Elə bir gözəllik var ki, selfi həvəskarları qapılır, eyzən şəkil çəkdirirlər, bir də görürlər, bay, tətil bitdi, bunlar hələ dənizə girməyiblər.

Gendən baxırsan, hövzələrdə yüzlərlə xırda qayıq, orta ölçülü yaxta, iri gəmilər görürsən. Adamlar onlara sərnişin olur, dərin dibi görünən Egeyin duru sularını yara-yara qısamüddətli gəmi turuna çıxırlar, dənizdəki adalara yan alır, çimişib, yeyib-içib geri qayıdırlar. İstəsən, arada Ahmet Şafakın "Egeydən Hazara kadar, beşikdən mezara kadar, Azərbaycan-Türkiyə" şarkısını da oxuya bilərsən, amma Xəzərlə Egeyin fərqini görəndən sonra utancaq adamı xəcalət hissi basır.

Hərçənd Xəzərin də elə üstünlükləri var ki, egeylilər də ona həsəd aparır. Məsələn, neft və nərə balığı, eləcə də onun qara kürüsü. Xəzər nefti məsələsinə dörd abzasdan sonra qayıdarıq, hələlik Bodrumda dəniz sahilinin hündür təpəsinə çıxıb ətrafa baxaq.

Əslində, o hündür təpələrə dağ da demək olar. Dəniz səviyyəsindən çox hündürdür. Di gəl, iş adamları o hündür təpələrin əlverişli yamaclarını müasir tikinti texnikasının köməyi ilə yarıb, qazıb, hamarlayıb çoxlu evlər tikiblər. Ev deyəndə ağla bizim Sulutəpədəki evlər gələ bilər. Yox, bunlar hər cür standarta cavab verən villalardır. Yerli camaat o villalar şəhərciyinə site deyir. Hamısı bir boyda, bir biçimdə, bir rəngdə (əsasən ağ) tikilib. Hara baxırsan, o cür villalar sitəsi görərsən.

Bir dəfə bir yerli bərbərdən soruşdum ki, o villaların hamısında yaşayış varmı. Bərbər dedi, abi, çoxunda yazda-yayda yaşayış olur, amma qışda çəkilib gedirlər, bir xeylisi isə yaşayışa hazırdır, iş adamları gözləyirlər ki, yiyəsi gəlib alacaq.

Bu saat pul sayıb alacaqmış kimi, villaların qiymətini soruşdum. Bərbər qardaş dedi, pahalıdır, abi, çok pahalıdır, amma siz Azerbeycandansınız, ala bilirsiniz, Hazarın petrolu çokdur...

Bu zalım oğlu, eləcə də həmsöhbət olduğum digər zalımuşağı elə bilirdi ki, Hazarın petrolu boldursa, gündə beş-altı barrel də bizə verirlər ki, aparın satın, dolanın.

Açığını deyim ki, Bodrum elə bir cənnətdir ki, adamın ağlından orda daimi yaşamaq da keçir, sadəcə pulun çox olmalıdır, olsa tərəddüd etmədən ev alar, 5-6 il yaşaya bilərsən. Həm də villalarla yanaşı, orda çoxlu ucuz evlər də var, qiymətləri bizim Ramanıdakı evlərdən də aşağıdır - 40-45 min dollara. Elə buna görədir ki, Türkiyədə ahıl adamlar təqaüdə çıxandan sonra İstanbuldan, Ankaradan daşınıb Bodruma, Kuşadasına yerləşirlər.

Bu baxımdan ARDNŞ-in kapital qoyuluşu idarəsinin rəis müavininin Bodrumda villa almasını anlayışla qarşılamaq olardı - bir şərtlə ki, alınmış villa bir dənə olaydı. Adam fikirləşərdi ki, rəis olanda nə olar, onun da gözəl suyu, təmiz havası olan günəşli və küləksiz Bodrumda dincəlmək haqqı var.

Amma o hündür təpələrin bağrındakı ağ villaların 16-sının birdən-birə, özü də 20 milyona alınması dəftər-kitaba sığan iş deyil (bu, olsa-olsa kompromat dosyesinə sığa bilər). Bu qədər pulla elə Bodrumun özündə, hətta Gümbetdə 400 ev almaq olardı. Yəni məqsəd ilin yarısını Bodrumda istirahət etməkdirsə, Qiymət müəllim sərfəli qiymətə bir ev ala bilər, yerdə qalan 19999950 dolları da başqa işlərə sərf edə bilərdi, məsələn, hansısa fonda keçirə bilərdi, heç kim də onun adını dilə-dişə salmazdı.

**P.S.** *Yazının başlığı Bülənt Serttaşın oxuduğu "Aşk Bodrumda yaşanıyor" şarkısından götürülüb.*

# "Eyni situasiya ilə qarşılaşsa, "Yeni Müsavat"ın da yanında olacam"

## Eynulla Fətullayev ANS-ə dəstək verməsindən və SOCAR məmurunun adına çıxılan villalarla bağlı xəbəri yaymasından danışdı

**Son günlərdə virtualaz.org və haqqın.az saytlarının rəhbəri Eynulla Fətullayev əsas gündəmə gələn şəxslərdən biridir. Buna səbəb ANS telekanalı ətrafında cərəyan edən hadisələr və azərbaycanlı məmurun həyat yoldaşının Türkiyədə 20 milyona 16 villa alması ilə bağlı üzə çıxan məlumatlardır.**

İlk olaraq, Fətullayev ANS-in "Hesabat" verilişinin bağlanması ilə bağlı Mirşahin Ağayevin keçirdiyi mətbuat konfransında iştirak etməsi, kanala açıq dəstək verməsi ilə gündəmə gəldi. Ardınca isə SOCAR məmurunun arvadının 20 milyon dollara aldığı villaları ilk dəfə rəhbəri olduğu mətbuat orqanında dərc etdirməsi ilə ictimai diqqət mərkəzində oldu.

İctimaiyyət arasında E.Fətullayevin son günlərdəki addımları ona müəyyən təhlükə yaratdığı və yenidən həbs edilmə ehtimallarının yüksək ola biləcəyi barədə söz-söhbətlər gəzir. Sosial şəbəkələrdə müxtəlif iddialar səsləndirilir. SOCAR məmurunun arvadı ilə bağlı məlumatın da məhz müəyyən dairələr tərəfindən mətbuata ötürüldüyü, sayt olaraq da virtualaz.org-ın seçilməsinin pərdəarxası məqamlarının olduğu deyilir.

**Bütün iddialara aydınlıq gətirmək üçün Eynulla Fətullayevlə əlaqə saxladıq. O, musavat.com-a açıqlamasında məlum proseslərdə ANS-in yanında olmasına belə cavab verdi:** "Bu, söz azadlığı və demokratiya məsələsi idi. Ədalətsiz bir qərar verilmişdi. Bununla bağlı dəfələrlə mövqeyimi bildirmişəm. Nəinki ANS, səhəri gün "Yeni Müsavat", "Azadlıq" və digər mətbuat orqanlara qarşı da bu cür qanunsuzluqlar edilsə, eyni münasibəti sergiləyərəm. Azərbaycan cəmiyyətində ANS-ə qarşı verilmiş qərar söz azadlığına basqı kimi qiymətləndirildi. Mirşahin Ağayevin mətbuat konfransında iştirak etdim. Bunu haqqın.az saytı vasitəsilə də yaydıq. Mən jurnalist, həmkar kimi iştirak etdim. ANS-in özü məlum basqının səbəblərini izah etdi. Nuşirəvan Məhərrəmlinin qanunsuz qərarı olub. Məsələyə ölkə prezidenti müdaxilə edib.



Eynulla Fətullayev

Nəticədə qanunsuz qərar ləğv olunub. Bununla da söz azadlığı bərqərar olunub. Baş verən hadisələr cəmiyyətimizə detalları ilə bəllidir".

**E.Fətullayev azərbaycanlı məmurun arvadının villaları ilə bağlı məlumatı əldə etməsinə, dərc etdirməsinə, həyatına yaranacaq təhlükələrə bu cür aydınlıq gətirdi:** "Məlumatı Türkiyədəki mənbələrdən əldə etmişik. Bakıya həmin şirkətin nümayəndələri gəldilər. Məsələ burasındadır ki, SOCAR-ın vitse-prezidenti Mikayıl İsmayılov onun nəzarətində olan şəxs qiymət deyir. Bunlar Türkiyə şirkətinə sifariş verirlər. Amma müqavilə şərtlərini pozublar. Nəticədə qarşı tərəf qəzəbli olub. Onlar mənimlə görüşdülər və bildirdilər ki, əlimizdə ciddi sənədlər var. Onu Türkiyə mətbuatında yaymaq istədiklərini söylədilər. Onlara dedim ki, sənədləri Türkiyədə yaysanız, bəhrəsi olmayacaq, amma Azərbaycanda dərc olunsa, böyük əks-səda doğuracaq. Onlar mənə sənədləri göstərdilər. Açığı, şoka düşdüm. Söhbət 120 sot torpağın və içindəki villaların alınmasından gedirdi. Sosial şəbəkələrdə bəzi insanlar elə versiyalar irəli sürürlər ki, guya bunun qiyməti 200 min türk lirəsidir. Bu da 100 min dollar edir. Bir sual meydana çıxır ki, azərbaycanlı məmurun, idarə rəisinin müavininin 100 min dolları haradandır? Onun maaşı 1000 manata yaxındır. Gərək 10 il həmin məbləği heç yerə xərcləməsin ki, 100 min dollara nəsə etsin. Bu, gülməlidir. Sənəddə açıq şəkildə 120 sot torpaq və 16 villa göstərilib. Bodrum Türkiyənin ən bahalı kurort şəhərlərindəndir. Orada əmlakın da qiyməti çox yüksəkdir. Sual vermək lazımdır ki, 12 min kvadrat metrin qiyməti neçəyədir. Bu, 10 milyonlarla dollar edir. Bəlkə hələ biz az yazmışıq. Çünki türkiyəli inşaatçılar bildirdilər ki, onların əllərində başqa sənədlər də var. SOCAR-ın məmurları ilə bağlı. Onlar həmin məlumatları da bizə göndərəcəklər. Təbii ki, pullarını ala bilməsələr. Yəni ki, SOCAR sifariş verib, türk şirkətləri onu icra ediblər, amma sonda onları aldadıblar. Nəticədə onlar da bu cür addım atıblar".

**Tanınmış jurnalist SOCAR-la bağlı yaydığı məlumatda başqa səbəblər axtarmağın düzgün olmadığını da qeyd etdi:** "Burada söhbət hansısa nazirliyin idarə rəisinin müavinindən gedir. Bu məmur hansı hakimiyyətdaxili münaqişələrdə iştirak edə bilər? Bu baxımdan səslənən fikirlər tamamilə əsassızdır. ANS ətrafında gedən söhbətlər sübut etdi ki, ölkə başçısının mediaya münasibəti həssasdır. Prezident bütün çıxışlarında bildirir ki, ölkədə ictimai nəzarət gücləndirilməlidir. Mətbuatın da xüsusilə rolunu qeyd edir. Jurnalistlərə təklif edir ki, məmur özbaşınalığı və korrupsiya ilə bağlı məlumatları dərhal yaymaq, dövlət orqanlarına bu barədə məlumat vermək lazımdır. Fikrimcə, hazırda jurnalistlərin fəaliyyət göstərmələri üçün ən təhlükəsiz dönəmdir. Çünki jurnalistlərin müdafiəsində dövlət başçısı şəxsən iştirak edir. ANS və Mirşahin ətrafındakı söhbətlər bunu sübut etdi. Jurnalistin işi həqiqəti ortaya qoymaq, məlumatları obyektiv işıqlandırmaq, cəmiyyəti narahat edən problemlərdən danışmaqdır. Bunlar dövlətə ziyan deyil, əksinə, xeyirdir. Biz bu işlə bağlı dövlətə böyük kömək etdik. Dövlətin qarşısına bir korrupsiya işi qoyduq. Bizim işimiz yazmaq, onların işi isə tədbir görməkdir".

**"Fikrimcə, hazırda jurnalistlərin fəaliyyət göstərmələri üçün ən təhlükəsiz dönəmdir. Çünki jurnalistlərin müdafiəsində dövlət başçısı şəxsən iştirak edir"**

❑ Cavanşir ABBASLI

# "Mirşahin məni o dünyaya hazırlayırdı"

## Aqşin Yenisey: "O, xəstəxanaya mənə təsəlli verməyə gəlməmişdi..."

**ANS şirkətlər qrupunun vitse-prezidenti, əməkdar jurnalist Mirşahin Ağayevin yanvarın 23-də ürək tutması ilə 1№-li Klinik Xəstəxanaya yerləşdirildiyi, daha sonra evə buraxıldığı haqda xəbər verilib. İctimaiyyətdə jurnalistin səhhəti ilə bağlı narahatlığını bildirən çoxsaylı şəxslər oldu.**

Sosial şəbəkədə diqqət çəkən məqamlardan biri isə şair Aqşin Yeniseyin M.Ağayev haqqında yazdığı statusdur. A.Yenisey statusunda yazıb: "Dəli şeytan deyir, götür diktofonu-fotoaparatı, get xəstəxanaya, Mirşahin bəydən geniş bir müsahibə al".

Statusun altında yazılan rəylərdə isə Aqşin Yenisey xəstəxanada yatdığı dönəmlərdə Mirşahin Ağayevin ondan aldığı müsahibəyə işarə edib. Həmin müsahibədə Mirşahin Ağayev Aqşin Yeniseyə ölümlə bağlı suallar vermişdi. Bu suallar cavablandıran Aqşin isə müsahibə boyunca bir neçə dəfə kövrəlmişdi. O zaman M.Ağayevin müsahibəsi şairin oxucuları tərəfindən də birmənalı qarşılanmamışdı.

**Belə olan təqdirdə, görəsən, bu cür status yazmaqla Aqşin Yeniseyin söyləmək istədiyi nədir? Məsələ ilə bağlı qəzetimizə danışan A.Yenisey bildirib ki, əslində bu, onun dost zarafatı olub:**

"Sözsüz ki, Mirşahin bəy yaşadığımız zamanı dərindən hiss edə bilən azsaylı jurnalistlərimizdən biridir. Onun xəstəxanaya yerləşdirildiyini eşidəndə mütləq gedib baş çəkmək haqqında düşünürdüm. Əgər razılığı olsaydı, bu görüşü müsahibəyə də çevirə bilərdim. Amma mənə artıq hər şeyin yaxşı olduğunu dedilər. Hər halda, MTRŞ-nin sovet senzurasına qayıtması və efirin ən aktual proqramı olan "Hesabat"ı bağlamaq haqqında qərar verməsi doğru düşüncə deyildi".



Aqşin Yenisey

**Müsahibəyə gəlincə isə bununla bağlı şair aşağıdakıları söyləyib:** "Mən o zaman əməliyyat otağından birbaşa müsahibəyə gəlmişdim. Keyidici iynələrin təsiri hələ çəkilməmişdi. Sadəcə, bir gün əvvəl sözləşdiyimiz üçün müsahibədən imtina etmədim. Kövrəlməyim həmin andakı ovqatımla bağlı idi. İnanın ki, heç o söhbəti indi xatırlamıram. Yadımda qalan odur ki, biz o dünya haqqında xeyli danışdıq və Mirşahin bəy məni, bir növ, xristian həbsxanalarında olan həbsxana keşişi kimi o dünyaya hazırlayırdı. Sağalandan sonra müsahibəyə baxanda gördüm ki, mən o dünya haqqında son suala çox aydın cavab vermişəm. Ümumiyyətlə, o müsahibəyə görə Mirşahin bəyi qınayanlar, sadəcə, insani maraqları nəzərə alırdılar. Amma Mirşahin bəy mübaribə jurnalistidir və ölüm ayağında olan şairdən nəyi soruşmaq lazımdırsa, onu soruşurdu. O, xəstəxanaya mənə təsəlli verməyə gəlməmişdi".

❑ Əli RAİS

YENİ MÜSAVAT
N 18 (6339) 26 yanvar 2016



# Müxalifət inqilab istəmir

## "Müxalifət liderlərinin borcu, vəzifəsi, məsuliyyəti ondan ibarətdir ki..."

**Ölkədə iqtisadi böhran dərinləşdikcə narazı əhalinin sayının çoxalması bir sıra siyasi dairələrdə prosesin gec-tez inqilabi situasiyanın yaranması ilə nəticələnəcəyi fikrini yaradıb. Bəs müxalifət partiyaları bu barədə hansı fikirdədir? İddiaları doğru sayırlarsa, inqilaba hazırlaşırlarmı və hazırdırlarmı?**

**Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn** bildirdi ki, Azərbaycanda xaos və bu tipli inqilabın olması labüd deyil. Amma ölkədə inqilabi dəyişikliklərə zərurət var: "Ölkənin düşdüyü böhrandan və daha ağır situasiyalardan çıxması üçün inqilabi islahatlara ehtiyac var. Müxalifət də əvvəla, bu dəyişikliklərin baş verməsi üçün çalışmalıdır və onun missiyası da bundan ibarətdir. İkincisi isə müxalifətin təkcə vəziyyətin idarə olunan proses yox, idarəolunmaz şəkildə davam edəcəyi hallara da müəyyən hazırlıqları olmalıdır. Əslində proses özü bunu hazırlayır. Bu baxımdan şübhəsiz ki, hadisələrin bir neçə variantına hazır olmaq lazımdır. Amma yalnız o halı nəzərdə tutmaq lazım deyil ki, inqilabi xaos olacaq. Sadəcə, inqilabi dəyişikliklərə nail olmaq lazımdır".

**P.Hüseyn vurğuladı ki, indiki böhrana qarşı cəmiyyətin potensialının səfərbər olunması, ümummilli həmrəyliyin ortaya qoyulmasına ehtiyac var:** "Əgər müxalifət buna nail ola bilərsə və iqtidardakı müəyyən dairələri də buna inandıra, yaxud vadar edə bilərsə, bu, ciddi addım olar. Əslində ölkənin böhrandan çıxmasının əsas mənbələrindən biri müxalifətin güclənməsindən keçir. Bu güclənmə də cəmiyyətə yansıyaraq şüurlu proseslərin getməsinə imkan yaradar. O baxımdan hazırda müxalifətin və onun liderlərinin borcu, vəzifəsi, məsuliyyəti ondan ibarətdir ki, bu böhranı dərinləşdirmək əvəzinə böhrandan çıxmaq üçün səy göstərsinlər, əsas da odur özlərini gücləndirsinlər. Özlərini gücləndirmək üçün də xalqla əlaqələrini intensivləşdirsinlər. Məsələn, son dövrlər belə fikirlər səslənir ki, bir ümumxalq hərəkatına ehtiyac var. Hərəkat tipli təşkilatlanmaya ehtiyac var. Bunu edə bilərsə, məncə, müxalifət indiki situasiyada xalqa və dövlətə özünün ən böyük töhfəsini verə bilər".

**Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyev bildirdi ki, içində olduğumuz şəraitin böhran olması bəllidir. Odur ki, hələlik iqtisadi və maliyyə sektorunu bürümüş, artıq sosial sferaya sıçramış və yaxın gələcəkdə siyasi mühiti ağuşuna alacaq reallıq özündə inqilab potensialı da daşıyır:** "Nə qədər ağır olsa da, etiraf etməliyik ki, bu günə qədər iqtidar vəziyyətə adekvat davranmır. Özünü siyasi baxımdan "tox" göstərməyə cəhd edən hakimiyyət yaxın gələcəkdə böhran reallığını etiraf etmək məcburiyyətində qalacaq. Çünki hakimiyyətdaxili münasibətlər də gərginləşməkdədir, hakimiyyət mənsubları B, C və digər ssenarilərə hazırlıqlara başlayıblar. ANS-dəki "Hesabat" olayı bu korlanan münasibətlərin aşkar təzahürüdür. Hakimiyyətdaxili münasibətlər sisteminin durumu, oradakı qrupların qarşılıqlı münasibətləri ölkə siyasətinin tablosuna həlledici təsir gücünə malik əsas amildir. Mənə görə inqilab dövləti çıxarlarımız üçün ziyanlı trayektoriyadır. Ölkənin dayanıqlılığı üçün təkamül ssenarisinə hazırlaşmaq daha məqbul sayılmalıdır. Təbii ki, təkamül ilk növbədə hakimiyyətin vəziyyətə adekvat münasibətindən-güzəştli mövqedən keçir. Unutmaq lazım deyil ki, dövlət müharibə şəraitində, şimal və cənub qonşularımızın imperiya iddiaları, dünya qlobal güclərinin iqtisadi ekspansiyası, ideoloji mərkəzlərin beyin işğalı reallığında yaşayır. Ən azı dövlətçiliyi hifz etmək baxımından emosiyadan kənar mövqe tutulmalı, axarı təkamülə yönəltmək lazımdır".

Ə.Əliyevin sözlərinə görə, situasiya nəzarətdən çıxacağı təqdirdə, dövlətin dəngəsini qoruyacaq instutisional infrastruktur, o cümlədən siyasi infrastruktur mövcud deyil. Ən azı bu səbəbdən inqilab eksperimenti yolverilməzdir. Dövləti laboratoriyaya, insanlarımızı sınaq subyektinə çevirmək qətiyyən olmaz.

**Müsavat başqanının müavini Elman Fəttah isə bildirdi ki, partiya 2016-cı il üçün fəaliyyət planını açıqlayıb. Həmin planda Müsavatın qarşıdakı aylarda həyata keçirməyi nəzərdə tutduğu işlər qeyd olunub:** "Təhlillər göstərir ki, hakimiyyət idarəetmə imkanlarını günü-gündən itirir. Müsavat ölkənin, vətənin taleyinə məsuliyyət daşıdığının fərqindədir. Bu baxımdan Müsavat Partiyası ölkəni gözləyən müsbət və mənfi bütün situasiyalarda hər şeyin xalqın və vətənin xeyrinə yekunlaşması üçün mümkün hazırlıqlarını görür".

❑ E.SEYİDAĞA

# İstiqrazlar- hökumətin son çarəsi, yoxsa...

## Ekspertlər bildirirlər ki, hökumət əhalinin evindəki pulu əldə etməyin yollarını axtarır...

**Yaxın günlərdə ölkədə bazara istiqrazlar buraxılacaq. Bunu maliyyə naziri Samir Şərifov ANS-in "Hesabat" proqramına müsahibəsində deyib. "Hökumət və Mərkəzi Bank tərəfindən valyuta bazarındakı ajiotajı aradan qaldırmaq və manata olan hörməti bərpa etmək üçün tədbirlər görür",- deyə nazir qeyd edib.**

Onun sözlərinə görə, çox yaxın günlərdə bazara istiqrazlar təqdim olunacaq: "Bunlar manat istiqrazlarıdır. Bu istiqrazlar üzrə yüksək faiz ödəyəcəyik. Mən vətəndaşları dəvət edirəm ki, evdə yastıqlarının altında saxladıqları manatları bu istiqrazlara qoysunlar. Biz yüksək faiz ödəyəcəyik. Bu faizlər inflyasiyadan bir qədər yuxarı olacaq. İnflyasiya 10 faizdirsə, biz 11-12 faiz verəcəyik".

**Samir Şərifov deyib ki, Maliyyə Nazirliyi bazara xarici valyutada da istiqrazlar çıxarmağı planlaşdırır. Bu istiqrazlar daxili bazar üçün nəzərdə tutulacaq. Onun sözlərinə görə, hazırda ölkədə böyük həcmdə xarici valyuta var:** "Bu xarici valyuta işləmir, sahiblərinə xeyir gətirmir. Biz elə etməliyik ki, bu xarici valyuta işləsin. Amma xarici valyutaya elə böyük faiz verməyəcəyik. Azərbaycan dövləti deyir ki, dollarlarınızı faizlə verin bizə. Biz sizə yüksək faiz verən deyilik. Biz istəyirik ki, pullar işləsin. Xarici valyutada olan istiqrazlara aşağı faiz təklif edəcəyik. Hesab edirəm ki, bu, təxminən 3 faiz olacaq. Niyə? Çünki biz banklarda xarici valyutada olan depozitlərin qaçmasını istəmirik. Aşağı faiz verə bilərik. Onda əhali seçəcək ki, neyləsin. Öz xarici valyutasını işləməyə-işləməyə evdə saxlasın, bütün riskləri üzərinə götürsün. Bu, riskdir. Böyük həcmdə pulu evdə saxlamaq risklidir - oğru gələr, yanğın baş verə bilər... Ona görə də fikirləşsinlər ki, bu ajiotaja niyə qoşulublar. Cibdəki sonuncu manat əsginazı xarici valyutaya dəyişmək lazım deyil".




**Əksər ekspertlər isə bildirirlər ki, istiqrazların bazara, dövriyyəyə buraxılması hökumətin əhalidəki pulları əldə etməsi üçün fikirləşdiyi son çarədir. Ekspert Samir Əliyevin sözlərinə görə, S.Şərifov manat və dollar istiqrazları barədə danışıb:** "Manata görə 11-12 faiz ödəniləcək, dollara görə isə az. Bu gün manatın taleyi dünya bazarındakı neftdən asılıdır. Bundan başqa, digər təsir göstərən amil kapital axınıdır. Ölkədən güclü kapital axını var. Bu da manatı daim təzyiq altında qoyur. Biz bir ildə iki devalvasiyanın şahidi olduq. Əhalidə də təbii olaraq manata qarşı inamsızlıq var. Mərkəzi Bankın on milyardan artıq valyuta ehtiyatı son dövrlərdə azalıb. Həmin o vəsaitin bir hissəsi kapital şəklində xarici ölkələrə çıxarılıb. Bu, qeyri-rəsmi formada olub. Kapitalın bir hissəsi isə Azərbaycandadır. Əhali yastıq altında onu gizlədir. Əhali deyəndə, mən 400-500 manatı dollara çevirən insanları nəzərdə tutmuram. Onların aldığı dolların payı heç yüksək deyil. Söhbət əhalinin gəlirli, imkanlı təbəqəsindən gedir ki, onların bazardan aldığı dolların dəyəri bir neçə yüz mindən başlayır, bir neçə milyona qədər çatır. Əsas bu insanlar böyük pul kütləsini yığıb. Ölkədə isə valyuta sabitliyi yaratmaq lazımdır. Manata etibarı yaratmaq istəyiriksə, valyuta bazarında sabitlik olmalıdır. Bunun üçün əvvəla, gərək dollar qıtlığı hiss olunmasın. Bu gün bankların az dollar aldığı bildirilsə də, banklar dollar satmırlar. Dollar qıtlığı var və dollar qıtlığı olduğuna görə də insanlarda manata etibar azalır. O baxımdan, istiqraz o zaman olacaq ki, dollar kifayət qədər olacaq və əhali istədiyi vaxt ala biləcək. İkincisi, manatın məzənnəsi sabit qalacaq, bu halda manata etibar artacaq. Manata etibarı artırmağın yollarından biri də ölkəyə valyuta gətirilməsidir. Ölkəyə valyuta gətirməyin yolları barədə ekspertlər fikirlər bildirirlər. Neft Fondunun vəsaitlərinin müəyyən hissəsinin gətirilməsi, həmçinin xarici borclanmaya getmək də bu yollardan biridir. Üçüncü, daxili borclanmadır. Neft Fondunun vəsaitlərinin gətirilməsinin müəyyən riskləri var ki, o da Mərkəzi Bankın vəsaitləri kimi səmərəsiz xərclənib qurtaracaq. Xarici borclanmaya gəldikdə isə bizim bu gün borc səviyyəmiz yüksək deyil. Amma xarici borclanma həm müddət aparır, həm də yüksək faizlə verilir. Ona görə ən yaxşı üsul daxili borclanmadır. Bu da manatla buraxılacaq 11-12 faizlik istiqrazlarla həyata keçirilə bilər. Bilmirəm həmin istiqrazlara tələbat hansı səviyyədə olacaq. Düşünmürəm ki, güclü tələbat olacaq. Ola bilsin, bir müddət sonra sabitlik yaranar, insanlar manata üz tutarlar. Bu halda həmin istiqrazları alarlar. Amma bu gün tələbat məhz dollar istiqrazına olacaq. Ona görə ki, banklara münasibətdə əhalidə narahatçılıq var. Müəyyən qədər inamın azalması kimi də dəyərləndirmək olar. Biz bunu müşahidə edirik ki, əmanət qoyub, sonra gedib götürə bilmir banklardan. Ona görə pulu artıq yastıq altında saxlayırlar. Ona görə əgər istiqraz buraxılarsa, arxasında dövlət dayanır və dövlət zəmanət verir. Və bu, insanların həmin istiqrazlara inamını artıracaq. İstiqrazların üstünlüyü ondan ibarət ola bilər ki, yastıq altındakı pullar yenidən qayıdar ölkə iqtisadiyyatına. Gedib xaricdən dollar gətirmək yox, elə daxildəki dollarları iqtisadiyyata cəlb etmək olar. Bu baxımdan, istiqrazın buraxılması addımını müsbət dəyərləndirirəm. Ancaq bu, bank sektorunda əmanətlərin istiqraza yönəlməsinə gətirib çıxara bilər. Belə bir təhlükə var. Amma istənilən halda, əhalinin yastıq altındakı pulunu çıxarmağın yolu indiki zamanda, düşünürəm ki, istiqraz buraxmaqdır. Nominal məsələsinə gəldikdə isə bu da vacib məsələdir. Nə qədər aşağı olsa, bir o qədər əlçatan olar. Nominalın aşağı olması vacib şərtdir".

❑ Röya RƏFİYEVA

YENİ MÜSAVAT
N 18 (6339) 26 yanvar 2016



# Hərə öz qohumunu döysün

Zamin HACI
zaminhaci@gmail.com

**Xırdalanda balaca şagird qızı döyən müəllim haqda reportajda bir detal diqqətimi çəkdi: o məktəbin qabağındakı lövhədə "Misir-ərəb təmayüllü məktəb" yazılmışdı.**

Çox rəmzi lövhədir. Bunu həm ərəb xürafatının qədim dövrlərindən qalma falaqqa üsulu ilə şagirdə cəza verilməsi ənənəsinin yaşadılması, həm də keçmiş təhsil nazirimiz həşəmətli Misir müəllimin əziz xatirəsinin yad edilməsi kimi yoza bilərik. Misir və ərəblər bir yerdə birləşibsə, yazıq o məktəbdə oxuyan uşaqların gününə.

Hərçənd bəlkə çoxunuz unutmusunuz, o məktəb nakam qalmış Misir-Azərbaycan dostluğunun yadigarıdır. Bir vaxtlar yapistlər Misir diktatoru Hüsni Mübarəklə qardaşlaşmışdılar, Xırdalanda bunun şərəfinə nəinki məktəb, hətta içində piramida və Mübarəkin heykəli olan park da qayırmışdılar. Əvəzində misirlilər də öz ərazilərindəki hansısa balaca şəhərdə yapistlərin liderinə heykəl qoyub, küçə adı vermişdilər. *(Neft baha olanda biz xeyli belə "dövlətçilik və Azərbaycanı tanıtma" tədbirlərinə şahid olmuşduq, indi nəsə passivlikdir)*. Sonra misirlilər "ərəb baharına" qoşulub Mübarəki tutub qoduqluğa saldılar, heykəllərini uçurdular. Karikatur vəziyyət yaranmışdı: Mübarəkin dünyada yeganə heykəli Xırdalanda qalmışdı. Dünya xalqları yapistlərin bu "müdrik siyasətinə" görə bir müddət azərbaycanlıları barmaqla göstərib lağ elədilər. Nəhayət, bir gün yapistlər də bezib Mübarəki uçurtdular, bir dövlətçilik problemimiz də yumurtanın qiyməti kimi həll edildi.

Uşağı döyən müəllim haqda məktəb direktorunun açıqlamasını oxudum. Deyirdi bu uşaq müəllimin öz qardaşı qızıdır. Demək istəyir, ərklə döyübdür. Əlbəttə. Bu bizim mentalitetdən, milli xüsusiyyətlərimizdən irəli gəlir. Avropanın yaxşısını götürüb pisini atmalıyıq. Bizim öz qədim adətlərimiz vardır. Qızını döyməyən dizinə döyər. Muğamda qaldır zəngulə, uşağı vur dingildə. Müəllim vuran yerdən qızılgül açılar. Məktəbli döyülə-döyülə, müxalifətçi söyülə-söyülə. Şagirdin qanı alimin mürəkkəbindən bahadır. Təpik Xırdalanda da dəysə get. Və sairə və ilaxır - belə müdrik, ağsaqqal məsləhətlərimiz çoxdur.

Yaxşı yadıma düşdü, Cəbrayılın icra başçısı, dövlət xadimindən çox nokauta düşmüş boksçuya bənzəyən o yekəpər tip də bir az qabaq şikayətçiyə "axmaq köpəyoğlu" deyib söyməsini elə Xırdalandakı müəllimin məntiqiylə izah etmişdi: "O mənim bacım oğludur, ona görə söydüm".

Təbii. Hər kəs öz qohumlarını söyüb-döysə ölkəmiz düzələcək. İslahatı özümüzdən başlamalıyıq. Sadəcə, xaraba bir az balaca yerdir, kimə şıllaq atsan öz qohum-qardaşına dəyəcəkdir. Eybi yoxdur. Təki adamı elə öz qohumu vursun. Təki adamı elə öz əqrəbası, öz milləti soyub-talasın. Etibar Məmmədovun "Hyatt-Regencu" hotelinin hovuzunda boğulmazdan öncə dediyi dəhşətli müdrik fikir elə bu haqda olmuşdu: "Öz millətimin diktatoru, başqa millətin demokratından əzizdir". Eynilə, milli müəllimin vurduğu şapalaq hansısa ermənipərəst senatorun hazırladığı sanksiya layihəsindən qiymətlidir, əzizdir, dəyərlidir, daimidir, dönməzdir, dəqiqdir, qərəzsizdir, vicdanlıdır!

Sözgəlişi, telekanalizasiya idarəsi ilə unitazlardan biri arasındakı əcaib davada bağırsaq qurdunun qalib gəlməsi daha bir möhtəşəm aksiyadır. İntəhası, maraqlıdır, idarə müdiri deyir qurd öz yanlışını anlayıb üzr istədi, qurd isə deyir idarə müdiri yaramazdır, pulları basıb yemişdir. Canları cəhənnəmə. Mən, sadəcə, ərazidəki qanunsuz durumdan narahatam. Qanun şah olmaq yerinə, şah qanuna çevrilmişdir. Görürsən hansısa prokuroru tuturlar, sabahısı buraxırlar, prokurorun atası prezidentə minnətdarlıq yazır. Taxıl kisəsi ucuzlaşır, yenə prezidentə təşəkkür məktubları uçur. Hətta veriliş bağlayıb açmaq da ölkənin birinci şəxsinə aiddirsə, bəlkə xahiş eləyək, uşaqları da elə o özü, şəxsən şapalaqlasın? Nə olar ki. Hətta minnətdar olarıq. Yeri gələndə o da bizim qohum çıxır - babamızın oğludur.

# Azərbaycanda inqilabi islahatları zəruri edən daha bir ilginc səbəb

**Azərbaycan 25 illik müstəqillik dövründə ən qəliz mərhələlərdən birinə daxil olub. Bunu iqtisadi böhran ərəfəsi, yaxud böhranın özü adlandıranlar da az deyil. Neft strategiyasının, iqtisadiyyatı və büdcəni neft dollarlarına indeksləşdirmə siyasətinin acı sonucu kimi ortaya çıxan bu durum ən əvvəl hakimiyyətdən təcili və sürətli iqtisadi-siyasi islahatlar tələb edir.**

## Beynəlxalq agentlik ölkənin kredit reytinqini ən aşağı səviyyəyə salmağa hazırlaşır; bu, o deməkdir ki, kreditlər Azərbaycana ən yüksək faizlə verilə bilər; islahatları ləngitməyin hər günü ölkəyə daha baha oturmaqdadır; nə qədər ki, problemin həlli problemi yaradanlara tapşırılıb...




Bəs bu istiqamətdə fəaliyyət varmı? Müşahidələr nikbinlik üçün əsas yaratmasa da, "yuxarılar"dan gələn məlumatlar, hər halda, ölkə rəhbərliyinin ciddi şəkildə vəziyyətin fərqində olduğu təəssüratını formalaşdırır. Ötən yazılarımızda vurğulandığı kimi, mövcud təhlükəli situasiyadan ən optimal çıxış yolu, ən məqbul iqtisadi inkişaf modelinin tapılması üçün hətta xaricdən savadlı mütəxəssislər qrupunun dəvət edilməsi haqda informasiyalar yayılıb.

Lakin iqtisadçılara görə, bütün variantlar və modellərdə islahatlar üçün Azərbaycanın start maliyyə göstəriciləri önəmli rol oynayacaq. Bu üzdən hakimiyyətin yeni qaynaqlar tapmaq axtarışında olduğu da gələn xəbərlər sırasındadır...

***

Maraqlıdır ki, iqtisadi çətinliklərin öhdəsindən gələ bilməsi üçün Azərbaycanın xarici maliyyə bazarlarından vəsait cəlb etmək ətrafında danışıldığı vaxtda "Standard & Poor's" beynəlxalq reytinq agentliyi ölkəmizin kredit reytinqinin aşağı salına biləcəyini bildirib (virtualaz.org). Bunun səbəbi qismində isə neftin ucuzlaşması göstərilir.

Agentlikdən bildirilib ki, ilin əvvəlindən neftin dəyərini daha 20 faizə yaxın itirməsi neft ixrac edən ölkələrin, o sırada Azərbaycanın kredit reytinqinin aşağı salınmasını qaçılmaz edir. Bundan əvvəl agentlik ölkəmizin kredit reytinqini BBB səviyyəsində saxlayıb, ancaq uzunmüddətli borc öhdəlikləri üzrə proqnozu "stabil"dən "neqativ"ə endirib.

İndi isə gözlənilir ki, Azərbaycan, Bəhreyn, Qazaxıstan, Oman, Rusiya, Səudiyyə Ərəbistanı, Braziliya və Venesuelanın kredit reytinqlərinə yenidən baxılacaq. Analitiklərə görə, əgər agentlik Azərbaycanın reytinqini aşağı salsa, bu, o demək olacaq ki, ölkə xarici maliyyə bazarlarından kreditləri daha yüksək faizlə cəlb etməli olacaq.

***

Yada salaq ki, bugünlərdə prezident İlham Əliyev ölkədəki iqtisadi-sosial vəziyyət barədə hökumətin iqtisadi bloku ilə keçirdiyi müşavirədə mövcud valyuta qıtlığını aradan qaldıra bilmək üçün xarici bazarlardan vəsait cəlb edilməsinə göstəriş verib. Ölkə başçısı deyib ki, indiyədək Azərbaycan xarici borclar məsələsində çox ehtiyatlı davrandığı üçün xarici borcu ən az olan ölkələr arasındadır. Hazırda bu borc ÜDM-in 12-14 faizinə yaxındır.

İlham Əliyev bu mövzuda Davos forumunda danışıb və qeyd edib ki, Azərbaycanda islahatlar aparmaq üçün yaxşı vaxtdır. O, ölkənin maliyyə sektorunda fundamental islahatlara, iqtisadi islahatlar aparmağa, ixrac yönümlü qeyri-neft məhsullarının istehsalına başlandığını deyib və əmin olduğunu söyləyib ki, Azərbaycan böhranın öhdəsindən gələcək. Eyni zamanda o, pozitiv start göstəricilər qismində vurğulayıb ki, xarici borc ÜDM-in cəmi 12 faizini təşkil edir və ölkənin xarici valyutada böyük ehtiyatlar var.

***

Ölkənin valyuta gəlirlərinin kəskin azaldığı bir vaxtda bu aşağı borclanma səviyyəsi imkan verir ki, ən zəruri sahələrə kapital qoyuluşları üçün beynəlxalq maliyyə institutlarından kredit cəlb etsin. Aparıcı beynəlxalq reytinq agentliklərinin Azərbaycanın kredit reytinqini "üç B" səviyyəsində saxlaması bu kreditləri aşağı faizlə cəlb etməyə imkan verirdi.

"Nezavisimaya qazeta" yazıb ki, Rusiya da kəskin valyuta çatışmazlığı şəraitində borc götürməyə hazırlaşır. Maliyyə Nazirliyi bildirib ki, xarici bazarlardan 3 milyard dolların cəlb edilməsi planlaşdırılır. Lakin indi Rusiya da bu borcu daha yüksək faizlə cəlb etməli olacaq. Rusiyanın xarici borcu isə Azərbaycanla müqayisədə yüksəkdir və ÜDM-in 42 faizinə yaxındır. Sonuncu dəfə Rusiya xarici bazarlardan 2012-ci ildə vəsait cəlb edib. 2 milyard dollar məbləğində 5 illik avrobondlara görə ildə 3.3 faiz, 10 illik avrobondlara görə (2 milyard dollar) ildə 4.6 faiz, 30 illik avrobondlara görə (3 milyard dollar) illik 5.8 faiz ödəmək öhdəliyi götürüb.

Ekspertlər isə hesab edir ki, hökumət kreditin daha da bahalaşdığı bir vaxtda borc götürməkdənsə ölkənin öz valyuta ehtiyatlarından istifadə etməlidir. Xüsusən də Azərbaycan böyük həcmli xarici kreditlərə girişməyə də bilər.

***

Ancaq bir şey həqiqətdir ki, əgər vəsaitlərdən təyinatı üzrə, yəni islahatları sürətləndirmək, böhranı aradan qaldırmaq üçün istifadə olunmayacaqsa, o zaman onun mənbəyi *(xarici kredit, yoxsa milli valyuta ehtiyatı)* heç bir önəm kəsb etməyəcək.

Əsas məsələ də elə Azərbaycan iqtidarının radikal islahatlara nə dərəcədə hazır olmasıdır. Ötən yazıda vurğulandığı kimi, bundan ötrü 3 mühüm şərtin təmin olunması vacibdir - siyasi iradə, islahat komandası və konkret zamana hesablanmış islahat proqramı. Onlardan hər hansı biri çatmasa, islahatlar yenə baş tutmayacaq və ya yarımçıq qalacaq.

Məsələn, islahat proqramı deyəndə ilk növbədə ölkədə legitim hakimiyyət qollarının, ələlxüsus da müstəqil parlament və məhkəmə hakimiyyətinin qurulması nəzərdə tutulur. Bundan ötrü isə erkən seçkilər qaçılmazdır. Üstəlik, bunu beynəlxalq maliyyə institutları da görməli, duymalıdır. Varmı?

Hələ ki sadalanan istiqamətlərdə nisbi sakitlik hökm sürür. Hələ ki Azərbaycanı ağır problemlərə salmış bir hökumət komandası bütün heyəti ilə iş başındadır. Problemin həllini isə problemi yaradanlara tapşırmırlar...

❑ **Siyasət şöbəsi**



## İƏT-ə üzv ölkələrin Parlamentlər İttifaqı Xocalı faciəsini soyqırım kimi tanıdı

**İraqın paytaxtı Bağdadda işini yekunlaşdıran İslam Əməkdaşlıq Təşkilatına (İƏT) üzv ölkələrin Parlamentlər İttifaqının (İƏT Pİ) 11-ci konfransında, "İslam Konfransı Gənclər Forumu ilə İƏT Pİ arasında əməkdaşlıq" başlıqlı və iki qurum arasında Xocalı soyqırımının tanıtdırılması istiqamətində iş birliyini nəzərdə tutan qətnamə yekdilliklə qəbul edilib. Bu barədə APA-ya İKGF-nin mətbuat mərkəzindən bildirilib.**

Məlumata görə, 54 ölkənin parlament nümayəndələri tərəfindən yekdilliklə qəbul edilmiş qətnamənin müvafiq bəndində İKGF-nin Mədəniyyətlərarası Dialoq üzrə baş koordinatoru Leyla Əliyeva tərəfindən irəli sürülmüş "Xocalıya Ədalət" beynəlxalq informasiya kampaniyasına dəstək ifadə edilir, Xocalı faciəsi soyqırım aktı və insanlığa qarşı cinayət kimi tanınır.

Qətnamədə həmçinin soyqırımı törədən cinayətkarların cəzalandırılması üçün İƏT-ə üzv ölkələrin parlamentlərini zəruri addımların atılmasına çağıran müddəa da öz əksini tapıb.

Qeyd edək ki, "Xocalıya Ədalət" beynəlxalq məlumatlandırma kampaniyası 2009-cu ildə Heydər Əliyev Fondunun vitse-prezidenti, İKGF-nin Mədəniyyətlərarası Dialoq üzrə Baş Koordinatoru Leyla Əliyevanın təşəbbüsü ilə başlanıb, hazırda 50-dən artıq ölkədə həyata keçirilməkdədir. Kampaniya nəticəsində dünyanın bir sıra parlamentləri, həmçinin İƏT Xarici İşlər Nazirləri Şurası və İƏT Parlament İttifaqı tərəfindən Xocalı qətliamı soyqırım aktı və insanlığa qarşı cinayət kimi tanınıb.

# Moldova kommunist inqilabı ərəfəsində

**Artıq bir həftədir Moldovanın paytaxtı Kişinyovda müxalifətin mitinqləri keçirilir. Vəziyyət həddən artıq gərgindir. Ruspərəst müxalifət artıq hökumət binalarını mühasirəyə alıb. Ölkə başçısının yanvarın 20-də qərbpərəst, Demokrat Partiyasının nümayəndəsi Pavla Filipi baş nazir postuna təqdim etməsi və parlamentin onu dəstəkləməsi Moskvanı ciddi narahat edib.**

## Kişinyov mitinqləri Azərbaycana da sıçraya bilərmi...



Qabil Hüseynli

Elə həmin gün ruspərəst qüvvələr parlament binası qarşısında aksiya keçirib və bu qərara etiraz olaraq parlament binasına hücum ediblər. Aksiya iştirakçılarının parlament binasına hücumu nəticəsində xeyli sayda insan yaralanıb. Yanvarın 20-dən başlayaraq Kişinyovda davamlı aksiya keçirirlər. Ruspərəst müxalifət artıq yanvarın 24-də keçirdiyi mitinqdə hakimiyyətə ultimatum göndərib. Hakimiyyətə müxalifətdə olan Sosialist Partiyasının lideri İqor Dodon bəyan edib ki, əgər hakimiyyət onların tələbini yanvarın 28-dək yerinə yetirməzsə, o zaman onlar beynəlxalq və digər əhəmiyyəti yolları, aeroport, dəmiryollarını bağlayacaqlar. Onlar Pavla Filipin formalaşdırdığı hökumətə etiraz edərək parlamentin buraxılaraq növbədənkənar seçkilərin keçirilməsini tələb edirlər.

Keçmiş SSRİ respublikalarından olan Moldovada yaşananların arxasında nələrin dayandığı barədə fikirlərini "Yeni Müsavat"a açıqlayan **politoloq Qabil Hüseynli** bildirdi ki, Moldova kasıb bir ölkədir, əhalinin maddi rifah səviyyəsi həddən artıq aşağıdır. Ona görə də Moldovada əhali daim ayaq üstədir, hakimiyyətlə xalq arasında uzunmüddətli körpü qurula bilmir. Bu səbəbdən də postsovet dövründə bu ölkədə dəfələrlə hakimiyyət dəyişikliyi baş verib. Hökumətlər müddətlərini sona qədər sürdürə bilmirlər. Moldovada Kommunist Partiyasının nümayəndəsi olan prezident Vladimir Voronin devrildikdən sonra qərbpərəst demokratlar hakimiyyətdədir. İndi isə kommunistlər qüvvələrini səfərbər edib və səfərbəretmədə Moskvanın barmağının olduğunu söyləyənlər az deyil: "Buna da inanmaq lazım gəlir. Çünki Rusiya NATO-nun sərhədlərinin genişlənməsindən çox narahatdır, Ukrayna hadisələrindən sonra Denstryanı bölgənin izolyasiyada qalması Moskvanı ciddi şəkildə narahat edir. Ona görə də Rusiya kommunistlərin Moldovada yenidən hakimiyyətə gəlməsi üçün maksimum qüvvə sərf eləyir. Yaranmış durumda isə Qərbin mövqeyi passivdir. Qərb Ukrayna hadisələrindən sonra postsovet məkanındakı ayaqlanmalara o qədər də qarışmaq fikrində deyil. Bununla yanaşı, Moldova Qərb üçün strateji cəhətdən çox önəmlidir. Ona görə də hesab edirəm ki, Qərb Moldovanın itirilməsinə, Rusiyanın təsiri altına düşməsinə imkan verməməyə çalışacaq. Moldovanın Rusiyanın təsiri altına düşməsi Ukraynanın da işini xeyli çətinləşdirə bilər. Üstəlik, Dnestryanı bölgə də bura əlavə olunanda yeni güc əldə edilir. Bu isə yenidən Rusiyanın strateji mövqelərinin Qərbə doğru dəyişməsi demək olur. Bu baxımdan da güman edirəm ki, hansısa formada Qərb vəziyyətə müdaxilə edəcək. Sadəcə olaraq, hələlik Qərb belə hesab edir ki, hadisələr güc tətbiq edilməsi zəmininə gəlib çatmayacaq. Çünki qərbpərəst hakimiyyət hələ ki mitinqçilərə qarşı güc tətbiq etmək fikrində deyil. Bu səbəbdən də məsələlər uzanır".

**Moldovada böyük miqyaslı davamlı mitinqlərin Azərbaycana da sıçraması ehtimalının olub-olmadığına gəlincə, politoloq dedi ki, oradakı hadisələrin xarakteri ilə Azərbaycandakı situasiyanın və hadisələrin xarakteri ilə o qədər də üst-üstə düşmür:** "Moldovada pis-yaxşı oturuşmuş bir demokratiya var. Bu demokratiya əhalinin etiraz hüquqlarından istifadə etməsinə, ayağa qalxmasına, hakimiyyətlə qarşı-qarşıya gəlməsinə şərait yaradır. Azərbaycanda isə əhali Moldovadakı kimi aktiv deyil, passivdir. Siyasi partiyalar da Azərbaycanda passivdir. Hakimiyyətin mövqeləri isə güclüdür. Bir də ki, Azərbaycanda maddi durum Moldovadakından yaxşıdır. Son vaxtlar müəyyən islahatlara başlanması da əhali arasında müsbət rezonans doğurmaqdadır. Düzdür, ayrı-ayrı bölgələrdə əhalinin etirazları ara-sıra baş versə də həmin etirazları lokallaşdırmaq və aradan qaldırmaq çətin olmur. Ona görə də hələ ki Azərbaycanda Moldova tipli qarşıdurma üçün ciddi imkan və şərait görünmür".

❑ **Etibar SEYİDAĞA**



## Türkiyə Rusiyanın sanksiyalarına cavab hazırlayır

**Türkiyə ilk dəfə Rusiyanın 2015-ci ilin noyabrından tətbiq etdiyi sanksiyalara qarşı cavab tədbirləri görməyə hazırlaşır.**

APA-nın məlumatına görə, bu barədə Rusiyanın "Kommersant" qəzeti yazıb. Qəzet bu sanksiyaların metallurgiya sahəsini əhatə edə biləcəyini qeyd edib.

"Metallurgiya sahəsindən başqa Rusiya məhsullarına qarşı hər hansı məhdudiyyətlərin qoyulması ehtimal edilmir", - deyə qəzet mənbəyə istinadən yazır.

Xatırladaq ki, ötən il noyabrın 24-də Suriya istiqamətindən sərhədi pozan Rusiya təyyarəsinin Türkiyə Silahlı Qüvvələri tərəfindən vurulmasından sonra Rusiya prezidenti Vladimir Putin noyabrın 28-də Türkiyəyə qarşı sanksiyalar tətbiq etmək barədə fərman imzalayıb.

Yanvarın 1-dən tərəvəz, meyvə, gül, toyuq əti və duzun Türkiyədən Rusiyaya gətirilməsi qadağan edilib.

# Başqalarından öyrənmək bacarığı...



**Hüseynbala SƏLİMOV**

**ABŞ-da vitse - prezidentlər elə bir səlahiyyətə malik deyillər. Xüsusən də nəzərə alanda ki, indki administrasiyanın müddətinin bitməsinə bir o qədər də çox vaxt qalmayıb...**

Amma bütün hallarda vitse -prezident C.Baydenin Türkiyəyə səfəri maraq doğurmaya bilməz. Ən azı ona görə ki, vitse-prezidentlər də, dövlət katibləri də bu və ya digər görüşlərdə prezidentlərinin və dövlətlərinin mövqeyini çatdırırlar...

İndi əsas məsələ təbii ki, Suriya məsələsidir. Burada pessimizm yersizdir, ona görə ki, problem ən böyük dövlətlərin diqqət mərkəzindədir.

Fəqət, nikbinlik üçün də əsas görünmür - dövlətlər danışır, nəyisə müzakirə edirlər, amma bundan sonra Suriyada ölənlərin sayı azalmır, toplar susmur və yaxud tanklar yerində dayanmır...

Suriya məsələsi o qədər də marağımı çəkmir. Ona görə ki, deyilənləri, yazılanları yetərli sayıram. Sadəcə, bu günlərdə iki detal diqqətimi çəkdi. Biri bu, idi ki, bəzi mənbələrə görə Rusiya da B.Əsədi istefa verməyə çağırıb.

Nə qədər dəqiq olub - olmadığını bilmirəm. Sadəcə, indiyə qədər düşünmüşəm ki, bu ölkə daha çox Bəşər Əsədin "məzənnə"sini qaldırmaqla məşğuldur və ilk fürsətdəcə onu qurban verəcək. Bu, Rusiyaya qarşı sanksiyaların götürülməsilə də bağlı ola bilər, başqa bir səbəblə də...

Demək istədiyim ikinci məsələ isə Almaniyanın xarici işlər nazirinin bəyanatı ilə bağlıdı. Xarici işlər naziri ərz edib ki, beş illik vətəndaş müharibəsindən sonra Suriyada mötədil qüvvələri hardan tapaq?..

Həqiqətən haqlı narahatlıqdı. Amma bir az gecikib. Mötədillik siyasi polyarlaşma ilə tərs mütənasibdir - siyasi polyarlaşma artanda o, azalır, azalanda isə, əksinə artır. İndi Suriyada mötədil qüvvə tapmaq çox çətindir.

Düşünürük ki, belə hallarda keçid dövrü elan olunmalı və ya keçid hökuməti qurulmalıdır. Amma bunun üçün də mötədil siyasi qüvvələr lazımdır ki, onlar ölkə naminə koalision hökumətdə çalışmağa razı olsunlar...

Bütün bunlar Suriyada necə həll olunacaq, bunu bilmirəm. Məndə son vaxtlar "bahar"lara və ya "rəngli inqilablar"a qarşı bir məyusluq və apatiya yaranıb - onlar daha əvvəlki kimi riqqətə gətirmir...

Güman edirəm, bu, başadüşüləndir. Suriyada əvvəl siyasi şanslar daha böyük idi -Əsəd çox şeyə hazır idi. O vaxt müxalif qüvvələr təklifləri qəbul etmədilər və maksimalist oldular. İndisə yenidən B.Əsədlə bir masa arxasında oturmağa məcburdular. Oturacaqlar, ya oturmayacaqlar, elə də aydın deyil. Aydın olanı budur ki, Suriyada müharibə gedir və müharibədə isə Suriya gedir...

C.Bayden dedi ki, ABŞ Suriyada qəti addımlara qərarlıdır. Amma bizə elə gəlir ki, onun dedikləri reallığı əks etdirmir. İstisna deyil ki, Suriya problemi növbəti administrasiya üçün qalacaq...

Fəqət, hər şey ola bilər. Bəlkə elə doğrudan da B.Obama adminsitrasiyası bu məsələdə israrlıdır?..

Bizə gəldikdə isə, mövqeyimizi əvvəldə bildirdik. Əslində inqilablara qarşı bizdə məyusluq hələ 92-ci ildə baş qaldırmışdı. Əvvəlcə böyük eyforiya vardı, amma tezliklə məyusluqla əvəz olundu - məlum oldu ki, nə hakimiyyətdəkilərin, nə də ki, cəmiyyətin demokratik dövlət qurmaq üçün potensialı elə də böyük deyil...

Sonra "bahar"lar və "rəngli inqilablar" digər ölkələrə üz tutdu. Amma "ərəb baharları" məyusluğun zirvəsi oldu və bu proseslərdən sonra biz onlara qarşı tamam soyuduq...

Bəlkə də suriyalılar da nəyəsə ümid edir... Məni düzgün başa düşün. Ötən həftə doğum günü qeyd edilən filosof F.Bekon deyirdi ki, hər şeyin meyarı ilk növbədə təcrübədir...

Biz də bunu qəbul edirik. Ona görə də heç bir cəmiyyətə demokratiyanı yaşamaq imkanı verməədən onun nəticələri haqqında fikir yürütmək olmaz - insanlara demokratiyanı yaşamaq imkanı verilməlidir. Bu, da bir təcrübədir və yalnız onun gedişinə görə mülahizə yürüdə bilərik...

O səbəbdən də bir daha deyirik ki, demokratiyaya qətiyyən mane olmaq olmaz. Amma müdrik bir kəlam var. Deyir ki, demokratiya azad və savadlı bir xalqın hakimiyyətidir...

Elə bu səbəbdən də, məsələn, qibtə etmək lazım deyil ki, Qırğızıstanda on il ərzində az qala iki dəfə inqilab olub. Bəli, oldu, amma bundan nə əldə etdilər? Hərdən bu haqda da düşünmək lazımdır...

Bu gün Suriya demək olar ki, yoxdur - həm ölkə kimi, həm də ki, dövlət kimi. Bunun özü bir dərs deyilmi?..

YENİ MÜSAVAT
N 18(6339) 26 yanvar 2016

# ANS-də baş verənlərin pərdəarxası

## Nuşirəvan Məhərrəmli Mirşahin Ağayevi "dostum" adlandırdı

**Ötən həftə Milli Televiziya və Radio Şurası (MTRŞ) ilə ANS arasında qalmaqal pik həddə qalxdı. Bundan əvvəlki dövrlərdə ayrı-ayrı əməkdaşların verilişlərinin qapadılması ilə bağlı qərarlar çıxaran və ya məhkəməyə müraciət edən MTRŞ bu dəfə telekanalın vitse-prezidenti Mirşahin Ağayevin müəllifi olduğu "Hesabat" verilişinin bir aylıq bağlanması barədə qərar çıxartdı.**

Ancaq ölkə prezidenti İlham Əliyev xaricdə olmasına baxmayaraq, məsələdən xəbər tutan kimi şuraya öz qərarını geri oxutdu. MTRŞ-nin sədri Nuşirəvan Məhərrəmli bu barədə qərarın verilməsini fərqli arqumentlərlə izah etsə də, M.Ağayev növbəti "Hesabat"ında daha kəskin notlarla qarşı tərəfin üstünə getdi. Maraqlısı budur ki, N.Məhərrəmli son açıqlamasında daha korrekt davranıb, hətta M.Ağayevlə "dostluğundan" bəhs edib. BAKU.WS-ə müsahibəsində MTRŞ sədri deyib ki, onunla Mirşahin Ağayev arasında şəxsi problemlərin olması barədə deyilənlər tamamilə səhv, absurd bir fikirdir: "Əksinə, ANS kanalında ən çox münasibətdə olduğum adam Mirşahin Ağayevdir. Mirşahin Ağayev dostumdur. Ümumiyyətlə, şəxsi məsələni bu işə qatmaq düzgün deyil. Təbii ki, bunu bu səviyyəyə gətirmək düzgün deyil".

**MTRŞ sədri ANS-in "Hesabat" verilişində tənqid olunmasından dərhal sonra səs-küylü qərarın verilməsi barədə fikirləri də təkzib edib:** "Mən dövlət qurumunu təmsil edirəm. Mənə qarşı əsassız bir ittiham irəli sürürlərsə, həmin ittihama cavab verməliyik, ya yox? İndi onların əlində kanal var deyə, onu tənqid edəcəklər?"

Hər halda, görünən budur ki, ölkə başçısının reaksiyasından sonra ANS-lə bağlı MTRŞ rəhbərliyinin münasibəti əvvəlkindən fərqlənir. Azərbaycanın ilk müstəqil telekanalı olan ANS-lə bağlı baş verənlərə ən müxtəlif yanaşmalar var. Bəzi mənbələr hesab edir ki, bu, hakimiyyətdaxili münasibətlərin nəticəsi sayıla bilər. İddialara görə, hakimiyyətdəki bəzi çevrələr ANS-in xəbər siyasətindən, proseslərə yanaşmasından narazı olduğu üçün onu susdurmağı hədəfləyib. Ancaq prezidentin iradəsinin ortada olması hələlik ölkədə mətbuat azadlığına sarsıdıcı zərbə vura biləcək bu addımın gerçəkləşməsinə imkan vermir. Fakt budur ki, ANS kanalı özünün xəbər siyasətində ciddi yeniliklər edib, tənqidi "doza"nı artırıb və tamaşaçı auditoriyasını artırmağı hədəfləyib. Bu isə ən müxtəlif maraqlı dairələrə xoş gəlməyə bilər.



**Ərəstun Oruclu:**
"ANS ətrafında baş verənlər hakimiyyətdaxili çəkişmələrin fəsadlarıdır"



**Siyavuş Novruzov:**
"ANS-də vətənpərvər verilişlər çoxdur, biz də izləyirik"

**Politoloq Ərəstun Oruclu "Yeni Müsavat"a bildirdi ki, ANS ətrafında baş verənlər hakimiyyətdaxili çəkişmələrin fəsadlarıdır:** "Əslində sonuncu "Hesabat"da Mirşahin Ağayev də bunu dedi. Açıq şəkildə bildirdi ki, hakimiyyətin daxilində dövlət başçısına qarşı gedən, onun üçün fəsadlar yaradan müəyyən qruplaşmalar və ya qruplaşma var. Hansı ki, çalışır Azərbaycan üçün problemlər yaratsın və ANS də buna qarşı çıxdığı üçün təzyiqə məruz qalır. Yəni bu, Mirşahin Ağayevin irəli sürdüyü versiya idi. Mən düşünürəm ki, bu versiya həqiqətdən çox da uzaq deyil. Son vaxtlar vüsət alan kompromat savaşını, mətbuatda gedən bəzi yazıları, ifşaedici xarakterli məlumatları, materialları da bunun üzərinə gəlsək, biz görərik ki, hakimiyyətin daxilində kifayət qədər ciddi problemlər mövcuddur. ANS də bütün tənqidlərə, bir sıra hallarda vətəndaşlar tərəfindən narazılıqlara baxmayaraq, ölkədə bugünkü telekanallar arasında məlumat, informasiya xarakterli əsas kanal olmaqla yanaşı, həm də əsas baxılan kanaldır".

Ə.Oruclunun fikrincə, görünür, ANS-in mövqeyi, bu məsələdə birmənalı tərəf tutmağı kimlərinsə xoşuna gəlmir və həmin hakimiyyətdaxili mübarizədə qarşı tərəfi bütün vasitələrdən məhrum etməyə çalışır. Dediyim kimi, bu, ilk hadisə deyil. Belə şeylər artıq olub, var və getdikcə də vüsət alır. Bu da təbiidir. Hazırda sosial-iqtisadi böhranın yaratdığı müəyyən ictimai-siyasi fəsadlar da yox deyil. Diqqət yetirdinizsə, orda Mirşahin Ağayev xüsusi vurğuladı ki, ANS Beynəlxalq Telekanallar Qurumunun üzvüdür, amma biz maksimal dərəcədə çalışdıq ki, bu verilişin bağlanması beynəlxalq mediaya çıxmasın. Bunu isə ölkədə insan haqları, siyasi təqiblər, söz və mətbuat azadlığı ilə bağlı problem yaradaraq, beynəlxalq aləmə çıxaranların, Azərbaycanın beynəlxalq aləmlə və ilk növbədə Qərblə münasibətlərini korlayan həmin o qruplaşmanın fəaliyyətinin davamı kimi qəbul etmək olar. Məlum məsələdir ki, Azərbaycan hakimiyyətində az qala açıq şəkildə Rusiyanı təmsil edən qruplaşma var və bu qruplaşmanın fəaliyyəti daim Azərbaycan-Qərb münasibətlərini pozmağa yönəlib. Fikrimcə, Mirşahin Ağayevin bu eyhamı tam əsassız deyil, burada müəyyən əsaslar var, xüsusilə də indiki dönəmdə. Azərbaycan hazırda sanksiyalarla hədələnir, bu həftə AŞ PA-nın Azərbaycanla bağlı müəyyən addımları gözlənilir. Belə olan şəraitdə Azərbaycanın Qərbdən, beynəlxalq aləmdən təcridinə daha da asan şəkildə nail olmaq üçün niyə də əlavə fəsad yaratmasınlar?"

**Ancaq politoloq dövlət başçısının fərqli davrandığını vurğuladı:** "Dövlət başçısı dövlət başçısıdır, prezident prezidentdir, onun qərarı müzakirə olunmur. Hər halda, onun müdaxiləsi də elə mən dediklərimə sübutdur ki, burada ikitirəlik var və bu fəsadlar məqsədli şəkildə törədilir. Biz İlham Əliyev tərəfindən başqa səylər görürük. O, Qərbdən gələn yüksək təmsilçiləri qəbul etməklə, onlara müvafiq mesajlar verməklə yanaşı, həm də demək olar ki, beynəlxalq tədbirlərin heç birindən qalmır. Bu, onun göstəricisidir ki, hakimiyyətdə xarici siyasət kursunun seçilməsi, yaxud xarici siyasət prioritetlərinin seçimi ilə bağlı ciddi fikir ayrılığı yaranıb. Bu fikir ayrılığı da özünü ən müxtəlif formalarda göstərir. Biz iki-üç il bundan əvvəl də deməşik ki, Azərbaycanda vətəndaş cəmiyyətinə olan təzyiqlər, vətəndaş cəmiyyətinə, mediaya, müxalifətə göstərilən təzyiqlər, ölkədə sistemli şəkildə siyasi məhbuslar formalaşdırmaq cəhdləri Azərbaycan-Qərb münasibətlərini pozmağa yönəlib və bu pozucu fəaliyyətin arxasında konkret olaraq Azərbaycan hakimiyyətində rusiyayönümlülərin fəaliyyəti, səyləri dayanır. Onlar da bu gün artıq xeyli dərəcədə uğur əldə ediblər. Qalıb indi həlledici mərhələdə tam şəkildə Azərbaycanı təcrid etmək və bununla öz himayədarlarının tərəfinə keçmək. ANS ətrafında baş verənlər də, dediyim kimi, bu fəsadlardan biridir".

**YAP icra katibinin müavini, deputat Siyavuş Novruzov isə ANS-lə bağlı hakimiyyət daxilində qarşıdurma olmasını "uydurma" adlandırdı:** "Söhbət tək ANS-dən getmir, televiziyalarda bəzi verilişlərlə bağlı ictimaiyyətdə narazılıq yaranır və MTRŞ-yə müraciətlər olur. ANS-də vətənpərvər verilişlər çoxdur, biz də izləyirik, rəhbərlik də daim xalqın maraqlarına uyğun fəaliyyət göstərir. Burada heç bir narahatlıq yoxdur. Müəyyən məsələləri inzibati metodla yox, danışıqla qaydasına qoymaq olar. Hər bir tərəfin hüquq və vəzifələri var. O baxımdan hərə özünün hüquq və vəzifələrini yerinə yetirir". S.Novruzov xatırladtı ki, AXC hakimiyyəti dövründən bəri ANS-lə bağlı dəfələrlə qərarlar qəbul olunub: "Amma ümummilli lider Heydər Əliyev hakimiyyətə gəldikdən sonra bu kanalla bağlı rəsmi qaydada dövlət tərəfindən heç bir ciddi addım atılmayıb".

"Milli Televiziya və Radio Şurasının (MTRŞ) "mıtırışı" kimi səsləndirilməsini məqbul hesab etmirik. Dövlət orqanının adı "metereşe" kimi səsləndirilsə daha yaxşı olar". Bunu isə APA-ya açıqlamasında Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Nəsimi adına Dilçilik İnstitutunun Tətbiqi Dilçilik şöbəsinin müdiri, Dövlət Dil Komissiyasının üzvü İsmayıl Məmmədov deyib.

Qeyd edək ki, ANS telekanalında yayımlanan "Hesabat" analitik-informasiya proqramının aparıcısı Mirşahin Ağayevin Milli Televiziya və Radio Şurasının adını "mıtırışı" deyə səsləndirməsi şura tərəfindən narazılığa səbəb olub.

❑ **Cavid TURAN**

# Azərbaycanlılar yayda Türkiyədə istirahət edə biləcəkmi?

## Erkən rezervasiya qiymətləri açıqlandı, vəziyyət ürəkaçan deyil...

**Manatın devalvasiyası turizm sektorunu çökdürüb. "Yeni Müsavat" bu barədə ötən saylarında bir neçə dəfə yazıb. Buna səbəb turpaketlərin yerli turizm şirkətlərinə dollarla satılması, bunun da yerli turistlərin cibinə uyğun gəlməməsidir.**

Məhz bu səbəbdən Azərbaycandakı turizm şirkətlərinin bəzisi öz fəaliyyətini dayandırıb, bəziləri isə iflas həddindədir. Belə ki, hər il bu vaxtlar Novruz paketi üçün müraciət edən yerli turistlər indi maddi durumun ağırlığından səyahət barədə düşünmürlər. Maraqlıdır, bu proses yay üçün də keçərlidirmi? Bu gedişlə yay turizmi də eyni vəziyyətdə olacaq, yoxsa?.. İstirahət üçün Antalyanı, Bodrumu, Quşadasını seçən azərbaycanlılar artıq oradan vaz keçəcəkmi?

Ötən həftədən etibarən bəzi turizm firmaları erkən rezervasiya qiymətlərini açıqladılar. Onlara nəzər salıb, ümumi vəziyyəti təxmin etmək mümkündür.

"Fly Travel" turizm şirkətindən əldə etdiyimiz məlumata görə, Türkiyənin Bodrum və Antalya şəhərləri üzrə bəzi hotellərin qiymətləri bəlli olub. Bodrum istiqamətində 17.06.2016 və 19.06.2016 tarixlərindəki turlara diqqət edək.

"Gümbet Holiday Beach Hotel" 3* - 199 ABŞ dolları.

"Light House Hotel" 4* - 249 ABŞ dolları.

"Green Beach Hotel" 5* - 299 ABŞ dolları.



Xatırladaq ki, qiymətlər 7 gecə, tam paket üçün nəzərdə tutulub.

Antalya istiqamətində 21.05.2016 - 15.06.2016 və 01.09.2016-30.09.2016 tarixlərində 7 gecə tam paket qiymətləri isə aşağıdakı kimidir:

"Ares Club Hotel" / "Ares Hotel Kəmər" 3* - 199 ABŞ dolları.

"Magic Sun Hotel" / "Matiate Hotel" 4* - 249 ABŞ dolları.

"River Garden Hotel" 5* - 299 ABŞ dolları

**"NZ Travel" şirkəti də qiymətlərini aşağıdakı şəkildə elan edib:**

Bodrum turu - 347 dollar

Bu tur 19.06.2016 - 26.06.2016 tarixlərini əhatə edir və 7 gecə/8 gün müddətinə nəzərdə tutulub.

Qiymətə daxildir:
- Aviabilet
- Hotel 7 gecə 8 gün
- Transfer
- Sığorta
- Qidalanma

Antalya turu - 199 dollar

Bu tur isə 21.05.2016 - 14.06.2016 tarixlərini nəzərdə tutur və 7 gecə/8 günlük paketdir.

Qiymətə daxildir:
- Aviabilet
- Hotel 7 gecə 8 gün
- Transfer
- Sığorta
- Qidalanma

Gördüyünüz kimi, bunlar erkən rezervasiya qiymətləridir. Bunu manatla hesablayanda isə məlum olur ki, ötən illə müqayisədə ikiqat qiymət artımından söhbət gedir. Bu halda vətəndaşlar üçün erkən rezervasiya da çıxış yolu deyil. Çünki bu turlar manat hesabı ilə yayın cırhacırında alınan turpaketlərdən heç nə ilə fərqlənmir. Üstəgəl, dolların qiyməti yaxın aylar ərzində düşsə, insanlar daha sərfəli şərtlərlə turpaketlər ala bilərlər.

Odur ki, vətəndaşlarımızın bu yayda Antalya, Bodrum və Quşadasında istirahət etmə planları hələlik ciddi sual altındadır.

"Yeni Müsavat" yada salır ki, eyni vəziyyət ötən ilin fevral ayında da olub. Belə ki, fevraldakı devalvasiyadan öncə erkən rezervasiyadan yararlanan vətəndaşlar ciddi maddi ziyana uğramışdılar. Həmin vaxt onlara iki variant təklif olunur: ya daha öncə aldıqları turpaketi geri qaytarsınlar, ya da dolların yeni kursu ilə ödəmə etsinlər. Yəni daha öncə ödədikləri turpaket qiymətinin üstünə əlavələr etsinlər.

❑ **Sevinc TELMANQIZI**

# AŞ PA-ya yeni prezident seçildi

## Qurumun Azərbaycan üzrə keçmiş həmməruzəçisi beynəlxalq təşkilatın rəhbərliyinə gətirildi

**Yanvarın 25-də Strasburqda Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) qış sessiyası qurumun baş katibinin əvəzlənməsi ilə öz işinə başlayıb. Sessiya iştirakçıları AŞ PA pezidenti Ann Brosserin yerinə Pedro Aqramuntu seçiblər.**

Bu barədə "Yeni Müsavat"a sessiyada iştirak edən Müsavat Partiyasının Məclis üzvü, vicdan məhbusu Tofiq Yaqublunun qızı Nigar Yaqublu məlumat verib. Onun sözlərinə görə, yeni prezident seçkilərdən sonrakı çıxışında Avropadakı ixtilaflardan, Fransa və Türkiyədəki terror hadisələrindən danışıb.

Qeyd edək ki, ispaniyalı deputat, Avropa Xalq Partiyası qrupunun üzvü Pedro Aqramunt ötən ilə qədər AŞ PA Monitorinq Komitəsinin Azərbaycan üzrə həmməruzəçisi olmuşdu və 5 il bu statusda çalışmışdı. Bu mənada AŞ PA-nın yeni prezidenti üçün Azərbaycan tanış ölkələrdən olacaq. Assambleya sədri vəzifəsinə namizədlər qurumdakı siyasi fraksiyalar tərəfindən irəli sürülür. Siyasi qruplar arasında razılaşdırılmış rotasiya prinsipinə dair "centlmen sövdələşməsi"nə əsasən bu dəfə növbə Pedro Aqramuntun rəhbərlik etdiyi Avropa Xalq Partiyası Qrupunun idi. Onun bu vəzifəyə namizədliyi ötən il öz qrupu tərəfindən irəli sürülüb. (apa)

İspaniyanın Valensiya bölgəsindən deputat seçilmiş senator Pedro Aqramunt 2000-ci ildən etibarən AŞ PA-da təmsil olunur. O, bu illər ərzində müxtəlif vaxtlarda assambleya daxilində komitə sədri vəzifələrində çalışıb, bir çox hesabatlar hazırlayıb və eyni zamanda uzun illər Azərbaycan üzrə həmməruzəçi vəzifəsində çalışıb. P.Aqramunt AŞ PA-da fəal parlamentarlardan hesab olunur. P. Aqramunt bu vəzifədə mandatı 2017-ci ildə bir dəfə yenilənməklə, 2018-ci ilin yanvar ayına qədər fəaliyyət göstərəcək.

"Avropanı təkəbbürlü olmamağa və qərbsayağı demokratiyanı zorla ölkələrə diktə etməməyə çağırıram"- AŞ PA-nın yeni prezidenti Pedro Aqramunt bəyan edib. Daha sonra o bildirib: "Biz belə hallardan çəkinməliyik. Hər ölkənin öz tarixi və inkişaf yolu olduğundan, qərbsayağı demokratiya modelini hansısa ölkəyə zorla tətbiq etdirməməliyik. Bu, təkəbbürlüyün göstəricisidir və çox təhlükəlidir. Çünki biz bu cür siyasətimizlə bir çox ölkələri özümüzdən uzaqlaşdıra bilərik".



**AŞ PA-nın qış sessiyasının ilk plenar iclasında qurumun yeni sədri P.Aqramunt bu vəzifədə görəcəyi işlərdən, assambleyanın prioritetlərindən, Avropada və dünyada baş verən əsas hadisələrdən, mövcud problemlərin həllindən danışıb. APA-nın Avropa bürosunun xəbərinə görə, AŞ PA sədri Avropa Şurasına üzv ölkələrdə həll edilməmiş münaqişələrin vəziyyətinə də toxunub:** "Bizim təşkilatımız daxilində bir neçə ölkədə münaqişələr hələ də həll edilməyib. "Dondurulmuş" adlandırdığımız münaqişələr mövcuddur. Gürcüstanda Cənubi Osetiya və Abxaziya, Moldovada Dnestryanı bölgədəki münaqişə, eyni zamanda Azərbaycanın Dağlıq Qarabağ münaqişəsi hələ də öz həllini tapmayıb. Bu münaqişələrin həll edilməməsi ümumilikdə Avropanın təhlükəsizliyi üçün təhdid təşkil edir".

**APA-nın Avropa müxbirinin məlumatına görə, Aqramunt demokratikləşmə ilə bağlı da mesajlar verib.**

Yeri gəlmişkən, Azərbaycan parlamentinin nümayəndə heyətinin qatıldığı sessiyada ölkəmizin hüquq müdafiəçilərindən heç kim təmsil olunmur. N.Yaqublu bildirdi ki, hələlik qış sessiyasının gündəliyində Azərbaycandakı məhbuslar, demokratiya və s. məsələlərin salınıb-salınmayacağı tam dəqiq deyil.

26 yanvarda isə Azərbaycanın milli maraqlarına xidmət edən iki hesabat müzakirə ediləcək. Belə ki, Robert Uolterin (Britaniya) "Dağlıq Qabağda və Azərbaycanın işğal altında olan başqa ərazilərində gərginlik", Bosniya və Herseqovinadan olan deputat Militsa Markoviçin "Azərbaycanın sərhədyanı regionlarının əhalisi qəsdən içməli sudan məhrum edilirlər" hesabatları müzakirəyə çıxarılacaq. Kəlbəcər girovları Dilqəm Əsgərov və Şahbaz Quliyevin azad olunması barədə sənədin də müzakirə olunacağı gözlənilir. Məlumata görə, AŞ PA-da Avropada mühacir problemi, Suriya və İraqdakı əcnəbi silahlılar, Avropa Şurasına üzv ölkələrdə insan haqlarının müdafiəsinin möhkəmlənməsi məsələləri də müzakirə mövzusu olacaq. Həmçinin Avropa İnsan Haqları Məhkəməsinin hakimləri də seçiləcək.

YAP-ın icra katibinin müavini, deputat Siyavuş Novruzov Strasburq müzakirələri barədə "Yeni Müsavat"a danışarkən bildirdi ki, Azərbaycanla bağlı 26 yanvar müzakirələrinə böyük önəm verir. Söhbət Azərbaycan ərazilərinin işğalı və Sərsəng su anbarının erməni işğalçılarının nəzarəti altında olması ilə bağlı qətnamə layihələrindən gedir.

**S.Novruzov sessiyada Azərbaycandakı insan hüquqları, siyasi məhbuslar və digər məsələlərlə bağlı müzakirələrin olub-olmayacağı barədə suala cavabında belə dedi:** "Güman etmirəm ki, bununla bağlı hansısa sənəd qəbul olunsun. Biz dəfələrlə bu məsələlərlə bağlı bildirmişik ki, burada hər hansı siyasi məhbusdan söhbət gedə bilməz. Azərbaycanda ancaq bu və ya digər vəzifə səlahiyyətlərini aşma, vergidən yayınma və digər məsələlərlə bağlı məsuliyyətə cəlb olunanlar var. Bunu da istənilən orqan araşdıra bilər. Ancaq məhkəmə qərarı olmadan kiminsə dərhal azadlığa buraxılmasını tələb etmək qanuna hörmətsizlikdir. Ancaq erməni lobbisi çox ciddi canfəşanlıq edir. Çünki AŞ PA-da ardıcıl şəkildə bir neçə sənəd qəbul olundu, Azərbaycandakı seçkilərin nəticələri və işğal olunmuş ərazilərimizlə bağlı. Yenə də iki sənədin qəbulu gözlənilir. Ona görə də ermənilər onlara yaxın olan deputatlar vasitəsilə bu kartdan istifadə etməyə çalışırlar".

**AŞ PA-nın yeni prezidentinə münasibətə və gözləntilərə gəldikdə, S.Novruzov bildirdi ki, qurumdakı müxtəlif siyasi qrupların fəaliyyətindən çox şey asılıdır:** "Müxtəlif qruplar var ki, erməni lobbisinin təsiri altındadır. Onlar ədalətə yox, erməni lobbisinin ayırdığı vəsaitə xidmət edirlər. İndi yeni prezident işləyər, baxarıq".

❑ **Cavid TURAN**

# "Mart ayında siyasi məhbusların çoxu azad oluna bilər"

## Hakimiyyətin qərbmeylli siyasəti ümidləri artırıb; hüquq müdafiəçisi martda sanksiya məsələsinin gündəmə gətiriləcəyindən narahatdır



**Son günlərdə Azərbaycanla Qərb arasındakı münasibətlərdə yumşalma hiss olunur. Xüsusilə prezident İlham Əliyevin Davos sammitindəki görüşləri bu istiqamətdə mühüm dönüş nöqtəsi oldu. Ekspertlər AŞ PA-nın bu günlərdə keçirilən sessiyasının münasibətlərin daha da istiləşməsinə səbəb olacağını proqnozlaşdırırlar.**

Bütün bunların gələn ayın 15-də Azərbaycanla bağlı sanksiya məsələsinin müzakirəsini arxa plana keçirəcəyi deyilir. Sanksiya hədələri həyata keçməzsə, hakimiyyətin mart ayında, yəni Novruz bayramında böyük əfv sərəncamı verəcəyi barədə xəbərlər yayılıb. Ölkə iqtidarının Yeni ildə azadlığa buraxmaq planında olduğu, amma son anda Qərbdən gələn sanksiya hədələrinə görə qərarını dəyişdiyi siyasi məhbusları bu dəfə azadlığa buraxacağı bildirilir.

**Hüquq müdafiəçisi Mirvari Qəhrəmanlı mart ayında əfv öncəsi növbəti dəfə sanksiya məsələsinin gündəmə gətiriləcəyindən narahat olduğunu bildirdi:** "Yazırlar ki, sanksiyalar Azərbaycan məmurları və onların hesablarına aiddir. Bu cür sanksiyalar həyata keçdikdə, məmurların bank hesabları dondurulur və onlara viza verilmir. Məmurun bağlanmış hesabı sanksiya müddəti bitdikdən sonra bərpa edilə bilər. Amma indiki sanksiyada bəndlərdən biri xalqımıza, Azərbaycan iqtisadiyyatına qarşı yönəlib. Məni narahat edən budur. Orada beynəlxalq banklara tövsiyə olunur ki, Azərbaycanla bağlı layihələr dayandırılsın, kreditlər verilməsin. Çox adam deyir ki, bunun xalqa dəxli yoxdur. Tamamilə səhv fikirdir. İndiki krizis dönəmində birbaşa təsiri var. Çünki hazırda Azərbaycanla bağlı çoxsaylı layihələr həyata keçirilir. Burada maraqlı tərəf odur ki, əfv qabağı indiyə qədər beynəlxalq təşkilatlar öz fikirlərini deyirlər. Hakimiyyətə qarşı bəyanatlarını da veriblər. Məni narahat edən odur ki, bu bəyanatlar olduğu halda, mart əfvinə az müddət qalmış hakimiyyəti qızışdırmaq üçün hansısa beynəlxalq təşkilat müəyyən addımlar atar. Çox arzu edirəm ki, Novruz qabağı belə sərt bəyanatlar verməsinlər. Bunlar olmasa, düşünürəm ki, hökumət siyasilərin əfvinə baxa bilər. Çox istərdim ki, həmkarlarım azad olunsun. Onu da qeyd edim ki, bu cür bəyanatlar səslənəndə, həmin xarici təşkilatlara və yerli QHT-lərə qarşı məhbus ailələri, cəmiyyət tərəfindən ciddi ittihamlar səsləndirilir. Düşünürəm ki, əfv olacaq".

**Hüquq müdafiəçisi ölkə başçısının siyasi müstəvidə bir sıra müsbət addımlar atdığını qeyd etdi:** "Nardaranda tutulan şəxslərin azad edilməsi, Məşədi Natiq Kərimovun azadlığa buraxılması, eyni zamanda sərt yazılarına baxmayaraq, istefa verən Zərdab prokuroru Rüfət Səfərovun azadlığı ölkə başçısının atdığı müsbət addımlardır. Bu bizdə digər siyasilərin də azadlığa çıxacağına ümid yaradır. Bu onu göstərir ki, mart ayında siyasi məhbusların çoxu azad oluna bilər. Onların çoxunun cinayətlərinin olmadığı, siyasi əqidələrinə görə həbs edildikləri hər kəsə məlumdur. Çox yaxşı olardı ki, Avropadan gələn bəyanatların sahibləri gözləmə mövqeyi tutsunlar. Açığı, Azərbaycanla Qərb arasında münasibətlərin yumşaldığını deyə bilmərəm. Bəzi hökumətyönlü şəxslər var ki, xüsusi tapşırıqla hərəkət edirlər, Qərb barədə müsbət fikirlər səsləndirirlər. Düşünürəm ki, hakimiyyət yaranmış vəziyyətdən istifadə etməlidir. Çox ağır proseslər gedir. İqtidar mövcud vəziyyəti anlayıb, adekvat addımlar atmalıdır".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 18 (6339) 26 yanvar 2016



# İcra başçısından sahibkara qarşı plakat sabotajı

**"Ramiz Yediyarov sizin adınızdan istifadə edərək sahibkarlara divan tutur"**




**Gədəbəy İcra Hakimiyyətinin sahibkarlara qarşı qanunsuzluqları, onlara divan tutması haqda daha bir məktub almışıq. Dövlət başçısına ünvanlanmış, bir neçə mətbu orqana surəti göndərilən məktuba qanunsuzluqların miqyasını göstərən fotoşəkillər də əlavə edilib. "Yeni Müsavat"a daxil olan məktubda heyrətamiz qanunsuzluqdan söhbət açılır. Məktubu olduğu kimi dərc edirik.**

**Məktubda deyilir:**

**"Hörmətli cənab Prezident!**

Xahiş edirik bu şəkillərə diqqətlə baxasınız. Şəkildən göründüyü kimi, sizin Gədəbəy rayonuna səfəriniz zamanı etdiyiniz çıxışdan bir abzas çap edilərək böyük plakat şəklində divara vurulmuşdur. Amma çox təəssüf ki, həmin divar adi istinad divarı deyil. Həmin divar Gədəbəy rayon sakini, sahibkar Fəxrəddin Fərəməz oğlu Bağırova məxsus obyektin Heydər Əliyev prospektinə çıxışını bağlamaq üçün rayonun icra başçısı Ramiz Yediyarov tərəfindən qanunsuz inşa edilmliş maneədir. Əgər həmin plakat götürülsə və plakatın vurulduğu, sonradan kərpiclə tikilmiş divarı sökülsə, o zaman sahibkar F.Bağırovun obyektinin H.Əliyev prospektinə açılan qapı və pəncərələri görünər. Vaxtınızı çox almadan Yediyarovun bu plakat "tilsimi " haqda əsl həqiqəti diqqətinizə çatırmaq istərdik. Məsələ ondadır ki, Yediyarov Gədəbəy rayonuna icra başçısı təyin edildiyi gündən başqa sahibkarlar kimi F.Bağırovu da sıxışdırmağa başladı. Ən müxtəlif təzyiqlərdən sonra hətta obyektin dağıdılması üçün məhkəməyə belə müraciət edən icra başçısı sənədlərin qanuni olması səbəbindən istəyinə çata bilmədi. Hikkəsinə qalib gəlməyi bacarmayan bu başçı kərpic hörgü ilə F.Bağırovun obyektinin prospektə açılan girişini bağladı. Amma məsələ təkcə bununla bitmədi. F.Bağırovun ayrı-ayrı instansiyalara mütəmadi şikayətlərindən narahat olan başçı ölkədə heç bir məmurun yol vermədiyi eybəcər yola əl atdı. Belə ki, gördüyünüz həmin plakatı çap etdirərək obyektin bağlanmış girişinə vurdurdu və sahibkara ismarış göndərdi ki, "plakat yuxarıların tapşırığı ilə vurulub, bundan sonra hər hansı dövlət orqanına şikayət edərsənsə, dövlətə və Prezidentə qarşı çıxmış olarsan. Aqibətin yaxşı olmaz". Başçının şantajından ehtiyatlanan sahibkar susmağa məcbur olur və uzun müddətdir ki, belə çətin şəraitdə işini davam etdirir. Amma yaxın zamanlarda fəaliyyətini tamam dayandırmaq məcburiyyətindədir. Onu da qeyd edək ki, Yediyarovun şantajından təngə gəlmiş bu şəxs rayonda hamının bildiyi, qeyd etdiyimiz həqiqət barədə danışmaq belə istəmir.

**Hörmərli cənab Prezident!**

Siz hər çıxşınızda yerli icra orqanlarına sahibkarların fəaliyyətinə mane olmamaq barədə tapşırıq verirsiniz. Amma R.Yediyarov nəinki tapşırığa əməl edir, birbaşa sizin adınızdan istifadə edərək sahibkarlara divan tutur. Rayona səfəriniz zamanı etdiyiniz çıxışlardan belə öz məqsədi üçün istifadə edən bu şəxsin əməllərinə ad vermək mümkün deyil. Sizin nüfuzunuzun kölgəsi altında ölkə iqtisadiyyatına bu cür zərbə vuran Yediyarovun keçmiş milli təhlükəsizlik nazirindən heç bir fərqi yoxdur. Belə bir icra başçısının rəhbərlik etdiyi rayonda hər hansı iş adamının iş qurmağa həvəsi olarmı? Göstərdiyimiz təkcə bu fakt Yediyarovun işdən azad edilməsinə kifayət edir. Amma Yediyarovun başqa cinayətə bərabər qanunsuzluqları da kifayət qədərdir və bu faktların araşdırılaraq müvafiq tədbir görülməsini sizdən xahiş edirik".

**❑ E.HÜSEYNOV**

# Əvvəl burda oynayırdılar, indi ağlayırlar...

## Şadlıq sarayından mərasim evinə çevrilən məkanlarda nələr baş verir?

**Bakıda sayı gün-gündən artan şadlıq saraylarının son devalvasiyadan sonra düşdüyü durum medianın gündəmindədir. Toyların azalması, gənclərin "çadır toyu", "bağ partisi" kimi ideyaları yaxın illərdə toyxana şəbəkəsinə ciddi zərbə dəyəcəyi proqnozlarını artırır.**

"Yeni Müsavat" isə bu fonda son illərdə sayı artan xeyir-şər evlərinin biznesini araşdırıb. Məlum olub ki, toyxana sektorunda ciddi rəqabət bəzi şadlıq saraylarının öz təyinatını dəyişib, xeyir-şər evi kimi fəaliyyət göstərmələrinə səbəb olub.

### Dəbdəbəli "Tural" şadlıq sarayı - haradan haraya....

Bunların ən parlaq nümunəsi "Tural" şadlıq sarayıdır. Təxminən 5-6 ay öncəyə qədər şadlıq sarayı kimi fəaliyyət göstərən bu məkanın təyinatı artıq xeyir-şər evidir. Binanın üzərindəki "Tural" şadlıq sarayı sözləri də "Mərasim zalı" sözləri ilə əvəzlənib. "Yeni Müsavat" xatırladır ki, Bakı Zooparkı yaxınlığında yerləşən bu şadlıq sarayı 2000-ci illərin əvvəlində Bakının ən məşhur, bahalı, eləcə də prestijli şadlıq saraylarından sayılıb. Hətta şəhərin "ilk 3 restoranı" siyahısında iklərdən olub.

Aradan 15 il keçəndən sonra onun öz fəaliyyət sferasını dəyişməsinin sirri bizimçün də maraqlı oldu. "Yeni Müsavat" sözügedən mərasim zalında olub, durumla maraqlandı. Məlum oldu ki, "Tural" 2015-ci ilin yay aylarından "Mərasim zalı"na çevrilib. Özünü sözügedən məkanın administratoru kimi təqdim edən Orxan adlı şəxs müxbirimizə bildirdi ki, restoranın öz təyinatını dəyişməsi şadlıq sarayı sektorundakı ciddi rəqabətlə bağlı olub. Şəhərdə 800 şadlıq sarayı olmasına diqqət çəkən müsahibimiz mərasim zalı kateqoriyasında rəqabətin daha asan olduğunu bildirdi. Amma bununla belə, indi də bura axının güclü olmadığına diqqət çəkdi.

### Menyu iki qiymətədir- 13 azn və 16 azn...

Menyu ilə maraqlandıqda isə öyrəndik ki, eks "Tural"da yas menyusunun qiyməti 13 AZN-dən başlanır. Yəni bu, minimal menyudur. Bura çay, halva, qənd, xurma, aş və qarası daxildir.

Digər menyu isə 16 AZN məbləğindədir. Bura isə 13 AZN-lik menyudan əlavə olaraq bozartma və soyutma ət daxildir. Burada da bir neçə zal fəaliyyət göstərir, mərasimlər isə səhər saat 10-dan 19.00-a qədər davam edir. Müsahibimiz hesab edir ki, müəssisə üçün toy keçirməklə yas təşkil etmə arasında xüsusi fərq yoxdur. Bütün hallarda yeməklər hazırlanır, ofisiantlar çalışır və qonaqlara qulluq göstərilir.








Öz təyinatını dəyişən digər məkan isə "Laləndə" xeyir-şər evidir. Bu məkan uzun illər şadlıq sarayı kimi fəaliyyət göstərəndən sonra mərasim zalına çevrilib. Hazırkı sahibi bu məkanı 1994-cü ildə satın alıb. 2009-cu ilə qədər də "Laləndə" restoran kimi fəaliyyət göstərib. Ondan sonra isə ancaq yas mərasimləri təşkil olunub. Burada isə konkret menyu yoxdur. Yas sahibləri ərzaqlarını özləri alır, süfrəyə qoyulacaq ehsanın siyahısını verir. Bu da klassik olur: çay, xurma, halva, aş, aş qarası... Ümumilikdə zalın icarəsi isə 600-700 AZN civarındadır.

"Laləndə"dən bildirdilər ki, həftədə bir-iki yas mərasimi təşkil edirlər. Bir çox hallarda menyuda əlavələr, klassik olmayan yeməklər əlavə etmək istəyənlər çıxanda rəhbərlik buna icazə vermir. "Barı son mənzilə gedəndə bir-birimizdən fərqlənməyək" məntiqi ilə ehsan süfrəsində qeyri-adiliklər yer almır. Çox nadir hallarda, kimsə ehsan süfrəsinə yad yeməklər üçün israr edəndə də rəhbərlik buna göz yumur.

Bu arada "Laləndə" yaxın zamanda mərasim zalı kimi öz fəaliyyətini dayandıracaq. Rəhbərlik orada idman zalı açmağı planlaşdırır.

Müğənni Ağadadaş Ağayevə məxsus olduğu bilinən, İ.Dadadoş küçəsində yerləşən *(Ayna Sultanova heykəlinə yaxın)* "Büsat" da vaxtilə şadlıq sarayı kimi fəaliyyət göstərdiyi halda, sonradan mərasim zalı kimi təyinatını dəyişib.

Şəhərdəki bəzi mərasim evləri arasında apardığımız ümumi gəzişmə zamanı məlum oldu ki, 300-400 nəfər üçün xeyir-şər evlərində ehsan süfrəsi açmaq ölü yiyəsinə 4 min manata başa gəlir.

"Yeni Müsavat" müqayisə üçün xatırladır ki, şəhərdə mərasim evi kimi fəaliyyət göstərən alternativ məkanların siyahısına "Təzəpir" məscidindəki mərasim zalları başçıq edir. Ümumən burada burada 6 mərasim zalı var. Zalların hər biri təxminən 230-250 nəfərə xidmət üçün yetərlidir. 100 nəfərə kimi qiymət bahadı, 100-dən çox qonaq gələndə bir yerin qiyməti 12-13 manat arasında dəyişir. Məclisdə çay süfrəsində - çay, limon, marmelad, limon, şokolad, halva, çərəzlər, qoğal və digər nemətlər verilir. Yemək menyusuna gəlincə, bura üstü qaralı plov, göyərti, pomidor, xiyar, mineral sular, pendir, təndir çörəyi daxildir. Yəni mərasim keçirən şəxsin istəyindən asılı olaraq başqa isti yeməklərdə verilə bilər.

Mərasim evlərinin baha başa gəldiyini düşünənlər isə çadır kirayələyir. Çadırların qiyməti adam sayına, böyüklüyünə və şəraitinə görə dəyişir. VİP çadırın qiyməti 1500 manatdır, amma "tanışlıqla" bu qiyməti 1200 manata da endirmək olar. VİP çadırın içərsində döşəmə, kondisioner, soba, xalça və mərasim üçün zəruri olan digər bütün şəraiti olur. Maddi imkanı daha çox olanlar ofisiant, qabyuyan, aşpaz və s. də cəlb edə bilər. Bütün bu xidmətlərin qiyməti çadırın ödənişindən ayrı hesablanır.

VİP çadırın qiymətini baha hesab edənlər "ağ dəri" çadır kirayələyir. 200 nəfərlik çadırın qiyməti günlük 300 manata, 100 nəfərlik çadırınkı isə 200 manata başa gəlir. Adi böyük çadırın qiyməti günlük 600 manatdır. Bu qiymətlər çadırın kirayəsi üçün günlük hesablanır. Yas mərasiminin birinci günündə adambaşına qiymət 5 manatdır və yalnız çay dəsgahı verilir. İkinci gündə yemək verildiyi üçün qiymət adambaşına 10 manatdan hesablanır.

**❑ Sevinc TELMANQIZI**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 18 (6339) 26 yanvar 2016

**ATƏT-in Minsk Qrupunun həmsədrlərinin son davranışları ciddi etirazlar doğurmaqdadır. Diplomatların Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) qış sessiyasında Azərbaycan ərazilərinin işğalı ilə bağlı qətnamə layihələrini müzakirəyə çıxarmağa hazırlaşmasına təpki verməsi birmənalı şəkildə pislənməkdədir. Əksər mövqe bundan ibarətdir ki, belə münasibətdən sonra həmsədrlərdən Qarabağ məsələsində ədalətli mövqe gözləməyə dəyməz.**



# Qarabağ məsələsi ilə bağlı kritik gün başlayır-AŞ PA ilə Minsk Qrupu üz-üzə qalıb

## Rəsmi Bakıdan, ekspertlərdən və siyasi qurumlardan həmsədrlərə etirazlar gəldi; Milli Məclis üzvləri də diplomatları ermənipərəstlikdə suçladı; Azərbaycan Minsk Qrupunun vasitəçiliyindən imtina edəcəkmi?

Xatırladaq ki, yanvarın 25-də öz işinə başlayan AŞ PA sessiyasında "Dağlıq Qarabağ və Azərbaycanın işğal edilmiş digər ərazilərində zorakılığın artması", "Azərbaycanın sərhədyanı bölgələrinin sakinlərinin qəsdən sudan məhrum edilməsi" (məruzəçi deputat Militsa Markoviçdir) və azərbaycanlı girovlar - Dilqəm Əsgərov və Şahbaz Quliyevin azad olunması ilə bağlı Azərbaycan tərəfinin təqdim etdiyi qətnamə layihələrinin müzakirələrdən sonra qəbulu gözlənilir. Erməniləri çox ciddi narahat edən AŞ PA gündəliyinə həmsədrlərdən də etiraz gəlməsi isə Minsk Qrupunun tam ermənipərəst mövqedən çıxış etməsinin təsdiqidir. ATƏT-in Minsk Qrupu isə AŞ PA-nı danışıqlar prosesinə ziyan vura biləcək əməllərdən çəkinməyə çağırıb. Bir müddət əvvəl qrup AŞ PA-nı Qarabağ münaqişəsinin tənzimlənməsi məsələsinə müdaxilə etməməyə çağırmışdı.

**Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Zahid Oruc da "Yeni Müsavat"a açıqlamasında xatırlatdı ki, ATƏT Minsk Qrupunun belə mövqeyi yeni hadisə deyil:** "Vaxtilə BMT-də Qarabağ müzakirələrini bloklamaq və Azərbaycanın təşəbbüslərini neytrallaşdırmaq üçün də oxşar bəyanatlar verilmişdi. İrəvandan alınan təpkilər fonunda Minsk üçlüyü yenə də ölkəmizə təzyiq yolunu seçərək danışıqlar prosesini digər müstəvilərə daşımağın yolverilməzliyi xəbərdarlığını Bakıya çatdırmışdı. Ermənilərin aşkar şantaja əl ataraq danışıqlardan çıxmaq hədəsi də qeyd etdiyimiz oyunun tərkib hissəsiydi. Guya tərəflər Sərkisyanı dilə tutaraq dialoq mühitini pozmamaq üçün onları razı saldılar və Azərbaycan üzərinə alternativ yollar axtarmamaq öhdəliyini qoydular. Araz Əzimovun ATƏT rəhbərliyinə göndəridiyi məktubu indi də yaxşı xatırlayıram. Ölkəmizin xarici işlər idarəsi Minsk formatından, əslində beynəlxalq tələdən çıxmağın hüquqi yollarını tapmağa çalışırdı və bundan ötrü hər vasitəyə əl atmağa hazır idi. Açığı, o dövrdə Rusiya və Amerika arasında konfrontasiya indiki səviyyədə olmadığından, hər üç dövlətin rəhbərliyi bizi yerimizdə oturtmaq üçün birgə hərəkət etdilər".

**Z.Oruc qeyd etdi ki, hazırkı şəraitdə ermənilər bizimlə Avropa Şurası müstəvisində bərabər rəqabət apa bilmir:** "Onların arqumentləri zəif, nümayəndə heyətləri gücsüzdür.Üstəlik, bu qurumda Qarabağla bağlı artıq xeyli parlamentari yaxşı bilgiyə malikdir və siyasi tərəfdaşlarımız həddindən artıq çoxdur. ATƏT isə gizli vasitələrlə və məxfi xidmət orqanları ilə oradakı işimizi sabotaj etmək üçün nə qədər daxili problemləri irəliyə atırsa, Azərbaycan strateji hədəfindən geri çəkilmir. Orada qəbul olunan qərarlar bizim mövqeyimizi möhkəmlədir və Sərkisyan rejimi əleyhinə yaxşı hücum silahına çevrilir. İndilikdə söhbət təkcə danışıqları inhisarçı mövqeyində saxlamaqdan deyil, hərbi vasitələrə və öz yoluna üstünlük verən bir tərəflə hansı formada danışmaq istəməkdən gedir. Bizim yeganə yolumuz əsgərimizi və diplomatlarımızı vahid bir ssenari, məram üzərində hərəkət etdirib, erməniləri cəzalandırmağa davam etdirməkdir. Minsk Qrupunun erməniləri müdafiə etməyi özünə son ifşa yolu olaraq seçməkdə davam etməsinə baxmaq lazım deyil. İrəvan etiraz edirsə, demək, biz düz yoldayıq".

***

**Politoloq Arzu Nağıyev bildirdi ki, Sərsəng su anbarı işğal olunmuş ərazidədir və ermənilər təmas xəttində yerləşən kəndlərə bu vasitə ilə də təsir edirlər. Ona görə də ekspert hesab edir ki, bu problemin aradan qaldırılacağı inandırıcı görünmür:** "Yəni məsələ qalxan kimi artıq işğal məsələsi gündəmə gəlir, bu isə ərazi bütövlüyü deməkdir. Erməniləri də qıcıqlandıran məsələ məhz budur. Çünki Madrid prinsiplərində də əsas məqam bundan ibarətdir. Təbii ki, ATƏT-in Minsk Qrupunun həmsədrləri də bunu bəhanə gətirirlər. Yəni birdən ermənilərə xoş gəlməz və atəşkəs pozular. Onsuz da hər gün pozulur, tərəflər itkilər verir". A.Nağıyev qeyd etdi ki, ATƏT-in Minsk Qpupunun həmsədrləri öz mənafelərini daha üstün tutmaqla təmsil etdikləri dövlətlərin mövqelərini ortaya qoyurlar və çalışırlar ki, AŞ PA bunlarla qəbul ediləcək qərarları razılaşdırsın: "Yenə də nüfuz məsələsi gündəmə gəlir. Məlumdur ki, ATƏT-in Minsk Qrupunun həmsədrləri ötən illər ərzində ancaq deklorativ bəyanatlar verməklə kifayətləndilər və münaqişənin həllində mühüm addımlar atılmadı, hətta əksinə, vəziyyət daha da gərginləşdi. Əlbəttə, buna regionda baş verən amillər də təsir göstərdi. Bundan da ermənilər öz xeyrinə istifadə etdilər və status-kvonun saxlanmasına, öz siyasi ambisiyalarına uyğun olaraq beynəlxalq hüquq normalarına hörmətsizliklə yanaşaraq addımlar atdılar. Buna da beynəlxalq qurumlar susqunluq nümayiş etdirdi. Çox təəssüf ki, BMT hətta bu məsələdə də seyrçi mövqe tutur. Çünki tək qətnamə qəbul etməklə, deklorativ bəyanatlarla münaqişə həll edilmir, bu, qeyd etdiyiniz kimi, beynəlxalq qurumların nüfuzuna xələl gətirir. Bunun da öz səbəbləri var". **Politoloq bildirdi ki, regionda nüfuz savaşı və eyni zamanda bölgü uğrunda mübarizə başlayıb:** "Burada hərənin öz maraqları var. ABŞ hər addımında Rusiyanı nüfuzdan salmağa çalışır. Rusiya da öz maraqları naminə müəyyən addımlar atmağa çalışır və onu İranın sanksiyalarının götürülməsindən tutmuş, Səudiyyə Ərəbistanında baş verənlər, Türkiyəyə edilən köməklər və s. narahat edir və buna görə də regionla bağlı hansı addımlar atılacağında çox maraqlı və narahatdır . Bunu da bütün Avropa başa düşür və öz addımklarını ehtiyatla atırlar. Bundan da belə nəticə çıxır ki, sessiyada Ermənistanla bağlı konkret tələb xarakterli hər hansı qətnamənin qəbulu inandırıcı deyil". **A.Nağıyev qeyd etdi ki, zərərli mövqe sərgiləməsinə baxmayaraq, ATƏT-in Minsk Qrupundan imtina etmək də mümkün deyil:** "Biz Avropya inteqrasiya etməkdə maraqlı bir dövlətik və öz müstəqil siyasətimiz var. Sadəcə, daha güclü və effektli rıçaqlara əl atmalı və bu istiqamətdə istər siyasi, istər də hərbi cəhətdən mühüm qərarlar qəbul etməliyik".

Azərbaycan Milli Məclisinin Avropa Şurası Parlament Assambleyasındakı (AŞ PA) daimi nümayəndə heyətinin üzvləri də həmsədrlərə sərt etirazını bildirib.

**Millət vəkili Qənirə Paşayeva deyib ki, həmsədrlərin son bəyanatı 26 yanvarda müzakirəyə çıxarılacaq iki önəmli qətnamə layihəsinə əngəl olmaq məqsədi daşıyır:** "Obyektiv olmaları gərəkən həmsədrlərin müzakirələrdən 3-4 gün öncə bu açıqlamanı verməsini Ermənistanın maraqlarının müdafiəsi kimi dəyərləndirirəm. Çünki Ermənistan nümayəndə heyətinin müzakirələrə və sənədlərin qəbul olunmasına qarşı səsləndirdiyi arqumentlərin bəziləri ilə həmsədrlərin arqumentləri üst-üstə düşür. Bir beynəlxalq təşkilatın digər bir beynəlxalq təşkilata və orada aparılacaq müzakirələrə qarşı hədə dili ilə danışması isə etikadan kənar bir addım kimi qiymətləndirilməlidir".

**"ATƏT-in Minsk Qrupunun həmsədrləri son bəyanatları ilə əslində özlərini axmaq yerinə qoyublar". Bunu isə AŞ PA-dakı digər deputatımız Fazil Mustafa bildirib.** "Artıq özlərini ermənilərin himayədarı kimi ifşa etmiş bu siyasi dələduzların Azərbaycanın milli maraqlarına zidd fəaliyyətinə son qoymaq üçün rəsmi məqamlarımız ən sərt addımları atmaqdan çəkinməməlidirlər", - deyə F.Mustafa bəyan edib.

**"Həmsədrlərin vasitəçiliyindən imtina olunmalıdır". BAXCP sədri, Azərbaycanın NATO PA-dakı nümayəndə heyətinin üzvü Qüdrət Həsənquliyev bu təkliflə çıxış edib. Q.Həsənquliyev Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi nəticəsində yaranmış münaqişənin həll olunmamasının və status-kvonun qorunub saxlanılmasının əsas səbəbkarlarının ATƏT-in Minsk Qrupunun həmsədr ölkələri olduğunu bildirib:** "Bu bəyanatla ATƏT-in Minsk Qrupu həmsədrləri beynəlxalq hüquqa tüpürməklə Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı ermənipərəst mövqelərini bir daha ortaya qoydular və bundan sonra onların vasitəçilik missiyalarını davam etdirməyə mənəvi və hüquqi haqları qalmır". BAXCP sədri hesab edir ki, Azərbaycan müti seyrçi mövqeyi tutmamalı, ATƏT-in və bu qurum tərəfindən formalaşdırılan Minsk Qrupunun fövqəladə toplantısının çağırılmasına nail olmalı, Rusiya, ABŞ və Fransa üçlüyünün vasitəçilik missiyasından imtina etməlidir. BAXCP sədri Azərbaycan hökumətini Minsk Qrupu həmsədrlərinin vasitəçilik missiyasından imtina edilməsi ilə bağlı təxirəsalınmaz addımlar atmağa və torpaqlarımızı azad etməyə çağırıb.

**Rəsmi Bakı da həmsədrlərin 22 yanvar bəyanatına etirazını bildirib. XİN-in mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev deyib ki, ATƏT-in Minsk Qrupunun həmsədrlərinin Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərindəki vəziyyət ilə əlaqədar Avropa Şurası Parlament Assambleyasının müvafiq komitələrinin hazırladığı hesabatları və AŞ PA-nın qış sessiyasında qəbul edilməsi gözlənilən qətnamələrinə dair mövqeyi ilə bağlı Xarici İşlər Nazirliyinin münasibəti 10 noyabr 2015-ci il tarixli bəyanatda ifadə olunub:** "22 yanvar 2016-cı il tarixli açıqlaması ilə ATƏT-in MQ-nin həmsədrlərinin münaqişənin həllinə töhfə vermək niyyətində olan digər beynəlxalq təşkilatın fəaliyyətinə və həmçinin, ciddi narahatlıq doğuran məsələ ilə əlaqədar beynəlxalq təsisata müraciət etmiş dövlətin suveren hüquqlarına müdaxiləsi MQ-nin həmsədrlərinin vasitəçilik səylərinin dürüstlüyünü, onlara olan inam və etimadı sual altına qoyur. ATƏT MQ-nin həmsədrləri BMT Təhlükəsizlik Şurası tərəfindən verilən mandatı hələ də doğrultmayıb və 20 ildən artıq bir dövr ərzində münaqişənin həllində heç bir irəliləyiş əldə olunmayıb. Belə ki, Azərbaycan Respublikasının ərazilərinin Ermənistan tərəfindən hərbi işğalı davam edir, qaçqın və məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtması mümkün olmayib. Bunun da əsas səbəbi ATƏT MQ-nin Ermənistan tərəfindən Azərbaycan ərazilərinin işğalının davam etməsinə münasibətdə nümayiş etdirdiyi barışdırıcı mövqeyidir". **Azərbaycan XİN daha sonra bəyan edib:** "ATƏT MQ-nin həmsədrlərinin danışıqlar prosesinin inhisarçısı qismində çıxış etməyə heç bir əsası yoxdur. Mandatına uyğun olaraq, ATƏT MQ-nin həmsədrləri münaqişənin həlli prosesində BMT Təhlükəsizlik Şurasının 822(1993), 853(1993), 874(1993), 884(1993) qətnamələrinin tələblərini, eləcə də digər beynəlxalq təsisatların sənədlərini nəzərə almalıdırlar. Azərbaycanın işğal olunmuş ərazilərindəki vəziyyət ilə əlaqədar Avropa Şurası Parlament Assambleyasının qış sessiyasının gündəliyinə çıxarılacaq qətnamələrə münasibətdə Ermənistanın təşviş içərisində olması rəsmi Yerevanın münaqişənin həllinə dair beynəlxalq ictimaiyyətin ədalətli və haqlı mövqeyindən nə dərəcədə qorxmasının daha bir göstəricisidir. Bu hal bir daha sübut edir ki, Ermənistanın məqsədi ATƏT Minsk Qrupunun həmsədrlərinin vasitəçiliyi ilə danışıqların davam etməsi imitasiyasının yaradılması ilə işğal və təcavüzə əsaslanan mövcud status-kvonun saxlanmasından ibarətdir. Azərbaycan Respublikası beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq, Ermənistanın Azərbaycana qarşı təcavüz və işğalının nəticələrinin aradan qaldırılması və regionda davamlı sülh və sabitliyin bərpa olunması istiqamətində bütün beynəlxalq təsisatların xoşməramlı fəaliyyətini və töhfəsini təqdir edir. Azərbaycan bu istiqamətdə bütün müqabil beynəlxalq təşkilatlarda fəaliyyətini davam etdirəcək".

Rəsmi Bakının bu mövqeyindən sonra həmsədrlərin Bakıya hansı arqumentlərlə, daha doğrusu, hansı üzlə səfər edəcəkləri sual doğurur. Görəsən, diplomatlar Azərbaycan ərazilərini işğaldan, dinc insanlarını girovluqdan azad etməyə, kəndlilərin su ilə təhdid olunmasına qarşı çıxan beynəlxalq təşkilata qarşı çıxmalarını nə ilə izah edəcəklər..?

Hər halda, 26 yanvarda AŞ PA-da keçiriləcək müzakirələrdə ədalətli mövqe sərgilənsə, bu, həm də ermənipərəst həmsədrlərə tutarlı cavab olacaq.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Cavid TURAN

YENİ MÜSAVAT
N 18 (6339) 26 yanvar 2016

# Məktəb və bağçalar "donuz qripi"nə görə dezinfeksiya olunacaq

## Rayonlarda virusla bağlı təhlükə aşkarlanan və ağır vəziyyətdə olan xəstələr dərhal Bakıdakı xəstəxanalarda yerləşdiriləcək



**Səhiyyə nazirinin müavini Abbas Vəlibəyov "donuz qripi" ilə əlaqədar əmr imzalayıb. Bu barədə lent.az-a Respublika Taun Əleyhinə Stansiyasının şöbə müdiri Rita İsmayılova bildirib.**

Onun sözlərinə görə, yanvarın 19-da imzalanan əmrə əsasən, ölkədəki bütün məktəbəqədər və ümumtəhsil müəssisələrində ciddi dezinfeksiya işlərinin aparılması ilə bağlı tapşırıqlar verilib.

Hazırda ölkə ərazisində "donuz qripi" A( H1N1) virusu ilə bağlı təhlükəli hala rast gəlinmədiyini qeyd edən şöbə müdiri bildirib ki, əmrdə uşaqlar arasında həkim yoxlamalarının aparılması, xəstə uşaqların sağlam uşaqlardan təcrid olunması ilə bağlı göstərişlər verilib.

R. İsmayılovanın sözlərinə görə, əmrə əsasən, "donuz qripi" ilə bağlı gigiyena və epidemiologiya mərkəzləri ciddi nəzarət tədbirləri həyata keçirəcəklər. Bütün yoluxucu şöbə, poliklinikaların A( H1N1) virus əleyhinə dərman vasitələri və maskalara təchiz edilməsi, o cümlədən Respublika Taun Əleyhinə Stansiyanın laboratoriyasının əlavə testlərlə təmin edilməsi ilə bağlı da göstəriş verilib.

Nazir müavini təcili yardım mərkəzlərinə xüsusi tapşırıq verib ki, rayonlarda " donuz qripi" ilə bağlı təhlükə aşkarlanan və ağır vəziyyətdə olan xəstələr dərhal Bakıda xüsusi ayrılmış xəstəxanalarda yerləşdirilsin.

R.İsmayılova qeyd edib ki, tapşırıqlara əsasən, ağır vəziyyətdə olanlar Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutuna gətiriləcək. Digər xəstələr isə Kliniki Tibbi Mərkəz və 7 nömrəli Uşaq Yoluxucu Xəstəlikləri Xəstəxanasına yerləşdiriləcək.


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**


## Bakı yollarında sürət həddi azaldılıb

**Bakı şəhərində müəyyən avtomobil yollarında maksimal hərəkət sürəti aşağı salınıb. Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzindən (NİİM) "Report"a verilən məlumata görə, bu dəqiqələrdə sürət həddinin azaldılması ilə əlaqədar elektron tablolarda dəyişiklik edilib.**

Belə ki, "Koroğlu" metro stansiyasından başlayaraq Buzovna qəsəbəsinə qədər, həmçinin Heydər Əliyev Hava Limanından başlayaraq "Nargilə" kafesinədək (Zığ şossesi) yollarda hərəkət sürəti aşağı salınıb.

"Zolaqlar üzrə sürət həddi 20 km/saat azaldılıb - 120 km/saat-dan 100-ə, 100 km/saat-dan 80-ə, 80 km/saatdan 60-a endirilib. Sürət həddinin azaldılmasına səbəb hava şəraitinin pisləşməsidir", - deyə NİİM-dən bildirilib. Əlavə edilib ki, hava şəraiti normallaşacağı təqdirdə yollarda hərəkət sürəti əvvəlki həddə çatdırılacaq.

Qeyd edək ki, aşağı hərəkət sürəti olan yerlərdə dəyişiklik edilməyib.

## Ərini öldürən qadın və tanışı barəsində həbs-qətimkan tədbiri uzadılıb

**Bakıda həyat yoldaşını öldürməkdə təqsirləndirilən Lalə Mahmudova və tanışı Sədi Məmmədov barəsində seçilmiş həbs-qətimkan tədbirinin müddəti uzadılıb.**

APA-nın məlumatına görə, Yasamal Rayon Məhkəməsinin qərarı ilə L. Mahmudova və S. Məmmədov barəsində seçilmiş həbs-qətimkan tədbirinin müddəti 2 ay artırılıb.

Qeyd edək ki, Kamran Mahmudovun 26 sentyabr 2015-ci il tarixdən itkin düşməsi barədə hüquq-mühafizə orqanlarına daxil olmuş məlumat əsasında həyata keçirilmiş istintaq və əməliyyat-axtarış tədbirləri nəticəsində müəyyən edilib ki, Bakı şəhər sakini Sədi Məmmədov tanışı Lalə Mahmudova ilə qabaqcadan əlbir olub əri K.Mahmudovu öldürmək məqsədi ilə sonuncuların yaşadığı mənzilə gəlib.

S. Məmmədov K. Mahmudovun yatmış vəziyyətdə olmasından istifadə edərək özü ilə gətirdiyi odlu silahdan onun bədəninin müxtəlif nahiyyələrinə bir neçə dəfə atəş açaraq qəsdən öldürüb və meyiti L.Mahmudova ilə birlikdə bıçaqla hissələrə bölərək özünə məxsus BMW markalı avtomobillə İsmayıllı rayonunda qardaşı Əli Məmmədova məxsus bağ evinin həyətində basdırıblar.

Cinayətin S.Məmmədov və L.Mahmudova tərəfindən törədilməsində əsaslı şübhələr yarandığından onlar ötən il oktyabrın 3-də tutularaq istintaqa cəlb olunublar. Həmin vaxt onların hər birinin barəsində 4 ay müddətinə həbs-qətimkan tədbiri seçilib.

## Bakıda narkotik alverçiləri ələ keçdi

**Bakıda narkotik alveri ilə məşğul olan şəxslər saxlanılıb. Daxili İşlər Nazirliyinin saytının məlumatına görə, Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Bakı şəhər sakinləri Rövşən Kazımov və Fərid Səfərzadə 1 kiloqram marixuananı satarkən tutulublar.**

Faktla bağlı araşdırma aparılır.


**Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.**

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**

**Əlaqə nömrəsi (050) 264 49 99**





## "Nar Walk" tətbiqi abunəçilərin istifadəsinə verildi

### Tətbiq vasitəsilə ən çox "nar dənəsi" toplayan istifadəçilərə hədiyyələr veriləcək

**"Nar" daha bir innovativ tətbiqi öz abunəçilərinin istifadəsinə verdi. "Nar Walk" tətbiqi vasitəsilə insanlar gəzdikləri məsafəyə görə xallar toplaya bilirlər və bu xallar əsasında hədiyyələr qazanırlar. Xallar "nar dənələri" (ND) kimi qeyd olunur və qət edilən hər 100 metr məsafəyə görə istifadəçiyə 1 ND təqdim olunur.**

nar
Gəlin birlikdə böyüyək

**"Nar" ND toplayan istifadəçilər arasında müsabiqə keçirməyə qərar verdi. Belə ki, yanvar ayının sonunadək ən çox ND toplamış ilk 3 istifadəçiyə müvafiq olaraq "Jawbone UP2", "iPod Shuffle" və "Energy" akkumulyatoru hədiyyə ediləcək.**

**Qeyd edək ki, istifadəçilər öz facebook hesablarını da tətbiqə əlavə edərək, dostlarının fəaliyyəti - onların nə qədər gəzərək məsafə qət etmələri, neçə xal toplamaları və s. barədə məlumatı görə bilərlər.**

**Tətbiqi yükləmək və müsabiqəyə qoşulmaq tam olaraq ödənişsizdir. Azərbaycanda bir ilk olan bu layihənin əsas məqsədi əyləncəli üsulla insanları sağlam həyat yaşamağa səsləməkdir. İstifadəçilər tətbiqi yükləmək üçün www.narwalk.com ttp://www.narwalk.com internet səhifəsinə daxil ola bilərlər. Tətbiq haqqında daha ətraflı məlumat almaq üçün "Nar" operatorunun rəsmi "Facebook", "Twitter" və "Instagram" səhifələrinə, o cümlədən 777 Çağrı mərkəzinə müraciət etmək kifayətdir.**

## Rusiyada 36 yaşlı azərbaycanlı qətlə yetirildi



**Rusiyanın Volqodonsk şəhərində 36 yaşlı azərbaycanlı qətlə yetirilib. APA-nın Rusiya bürosunun məlumatına görə, qətl hadisəsi yanvarın 23-də pivə barında baş verib. İki müştəri arasında baş vermiş mübahisə qətllə nəticələnib.**

Volqodonsk sakini, 1993-cü il təvəllüdlü şəxs 36 yaşlı azərbaycanlı tanışını bıçaqlayıb. Xəstəxanaya çatdırılan azərbaycanlının həyatını xilas etmək mümkün olmayıb.

Qətli törədən şəxs saxlanılıb. O, törətdiyi cinayəti etiraf edib. Onun barəsində Rusiya Federasiyası Cinayət Məcəlləsinin 105-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi açılıb.

Faktla bağlı araşdırma aparılır. Cinayəti sübuta yetirildiyi təqdirdə, həmin şəxsi 15 ilədək azadlıqdan məhrumetmə cəzası gözləyir.

## Bu gün də qar yağacaq, yollar buz bağlayacaq

**Yanvarın 26-da Bakıda və Abşeron yarımadasında arabir qar yağacağı, axşama doğru kəsiləcəyi gözlənilir. Virtualaz.org Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinə istinadən bildirir ki, paytaxtda və yarımadada güclü şimal-qərb küləyi əsəcək.**

Havanın temperaturu Abşeronda gecə 0-3 dərəcə şaxta, gündüz 0-2 dərəcə isti, Bakıda gecə 0-2 dərəcə şaxta, gündüz 0-2 dərəcə isti olacaq.

Sabah Azərbaycanın rayonlarında da arabir qar yağacağı gözlənilir. Bəzi rayonlarda intensiv olacağı ehtimalı var. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 2-7 dərəcə şaxta, gündüz 2 dərəcə şaxtadan 3 dərəcəyədək isti, dağlarda gecə 5-10 dərəcə şaxta, gündüz 0-5 dərəcə şaxta olacaq. Yollar buz bağlayacaq.

# Şagirdi döyən müəllimə prokurorluğa və nazirliyə çağırıldı

**Bugünlərdə sosial şəbəkələrdə daha bir müəllimin şagirdi döyməklə dərs başa salması əks edilən video-görüntülər yayılıb. Videodagörünür ki, müəllim dərsini bilməyən qız uşağının başından vurur, daha sonra isə onu təhqir edir. Hadisə Xırdalan şəhərindəki 9 saylı məktəbdə baş verib.**



**Müzəffər Baxış:** “Müəllim 300 manata qədər cərimə və ya 1 ilədək müddətə azadlıqdan məhrum edilə bilər”

**Məlahət Mürşüdlü:** “Belə hallar müəllimə yaraşmayan cəza formalarıdır”

Olaya münasibət bildirən Təhsil Nazirliyi bununla bağlı araşdırma aparıldığını və araşdırmanın nəticəsinin yaxın zamanda ictimaiyyətə açıqlanacağını bildirib. Məsələdə adı keçən müəllimə isə dünən prokurorluğa və Təhsil Nazirliyinə çağırılıb. Bəs bu fakt hüququ baxımdan necə qiymətləndirilir və həmin müəllimə üçün hansı cəza nəzərdə tutula bilər?

**Hüquqşünas Müzəffər Baxış** uşağı döymənin, təhqir etmənin cinayət əməli olduğunu dedi: “Azərbaycanın konstitusiyasına və qanununa görə, heç kim heç kimi nə təhqir edə, nə də döyə bilər. Belə bir səlahiyyət heç valideynin özünə də verilmir. Amma konkret olaraq müəllim uşağı döyübsə, onun üçün həm Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsində, həm də Azərbaycan Respublikasının Cinayət Məcəlləsində konkret məsuliyyət nəzərdə tutulub. Əgər döymə nəticəsində uşaq heç bir xəsarət almayıbsa, onun döyülməsi təsdiq olunursa, belə halda müəllimin əməli Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 38-1-ci maddəsi ilə tövsif olunmalıdır və həmin müəllim 500 manatdan min manata qədər cərimə və ya iki aya qədər inzibati qaydada həbs edilə bilər. Əgər müəllimin döyməsi nəticəsində uşaq yüngül xəsarət alıbsa, o zaman müəllimin əməli Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 128-ci maddəsi ilə tövsif olunmalıdır. Belə halda müəllim 300 manata qədər cərimə və ya 1 ilədək müddətə azadlıqdan məhrumetmə cəzası ilə cəzalandırıla bilər. Əgər uşağa az ağır xəsarət yetirilirsə, o zaman müəllimin əməli Azərbaycan Respublikasının 127.1-ci maddəsi ilə tövsif olunacaq və müəllim 2 ilədək azadlıqdan məhrumetmə cəzası ala bilər. Müəllimin uşağa yetirdiyi xəsarət ağır xəsarətlər dərəcəsinə aiddirsə, o zaman müəllimin əməli Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 126.1-ci maddəsi ilə tövsif oluna bilər və müəllim 3 ildən 8 ilədək müddətə azadlıqdan məhrumetmə cəzası ala bilər”.

**Hüquqşünas müəllimin şagirdi təhqir etməsinin də qanunla qadağan olduğunu və buna görə də cəza nəzərdə tutulduğunu dedi:** “Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 148-ci maddəsində təhqirə görə cinayət məsuliyyəti nəzərdə tutulur. Əgər təhqir kütləvi çıxışda, kütləvi əsərdə, kütləvi informasiya vasitələri ilə edilirsə, cinayət məsuliyyəti nəzərdə tutulur. Müəllim uşaqların içərisində çıxış edərək şagirdi təhqir edirsə, o zaman şagird özü, əgər yetkinlik yaşına çatmayıbsa, onun valideynləri Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəllənin 37.2-ci maddənin tələblərinə görə bu qəbildən olan cinayətlər xüsusi ittiham qaydası ilə təqib olunan cinayətlərdir. Yəni onlar məhkəməyə birbaşa müraciət etməlidirlər və müəllimin Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 148-ci maddəsi ilə cinayət məsuliyyətinə cəlb edilməsini xahiş etməlidirlər. Əgər şikayət verilmirsə, yəni əgər tərəflər barışırsa, onun icrasına xitam verilir. Amma Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 128 və 127 -ci maddələrində nəzərdə tutulan əməllərdisə bunlar xüsusi ittiham qaydası ilə təqib olunan əməllərdir. Bunlara görə də 128 və 127-ci maddələrə görə, yəni yüngül və az ağır xəsarət yetirilibsə, bu ictimai xüsusi ittiham qaydası ilə təqib olunan cinayətlərdir. Əgər valideynlərin şikayəti olmasa, bu işlərə baxmayacaqlar. Yalnız burada Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsinin 37.5-ci maddəsinə görə bu ictimai əhəmiyyət kəsb etdiyinə görə prokuror özü cinayət təqibinə başlaya bilər”.

**Azad Müəllimlər Cəmiyyətinin sədri Məlahət Mürşüdlü bunların müəllimə yaraşmayan cəza metodları olduğunu bildirdi:** “Müəllimin şagirdi təhqir etməsindən, döyməsindən, ümumiyyətlə, söhbət gedə bilməz. Şagirdə tətbiq edilən müxtəlif cəza formaları var. Bunlardan biri Pedaqoji Şuranın qərarı ilə bir neçə günlüyə uşağın məktəbdən uzaqlaşdırılması ola bilər. Ən çox sevdiyi dərsdən, məsələn, idman dərsindən bir neçə dərs azad edilə bilər. Töhmət, məktəb daxili qınaq verilə, xəbərdarlıq oluna bilər. Daha sonra valideynin iş yerinə yazmaqla uşaq cəzalandırıla bilər. Bunu valideyn əvvəldən bilməlidir. Sillə, şapalaq, təhqir cəza tədbiri deyil. Bunlar müəlliməyə yaraşmayan cəza formalarıdır. Bizim müəllimlər metodlarını, uşaqlara yanaşma şəkillərini dəyişməlidirlər. Bu cür davranışlar təhsil prosesində təlim zamanı demokratik, düzgün yanaşma deyil. Təhsildə müəllimlə şagirdin, valideynlə münasibətlərinin qurulmasında ifadə edilən yeni forma və üsul var. Müəllimlər yanaşmada bundan istifadə etsələr, özlərini dəyişdirsələr, sovetdən qalma prioritetlərdən əl çəksələr, bu münasibətlər, döymək, təhqir səviyyəsinə gəlib çatmaz”.

❑ **Günel MANAFLI**

# “Ölkə televiziyası toyxana verdiyi üçün...”

Ekspertlər xarici telelayihələrin Azərbaycanda uğur qazanmamasının səbəblərindən danışdılar...

**Dünyaca məşhur telelayihələrin versiyaları bir çox ölkələr kimi Azərbaycanda da hazırlanır. “Milyonçu”, “Səs Azərbaycan”, “Məni yarımdan soruş”, “Bu stil mənim” kimi proqramlar xarici proyektlərdən götürülərək yerli tamaşaçılara təqdim edilir. Lakin bu cür proqramlar hər zaman uğurlu alınmır və ya tamaşaçılar tərəfindən birmənalı qarşılanmır.**








Məsələn, Zaur Baxşəliyevin “Məni yarımdan soruş” proqramı tez-tez tənqid edilirdi. Türkiyədə efirə gedən “Ben bilmem, eşim bilir” proqramı ilə müqayisə edilən verilişin çəkiliş heyətinə iradlar tutulurdu. Hətta Günay Baxşəliyevanın həyat yoldaşı, aparıcı Zaur Baxşəliyevin belində oturması uzun müddət müzakirələrə səbəb oldu.

“Səs Azərbaycan” da tamaşaçıların tənqid hədəfinə çevrildi. Bəziləri iştirakçıların əcnəbi dildə mahnılar oxumasından, bəziləri isə münsiflərin özlərini süni aparmasından gileyləndi.

Hazırda isə ATV-də yayımlanan “Bu stil mənim” proqramı sosial şəbəkə və medianın gündəmini zəbt edib. Proqramda münsif Günay Musayevanın və iştirakçıların Türkiyə türkcəsində danışması, iştirakçı qızların yersiz dava etməsi, jarqon və vulqar sözlər işlətməsi insanlarda verilişə qarşı neqativ fikirlər formalaşdırır. Hətta bəzi tamaşaçılar proqramın efirdən yığışdırılmasını tələb edirlər. Azərbaycanda xarici telelayihələrin uğur qazanmamasına səbəb nədir? Xarici projelərin Azərbaycanda uğur qazanmamasının səbəbini öyrənməyə çalışdıq.

**Məsələ ilə bağlı danışan media eksperti Qulu Məhərrəmli bildirdi ki, xarici layihələrin ölkəmizdə uğur qazanmaması ciddi məsələdir:** “Azərbaycanda hazırlanan xarici teleproyektlərin hamısı uğurlu alınmır Bu ciddi məsələdir. Vaxtilə ”Lider" telekanalı “Milyonçu” layihəsini hazırlayırdı. Məncə, çox uğurlu alındı. Hazırda bir çox ölkələrdə layihə davam edir. Lakin bizdə uzunömürlü olmadı. Məlum oldu ki, bizim auditoriya və iştirakçılar bilgi standartları baxımından o layihə üçün bəsitdir. O layihənin hədəflədiyi səviyyəni əldə etmək olmur. Eləcə də bu gün ölkəmizə gətirilən elə projelər var ki, onların ömrü uzun olmayacaq. Bu gün hazırlanan layihələr əsasən reklam bazarı ilə bağlıdır. İnanmıram ki, o proqramları gətirmək bizim televiziyaçılığı inkişaf etdirir. Bu layihələr kimlərinsə fikirlərinə xidmət edir. Bəzi verilişlərə standartlar tətbiq olunanda məlum olur ki, ciddi problemlər var. Azərbaycan reallıqlarını ifadə edən layihələr gözəldir, onları inkişaf etdirmək lazımdır. Bu bizim televiziyaların özünəməxsusluğunu göstərər".

**Teleaparıcı Murad Arif qeyd edib ki, xarici proyektləri ölkəmizə gətirməzdən əvvəl tamaşaçının zövqünü formalaşdırmaq lazımdır:** “Bizdə tamaşaçının zövqü üzərində iş getmir. Televiziya və radiolarda musiqi siyasəti, formatı dəyişdirilməsə, xarici telelayihələr uğur qazanmayacaq. Ölkə televiziyası toyxana verdiyi təqdirdə zövqlü arembi, fank, caz formatında layihə ilə dəyişmək, uğur qazanmaq mümkün deyil. Musiqi telekanalları açılmalıdır. Bu gün ölkə televiziya və radiolarının 50 %-dən də azında milli musiqi səsləndirilir. Pop musiqisindən çox əcnəbi və bayağı mahnılara yer verilir. Ümumi durum dəyişməyincə ayrı-ayrı layihələr uğurlu alına bilməz”.

❑ **Könül İBRAHİM**

# MTRŞ serial çəkilişi üçün kanallara köçürülmüş vəsaiti açıqlayıb




**Milli Televiziya və Radio Şurası (MTRŞ) Azərbaycan prezidentinin 09 sentyabr 2011-ci il tarixli 1709 nömrəli və 04 aprel 2013-cü il tarixli 2830 nömrəli sərəncamına əsasən müvafiq olaraq ayrılmış 5 və 6 milyon manat vəsaitdən serial çəkilişi üçün kanallara köçürülmüş vəsaiti açıqlayıb.**

MTRŞ-nin Aparatından APA-ya verilən xəbərə görə, 09 sentyabr 2011-ci il tarixli 1709 nömrəli sərəncamına əsasən ayrılan 5 milyon manatdan ATV kanalının hesabına “Sirr”, “Pərvanələrin rəqsi”, “Onu bağışlamaq olarmı” serialının çəkilişi üçün ümumilikdə 1 milyon manat, ANS kanalına “Xoca” və “Ağabəyovlar” serialının çəkilişi üçün ümumilikdə 800 min manat, “Lider” kanalına “Dostlar”, “Satko”, “Muradına çatan günəş” seriallarının çəkilişi üçün ümumilikdə 800 min manat, “Space” kanalına “Cənnətə səyahət”, “Bir kəndin Sevinci” seriallarının çəkilişi üçün ümumilikdə 800 min manat, “Xəzər” kanalına “Aramızda qalsın”, “Qayınana”, “Ayrılıq son deyil”, “Həyat varsa”, “Sonun başlanğıcı” seriallarının çəkilişi üçün ümumilikdə 800 min manat, İctimai Televiziyaya “Qarabağ”, “Dalan”, “Döngələr”, “Qaranlıqlar çiçəyi”, “Xoş təsadüf” seriallarının çəkilişi üçün isə ümumilikdə 800 min manat vəsait köçürülüb.

Ölkə başçısının 04 aprel 2013-cü il tarixli 2830 nömrəli sərəncamına əsasən ayrılan 6 milyon manat vəsaitdən ATV kanalına “Çaqqal nəfəsi”, “Toy gecəsi”, “Həyat çiçəyi”, “Aydın” və “Qız yükü” seriallarının çəkilişi üçün ümumilikdə 1 milyon 200 min manat, “Lider” kanalına “Qisas”, “Durnalar qayıdanda”, “Tufanlı Səma” ümumilikdə 1 milyon manat, “Space” kanalına “Tək olanda qorxma”, “Oğurlanmış arzular”, “Üç bacı” seriallarının çəkilişi üçün ümumilikdə 1 milyon manat, “Xəzər” kanalına “Həyat sən nə qəribəsən”, “Sənə inanıram”, “Cehizsiz gəlin”, “Əli və Nino” seriallarının çəkilişi üçün ümumilikdə 1 milyon 250 min manat, “Region” kanalına “Hipokrat andı”, “Əhməd haradadır”, “Kolxoz 85", ”Sənsiz" seriallarının çəkilişi üçün isə ümumilikdə 550 min manat vəsait köçürülüb.

ANS kanalının hesabına “Fatma” və “Abşeron” seriallarının çəkilişi üçün 960 min manat köçürülüb: “Lakin müqavilə şərtlərini pozduğuna görə 40 min manatın ödənişi dayandırılıb. İş hazırda məhkəmənin icraatındadır”.

# YENİ MÜSAVAT

## Son səhifə

N 18 (6339) 26 yanvar 2016


# Ən gözəl nənə rusiyalıdır




Ötən il "ən gözəl nənə" yarışmasında dünyada birinci yerə çıxan rusiyalı "nənəşka"dan sonra "Avropa gözəli" də bu ölkənin nümayəndəsi olub. Bolqarıstanın paytaxtı Sofiyada təşkil edilən "Nənə dünya gözəllik yarışması"nda Yelizaveta Rodina "Avropa gözəli" seçilib. Sank-Peterburq şəhərindən gələrək yarışmada iştirak edən Rodina ötən ay nənə olduğu üçün xoşbəxt olduğunu deyir. "Ən gözəl nənə" yarışmasını ötən il 47 yaşlı Yelena Tveritneva qazanmışdı.



# Gülün və sağlam olun

Alimlər gülməklə bağlı bir çox maraqlı araşdırmalar aparıblar və belə nəticəyə gəliblər ki, gülmək insan sağlamlığına çox müsbət təsir edir. Gülmək zamanı qanda stress hormonları olan adrenalin və kortizonun səviyyəsi düşür, xoşbəxtlik hormonların (endorfinlər) səviyyəsi isə əksinə, qalxır. Nəticədə stress və gərginlik azalır. Sübut olunub ki, xroniki stress və gərginlik bir çox pozulmaların inkişafına səbəb olur. Daim gərgin vəziyyətdə olan insanın daxili orqanlarında da gərginlik artır ki, bu da mədə-bağırsaq, ürək-damar, sinir sistemlərində problemlərə səbəb olur. Belə ki, gərgin vəziyyətdə olan insanın bağırsaqları pis işləyir ki, nəticədə insanda qəbizlik inkişaf edə bilər. Xroniki stress qan damarlarının spazmına (sıxılma) səbəb olur. Nəticədə qan pis dövr edir, damarlarda iltihablar yaranır, damarların daxili divarlarında xolesterin daha tez yığılır. Məhz bu səbəbdən həkimlər ürək xəstəliklərindən əziyyət çəkən insanlara stressdən uzaq olmağı, daha çox gülməyi tövsiyə edirlər. Alimlərin müşahidələrinə görə, şən, güləruz insanlar daha az xəstələnir və daha tez sağalır. Məsələ burasındadır ki, gülmək immun sisteminə çox müsbət təsir edir. Alimlərin müşahidələrinə görə, gülmək zamanı qanda immun hüceyrələrin sayı artır. Gülmək hətta ağrısızlaşdırıcı təsirə malikdir. Amerika onkoloqları maraqlı eksperiment aparıblar. Həkimlər bir qrup pasiyentə komediyaları, gülməli verilişlərə və şoulara baxmağı tövsiyə edirdilər. Nəticədə bu pasiyentlər ağrılardan daha az əziyyət çəkirdi, onlara daha az ağrısızlaşdırıcı dərmanlar tələb olunurdu. Gülmək zamanı yuxarı tənəffüs orqanları təmizlənir, orqanizm daha çox oksigen alır, qan dövranı yaxşılaşır. İsveç alimləri komik və tragik teatr aktyorlarının həyatını müqayisə ediblər. Məlum olub ki, komik aktyorlar tragik aktyorlarla müqayisədə daha az xəstələnir və daha çox yaşayırlar.

# Milyonları paltaryuyanda yudu

İngiltərədə lotodan 33 milyon sterlinq qazanan iki biletdən birinin sahibinin bileti şalvarının cibində unudub paltaryuyan maşında yuduğu iddia edilib. İngiltərə mediası adının açıqlanmasını istəmədiyi orta yaşlı qadının lotodan 33 milyon sterlinq qazandığı bileti zərər görmüş halda aldığı yerə aparıb, daha sonra da lotereyanı satan şirkətə göndərib. "Times" qəzetinin xəbərinə görə, qadın bileti şalvarının cibində tapdığı zaman üzərindəki nömrələrin qazanan nömrələr olduğunu öyrəndiyi zaman şoka düşüb. Bilet üzərindəki qazanan nömrələr və 2016-cı il tarixi rahat şəkildə görünür. Lakin biletin hansı gündə və ayda alındığı bəlli deyil. Qadının bilet aldığı yer lotonun oradan alındığını da təsdiqləyib. Qadın bileti aldığı gün haqqında faktlar toplayarsa, pulunu ala biləcək. Əgər pulun başqa sahibi ortaya çıxmazsa, 33 milyon sterlinq xeyriyyə quruluşlarına bağışlanacaq.






# Hiss edə bilən robotlar

Avstraliyanın Monaş Universitetindəki alimlər kəşf etdikləri materialın köməyi ilə hiss edə bilən robotlar hazırlamağın mümkün ola biləcəyini açıqlayıblar. Elektrik keçirmə qabiliyyəti gümüşdən daha yaxşı olan, istilik keçirməsi almazdan daha güclü olan "G-elastomer" adlı bu material, insan bədənindən daha çox həssasdır. Araşdırmaçılar hiss edə bilən robotlar hazırlamaq üçün istifadə edəcəkləri maddə həssas olmaqla yanaşı istilik və təzyiqi də hiss edir. Elastik, yüngül və süngər kimi materiala sahib olan maddə olduqca əlverişlidir.




QOÇ - Sürprizlərlə dolu bir gün yaşayacağınız güman olunur. Ola bilsin ki, bu təqvim yeni ilin ilk yaddaqalan tarixinə çevrilsin. Hər cəhətdən buna hazırlaşın. Hər bir prosesə soyuqqanlı yanaşın.

BUĞA - Havaların qeyri-sabitliyi sizə mənfi təsir göstərməkdədir. Odur ki, var gücünüzlə sağlamlığınızı qoruyun. Nahardan sonra şəxsi işlərinizdə böyük dəyişikliklər mümkündür.

ƏKİZLƏR - Təzadlı bir gün yaşayacaqsınız. Ətrafınızda cərəyan edən situasiyalar gah müsbət, gah da mənfi istiqamətə yönələ bilər. Belə məqamlarda dostlarınızla birgə olmağa çalışın.

XƏRÇƏNG - Özünüzü lovğa və ya təkəbbürlü aparmayın. Bu gün sizə sadə görünmək lazımdır. Bu yolla özünüzə qarşı rəğbət oyada bilərsiniz. Günortadan sonra qarşınıza yaxşı adamlar çıxacaq.

ŞİR - Pulla bağlı problemləriniz olsa da, qalan məsələlərdə ovqatınız xoş olacaq. Xüsusən də münasibətlər zəminində cərəyan edən proseslərdə rahatlıq tapacaqsınız. Uzaq yola çıxmayın.

QIZ - Ulduzların düzümü səfərə çıxmaq üçün münasib vaxt olduğunu bildirir. Maddi durumunuz imkan verirsə, bundan imtina etməyin. Ətrafınızda olan insanları real qiymətləndirməkdə yanılmayın.

TƏRƏZİ - İxtiyarınızda olan bu təqvim sizə düşərli olacaq. Çünki ulduzlar xoş ovqat və qazanc əldə edəcəyinizi bildirir. Oturaq işlərə çox da həvəs göstərməyin. Aktivliyinizi artırın.

ƏQRƏB - İkitərəfli əməkdaşlıq çox uğurludur. Əlavə adamlar planlarınızı poza bilər. Tanınmış şəxslərlə əlaqələrinizi dərinləşdirin. Günün ikinci yarısında yeni simalarla görüşləriniz mümkündür.

OXATAN - Bəri başdan nəzərinizə çatdıraq ki, bu gün başlıca vəzifəniz sağlamlığınızı qorumaq olmalıdır. Digər məsələlərə isə ciddi yanaşmağa ehtiyac yoxdur. Əsas gücünüzü istirahətə verin.

OĞLAQ - İxtiyarınızda olan bu təqvimdə heç bir narahatçılığınız gözlənilmir. İşgüzar sövdələşmələrdə iştirak etsəniz, növbəti ayda probleminiz yaranmayacaq. Pulla bağlı ehtiyatlı olun.

SUTÖKƏN - Yaxşı olar ki, bürcünüzün "hakim" olduğu bu ərəfədə hisslərinizi cilovlayasınız. Əks təqdirdə arzulamadığınız qalmaqala tuş gələcəksiniz. Yeni əlaqələr uğurdan xəbər verir.

BALIQLAR - Gün ərzində özünüzü bütünlüklə fəaliyyətə həsr etməlisiniz. Münasibət və alqı-satqı məsələlərinə isə həvəs göstərməyiniz məqsədəuyğun deyil. Axşam işgüzar söhbətlər aparmaq sizə səmərə verəcək.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Qorxusundan maska taxdı



Çində polisin 630 kiloqramlıq narkotikin və beynəlxalq ticarətlə məşğul olan 20 nəfəri ələ keçirməsinə kömək edən bir karqo işçisi 47 min sterlinqlik mükafata layiq görülüb. Adı açıqlanmayan karqo işçisi təhlükəsizlik məqsədi ilə pulu almağa maska ilə gəlib. Məlumatlara görə, saat qutularına yerləşdirilmiş narkotik vasitələr Malayziyaya göndəriləcəkmiş.

Səhifəni hazırladı: ŞAHNAZ


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300